# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

17 oktyabr 2018-ci il  № 69-76 (9259)  Qəzet 1931-ci ildən nəşr olunur  www.seanews.az  Qiymıəti 3 manat




*Bizim Xəzər Dəniz Gəmiçiliyi idarəsinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV,*
*Ümummilli Lider*






*Gəmiçiliyin gözəl gələcəyi var. Aparılan islahatlar, struktur islahatları və Gəmiçiliyin fəaliyyəti ilə bağlı atılan addımlar gözəl nəticələr verir. Daha böyük nəticələr olacaq... Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*





## YAŞA, DÜNYA DURDUQCA, YAŞA, GƏMİÇİLİYİM!

*Gəmiləri sulara*
*Bəzək Gəmiçiliyim.*
*Yaşı çox, arzuları*
*Təzə Gəmiçiliyim!*

*Şıltaqdır Xəzər kimi*
*Qara da, Ağ dəniz də.*
*Hünər dastanı yazdın*
*Neçə-neçə dənizdə.*

*Yatağına sığmayır,*
*Aşıb-daşır dənizlər.*
*Yalnız ən cəsurlara*
*Qulaq asır dənizlər.*

*Bilir hər bir dənizçin*
*Dənizlərin dilini.*
*Uğur sıxsın həmişə*
*Dənizlərdə əlini.*

*Dalğalansın hər dəniz,*
*Ümmanda bayrağımız.*
*Yurda sevgimiz bizim*
*Ən böyük dayağımız!*

*Hünərdən yoğrulubdur*
*Yüz altmış illiyin.*
*Şərəfli tarixinlə*
*Haqqın var, haqqın, öyün.*

*Şöhrəti sərhədləri*
*Aşan Gəmiçiliyim.*
*Yaşa, dünya durduqca,*
*Yaşa, Gəmiçiliyim!*

*Rasif İMANOĞLU*







**T Ə B R İ K**

# YOLUNUZ AÇIQ OLSUN, SƏFƏRLƏRİNİZ UĞURLU!

***Hörmətli həmkarlar!***

***Sizi təkcə dənizçilər üçün deyil, bütün xalqımız üçün əlamətdar tarix – Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı və dəniz nəqliyyatının inkişafı, möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik siyasəti ilə gündən-günə çiçəklənən müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsi naminə şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.***






Dənizçilik şərəfli olduğu qədər də çətin və məsuliyyətli peşədir. Yalnız bu peşəyə ürəkdən bağlanan cəsur və fədakar adamlar yerəgöyə meydan oxuyan dalğalara sinə gərməyi, dənizin bitməyən sınaqlarından üzüağ çıxmağı bacarırlar.

Elə qədirbilən xalqımızın dalğalar qoynunu hünər meydanı seçən dənizçilərə böyük hörmət və ehtiramı da xeyli dərəcədə onların fədakarlığından qaynaqlanır.

Xəzərdə gəmiçiliyin tarixi qədim olsa da, dəniz ticarət üzgüçülüyü məhz XIX əsrin birinci yarısında yeni təşəkkül tapıb və 1846-cı ildə Xəzərdə ilk buxar gəmisi peyda olub.

1858-ci ildə yaradılan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sələfi sayılan "Qafqaz və Merkuri" Xəzərdə çox ilklərə imza atıb. Dünyada ilk neftdaşıyan "Aleksandr" barjı 1873-cü ildə Xəzərdə istismar edilib. 1878-ci ildə inşa edilən ilk tanker "Zərdüşt" də Xəzərdə səfərlər edib. İlk daxiliyanma mühərrikli "Vandal" (1903), ilk reversivli iki mühərriklə çalışan "Delo" (1908) gəmilərində üzmək də Xəzər dənizçilərinə nəsib olub. Gəmiçiliyimizin o vaxtdan başlayan şərəfli yolu 160 ildir davam edir. 160 ildir dənizçilərimiz dalğalar qoynunda pozulmaz naxışlar salır, fədakar əməkləri ilə hünər dastanı yazırlar.

Gəmiçiliyin keçdiyi yol heç də həmişə hamar olmayıb. Buna baxmayaraq, dənizçilərimiz bir-birinə zidd dövrlərin saysız çətinliklərini peşələrinə sədaqətləri, doğma yurdlarına məhəbbətləri ilə dəf ediblər.

Dənizçilərimizin Böyük Vətən müharibəsində, xalqımızın milli azadlıq hərəkatında, qanlı 20 Yanvar hadisələrində, Qarabağ savaşında göstərdikləri şücaət də heç vaxt unudulmayacaq. Bakı neftinin alman faşizmi üzərində Qələbənin təmin olunmasında əvəzsiz rolu heç kimə sirr deyil. Qəhrəman neftçilərimizin hasil etdikləri neft və neft məhsullarını isə dənizçilərimiz hətta düşmən təyyarələrinin bombardmanları altında belə fasiləsiz daşıyıblar.

20 Yanvar faciəsi günlərində sovet hərbçilərinin təcavüzünə etiraz əlaməti olaraq Bakı buxtasına toplaşan gəmilərimizin güllələnməsi də dənizçilərimizi zərrəcə qorxutmadı. Bakıda törədilən qırğının dünya ictimaiyyətinə çatdırılması və qətliama son qoyulması üçün ölümün gözünə dik baxdılar.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan, sağlamlığını itirən dənizçilərimiz də az deyil...

Bugün 160 yaşlı Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin şanlı tarixi və zəngin ənənələri ilə fəxr etdiyimiz kimi, dünyada tayı-bərabəri olmayan donanmalarımızla da iftixar hissi keçiririk. Ən müxtəlif gəmiləri özündə birləşdirən donanmalarımız ilk növbədə ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir. Və bu gün dor ağacında müstəqil Azərbaycanımızın üçrəngli bayrağı dalğalanan gəmilərimizlə təkcə yaxın-uzaq sularda dinc yüklərin daşınması həyata keçirilmir. Dənizçilərimizin neft-qaz istehsalı üçün zəruri dəniz nəqliyyatı xidmətləri sahəsində də böyük səriştələri var. Xəzər Dəniz Neft Donanmasının dənizçiləri Xəzər şelfində, dənizin Azərbaycan sektorunda qiymətli enerji daşıyıcıları hasil edilən ilk gündən neftçilərlə çiyin-çiyinə çalışırlar. Başqa sözlə, Xəzərin dərinliklərindən çıxarılan "qara qızıl"ın hər damlasında dənizçilərimizin də zəhmət payı var. Xəzərdə bünövrəsi Ulu öndər Heydər Əliyevin neft strategiyası ilə qoyulan, "Əsrin müqaviləsi" ilə pərvəriş tapan və dövlət başçımız cənab İlham Əliyevin parlaq zəkası ilə naxışlanan bütün nəhəng layihələrin gerçəkləşdirilməsində dənizçilərimiz çiyinlərinə düşən vəzifələrin öhdəsindən məharətlə gəlirlər.

Bugün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi deyəndə həm də, yüksək keyfiyyətli gəmi təmiri, logistika, agentlik, təhsil və təlim xidmətləri təqdim edən, ətraf mühitin mühafizəsi, əməyin təhlükəsizliyi, insan resurslarının idarədilməsi sahələrində əhəmiyyətli layihələr həyata keçirən, işçilərinin güzəranının yaxşılaşdırılmasını, sosial-məişət problemlərin həllini, sağlamlığının möhkəmləndirilməsini, bilik və peşə bacarıqlarının artırılmasını daim diqqətdə saxlayan, veteranlara, şəhid ailələrinə, əlillərə, torpaqlarımızın erməni işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin düşənlərə... müntəzəm maddi və mənəvi yardım göstərən gəmiçilik şirkəti anlaşılır.

Çoxminli kollektivimiz yubileyi bütün sahələrdə qazandığı yüksək göstəricilərlə qarşılayır. Dövlətimizin böyük dəstəyi ilə donanmamızın gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan ən müasir gəmilərlə zənginləşməsi də, Xəzərdə öncül mövqeyimizin qorunub saxlanılması da, doğma sulardan uzaqlarda üzən gəmilərimizin sayının artırılması hesabına Gəmiçiliyin Xəzərdənkənar fəaliyyətinin genişləndirilməsi də, beynəlxalq reytinq şirkəti tərəfindən Gəmiçiliyə tarixində ilk dəfə olaraq kredit reytinqinin verilməsi də, Gəmiçilik üçün hazırlanmış "Yol Xəritəsi"ndə illər üzrə nəzərdə tutulmuş layihələrin icra olunması da, Gəmiçiliyin Təhlükəsizliyin Keyfiyyətli İdarəetmə Sisteminin beynəlxalq standartların tələblərinə uyğunluğu da... yubiley sevincimizə sevinc qatan faktlardır.

Qədirbilən dənizçilərimiz onların işini həmişə yüksək qiymətləndirən Ulu öndər Heydər Əliyevin Gəmiçiliyin inkişafında, Azərbaycanın çox böyük sərvəti hesab etdiyi donanmasının qorunub saxlanılmasında əvəzsiz xidmətlərini heç vaxt unutmurlar. Və haqlı olaraq deyirlər ki, təkcə Gəmiçilik üçün gördüyü işlər bu dahi şəxsiyyətin tarixdə əbədi qalması üçün yetərlidir. Sevindiricidir ki, dənizçilər Ulu öndərin siyasi kursunu böyük məharətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevdən də eyni diqqət və qayğını görürlər. Məhz dövlət başçımızın böyük dəstəyi ilə Gəmiçilik hər cür yükləri daşımağa və neft-qaz istehsalı ilə bağlı bütün dəniz nəqliyyatı xidmətləri göstərməyə qadir unikal şirkətə çevrilib. 2013-cü ilin 22 oktyabrında imzaladığı Sərəncamla dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədilə respublikada mövcud olan iki böyük donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması birləşdirilərək yenidən təşkil edilməklə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Azərbaycanın dəniz nəqliyyatının yüksək inkişafı, Gəmiçiliyin dünyanın ən qabaqcıl, beynəlxalq standartlara tam cavab verən şirkətə çevrilməsi üçün hər cür dəstək göstərilir. Təkcə son beş ildə Gəmiçiliyin donanması 20-dən çox yeni gəmi ilə möhkəmləndirilib. Hazırda Bakı Gəmiqayırma Zavodunda dənizçilərimiz üçün dörd gəmi tikilir. İki ədəd unikal "Ro-Pax" tipli gəmi-bərədən birinin gələn ilin sentyabrında, digərinin isə 2020-ci ilin yanvarında istismara verilməsi planlaşdırılır. Uzunluğu 154,5, eni 17,7 metr olan bu gəmi-bərələr 56 vaqon və ya 50 yük maşını, 100 sərnişin daşıya biləcək. Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi, ölkənin tranzit potensialının gücləndirilməsi məqsədilə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə şərq-qərb və əks istiqamətdə yükdaşımalarda xüsusi rola malik olan və Xəzərdə yeganə bərə operatoru kimi fəaliyyət göstərən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi üçün bu gəmilərin tikintisi çox böyük əhəmiyyətə malikdir.

Bakı Gəmiqayırma Zavodunda Gəmiçilik üçün "Gəncə" tipli iki tankerin inşası da sürətləndirilib. Altı yük tankı olan tankerlərin hər biri benzin, xam neft və neft məhsulları daxil olmaqla iki növ yükü eyni vaxtda daşıya biləcək. Xəzərdə suyun mövcud səviyyəsində, suya az oturumla maksimum çox yük götürə bilən bu nadir gəmilərin gələn il istismara verilməsi planlaşdırılır. Gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan hər təzə gəmi isə donanmamızın daha da gücləndirilməsi ilə yanaşı, həm də dənizçilərimiz üçün yeni iş yerləri deməkdir.

Bu yaxınlarda "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi də, hər il onlarla dənizçinin Vətənin yüksək mükafatları ilə təltif olunması da dəniz nəqliyyatı işçilərinin fədakar əməyinin dövlət tərəfindən layiqincə qiymətləndirilməsinin bariz nümunəsidir. Göstərilən diqqət və qayğı bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də çətin olduğu qədər də şərəfli bir peşənin təmsilçiləri olduğumuzun iftixarını yaşadır.

2017-ci il sentyabrın 6-da Bakı Gəmiqayırma Zavodunda "Şahdəniz-2" layihəsi çərçivəsində inşa edilən "Xankəndi" sualtı tikinti gəmisinin təqdimat mərasimində çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dilində səslənən "Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir" sözləri isə bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də cavabdeh olduğumuz işlər üçün məsuliyyət hissimizi qat-qat artırır.

Əminəm ki, gündən-günə çiçəklənən müstəqil Azərbaycanı qətiyyətlə daha xoşbəxt gələcəyə aparan dövlət başçımızın bütün sahələrdə mütərəqqi siyasətini dəstəklədiyinizi bundan sonra da əməli işinizlə sübut edəcək, müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Bir daha sizi təbrik edir, sizə aydın səma, uğurlu səfərlər arzulayıram.

**Rauf VƏLİYEV,**
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

# “QAFQAZ VƏ MERKURİ”DƏN BAŞLANAN YOL













***Xəzərdə gəmiçiliyin tarixi qədimdir. Abşeronun şimalında, Bəndovan burnu yaxınlığında suyun altında tapılmış dəyirman daşına bənzər daş lövbər bunun yeganə sübutu deyildir. Yazılı mənbələrə görə hələ orta əsrlərdə burada dənizçilərdən liman vergisi alırdılar.***

Xəzərdə dəniz ticarət üzgüçülüyü XIX əsrin birinci yarısında yeni təşəkkül tapdı. Xəzərdə ilk buxar gəmisi 1846-cı ildə peyda oldu.

O vaxtlar Rusiya iqtisadiyyatının yüksəlişi Xəzərə bitişik rayonların istehsal qüvvələrinin, habelə nəqliyyat və rabitə vasitələrinin inkişafına təkan verdi. 1856-cı ildə Rusiya Dəniz Nazirliyi yanında rus gəmiçilik kompaniyalarının təşkilinə kömək edən ticarət donanmasının inkişafı üçün komitə yaradıldı. Hökumət senatının 1858-ci il 21 may tarixli fərmanı ilə Bakıda “Qafqaz və Merkuri” aksioner gəmiçilik cəmiyyəti təsis edildi. 1859-cu il dekabrın 14-ü yeni gəmiçilik cəmiyyətinin fəaliyyətə başlaması günü oldu.

XIX əsrin 70-ci illərində su yolu ilə neft daşınması ilə əlaqədar Xəzər dənizində gəmiçilik kompaniyaları inkişaf edirdi. Rusiyada belə daşımalar digər ölkələrə nisbətən xeyli tez, 1873-cü ildən başlamışdı. Həmin il Artemyev qardaşları özlərinin “Aleksandr” yelkən gəmisini neftdaşıyan gəmiyə çevirdilər. İdeya olduqca sadə idi: ağac gəminin gövdəsinə xüsusi lar birləşdirir və oraya neft tökürdülər. Yükləmə-boşaltma işi əl nasosunun köməyi ilə görülürdü. Bunun faydası çox idi, səfər dövriyyəsi sürətlənirdi. ”Aleksandr” 6 səfər əvəzinə naviqasiyada 10 səfər edirdi. Bundan əlavə, onun əks istiqamətdə taxta materialı daşımaq imkanı var idi. Əvvəllər gəmilərdə boş çəlləklər gətirilirdi. Müvəffəqiyyət qardaşları bütün yelkən donanmasını neftdaşıyan donanmaya çevirməyə ruhlandırdı. Digər gəmi sahibləri də onlardan nümunə götürməyə başladılar.

Ağır neft növlərinin nəql edilməsi təcrübəsində Xəzər, “rus üsulu” adı almış yeni üsulun beşiyinə çevrildi. Bakı neft sahibkarlarından Robert Nobel neft daşınması üsulunun təkmilləşdirilməsi işində irəliyə doğru daha bir addım atdı. 1878-ci ildə onun sifarişi ilə İsveçrədə dünyada ilk tanker -“Zərdüşt” inşa edildi. Maraqlıdır ki, onu gəmiqayırmada ilk dəfə tətbiq olunan xüsusi poladdan tikmişdilər. O qədər də böyük olmayan bu gəmini Mariinsk sistemi ilə gətirmək üçün yük sisternlərini – tanklarını çıxarmış və barjlara yükləmişdilər. “Zərdüşt”ün Bakıya gəlməsi ilə birinci neft körpüsünə neft kəməri çəkmişdilər. Gəminin ümumi tutumu 250 ton idi. Tezliklə gəmidə bilavasitə anbarlar qoymuş və onun yükqaldırma qabiliyyəti 600 tona çatdırılmışdır. Yalnız səkkiz il sonra, 1886-cı ildə İngiltərənin “Armstronq” zavodu açıq dəniz üçün ilk tanker inşa etmişdir.

Bakı limanında qeyd edilmiş sonrakı tankerlər “Zərdüşt”ə nisbətən bir sıra üstünlüklərə malik idi.




Məsələn, “Uda” gəmisinin anbarında uzununa və köndələn arakəsmələr, göyərtədə isə anbarlar üzərində genişləndirici şaxtalar yox idi. “Moisey”in anbarları bir təbəqədən ibarət idi. “Merkuri”nin burun tərəfində də quru yük anbarı vardı. “Xilaskar”ın maşın şöbəsi dünya təcrübəsində birinci dəfə olaraq gəminin arxa hissəsində yerləşdirilmişdi.

Yeni gəmilərin ölçüləri də dəyişirdi. 1882-ci ildə inşa edilmiş birtipli tankerlərin ölçüləri (dedveyti 1050 ton) xeyli böyük idi. Həmin gəmiləri iki yerə bölərək Mariinsk sistemi ilə yola salırdılar. Sonrakı illərdə də digər tankerləri Xəzərə bu yolla gətirirdilər.

Səksəninci illərin ikinci yarısından etibarən Xəzər dənizi üçün neftdaşıyan buxar gəmilərinin Volqa üzərindəki gəmiqayırma zavodlarında tikintisinə başlandı. 1888-ci ildə orada “Naxçıvan” tankeri inşa edildi. Gəmi 56 ildən sonra da-müharibə dövründə qiymətli texniki yağ daşıyırdı. Gəmilərin ölçüləri və yükqaldırma qabiliyyəti daim artırdı. Kolomensk zavodunda “Delo” (“Valeri Çkalov”) tankerinin inşa edilməsi ilə Xəzərdə ilk dəfə 100 metr uzunluğunda gəmi peyda oldu.

Qazanlarda maye yanacağın tətbiq edilməsi yeniliyi də Xəzər donanmasına məxsusdur. Gəmilərdə buxar qazanları təkmil forsunkalar tətbiq edilməklə ucuz maye yanacaqla işləyirdi. Uzun illər Bakıda işləmiş akademik V. Şuxovun ideyası ilə hazırlanan forsunka geniş yayılmışdı. Şuxov qazan sisteminin vətəni də Xəzər dənizidir. Maye yanacağın çox olması Xəzər gəmilərinin daha tez daxili yanacaq mühərrikinə keçməsinə təkan verdi. 1903-cü ildə “Sormovo” zavodunda belə mühərriki olan birinci teploxod - “Vandal” istismara verildi. 1908-ci ildə Kolomensk gəmi inşaatçıları “Delo” tankerində iki reversiv mühərriki qoydular və bu gəmi dünyada ilk dizel dəniz tankeri oldu.

Dəniz daşımalarının artması ilə əlaqədar olaraq, Bakıda, Mahaçqalada (keçmiş Port-Petrovsk), Türkmənbaşıda (Krasnovodk) dəniz limanları inkişaf etməyə başladı. 1907-1908-ci illərdə düyü, pampıq, meyvə, meşə materialı, şəkər, metal və metal məmulatı və sairə daşımaq üçün quru yük gəmilərinin xüsusi çəkisi artdı.

1881-ci ildə donanmanı kadrlarla təmin etmək üçün Bakı dənizçilik sinifləri, sonra da gəmi mexaniki kursları yaradıldı. 1883-cü ildə dənizçilik siniflərinin birinci buraxılışı oldu.

“Qafqaz və Merkuri” cəmiyyəti 1917-ci il yanvarın 1-də ”Şərq ictimai ticarət anbarları” ilə birləşdirildi və “KAMBO” cəmiyyəti adlanmağa başladı. 1920-ci ilin yayında Xəzər dənizinin milliləşdirilmiş donanması ümumxalq mülkiyyəti elan edildi.

***“DƏNİZ”***

# DONANMA 1918-1920-ci İLLƏRDƏ

***1918-ci il mayın 28-də Milli Şura tərəfindən Azərbaycanın istiqlaliyyəti elan olundu. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu iyirmi üç ayda qurub-yaratmaqla bərabər, həm də yaşamaq uğrunda ölüm-dirim mübarizəsi aparırdı. Azərbaycanı müstəqil görmək istəməyən erməni daşnakları və yeraltı-yerüstü sərvətləri zəngin ölkəmizin əldən çıxması ilə barışmayan sovet hakimiyyəti əlbir olaraq gənc respublikamıza qarşı siyasi-iqtisadi təxribatlar törədir, onu elə bələkdə boğmağa çalışırdılar.***



1918-ci ilin martında Azərbaycanda erməni daşnaklarının törətdikləri cinayətlər və milli zəmində münaqişələr respublikanın su nəqliyyatına da ciddi ziyan vurmuşdu. Noyabrın 16-da ingilis hərbçiləri Xəzər ticarət donanmasının 17 ən yaxşı gəmisini ələ keçirib, hərbi məqsədlər üçün istifadə etdilər. Bundan başqa, donanmamızın yük tutumu 90 min ton olan 60 gəmisi məhv edildi və bir neçəsi xaricə göndərildi.

1918-ci ildə Rusiya ilə dəmir yolu əlaqəsi kəsilmişdi. Rusiyanın sənaye mərkəzlərinə neft və neft məhsullarını daşımaq üçün yeganə yol Xəzər dənizi idi. Həmin ilin yaz və yay aylarında Rusiya Azərbaycandan dəniz yolu ilə gizli şəkildə xeyli neft və neft məhsullarının aparılmasına nail oldu.

S. M. Kirovun məkrli göstərişi ilə Həştərxan Xəzər Donanmasının “İliç”, “Krasnoye znamya”, “İnternasional”, “Proletar”, “Roza Lüksemburq” kimi talançı hərbi gəmilərinin dənizçiləri də bu işdə böyük fəallıq göstərdilər.


ОБЪЯВЛЕНІЕ.

Постановленіемъ Азербайджанскаго Правительства отъ 5 октября 1918 года объявлена денаціонализація торговаго флота и подсобныхъ къ судоходству предпріятій.

Въ виду этого, передача владѣльцамъ имѣющагося на лицо націонализированнаго имущества будетъ произведена черезъ Уполномоченнаго Министра Путей Сообщенія, инженера путей сообщенія П. Н. Потоцкаго и порядокъ передачи оформленъ особымъ актомъ. Имущество и плавучія средства сдаются законнымъ владѣльцамъ въ томъ состояніи, въ которомъ таковыя нынѣ находятся.

Всякія претензіи, касающіяся существовавшаго и нынѣ упраздненнаго воднаго транспорта должны быть направлены уполномоченному Министра Путей Сообщенія, канцелярія котораго находится въ г. Баку, въ управленіи Бакинскаго Торговаго порта, до 1 декабря 1918 года.

Министръ Путей Сообщенія МЕЛИКЪ АСЛАНОВЪ.

Г. Баку, 23 октября 1918 г.

1919-cu ildə Bakıda və Həştərxanda “Xüsusi dəniz ekspedisiyası” yaradılmışdı. Ekspedisiya Azərbaycan neftini talan edib Rusiyaya axıdırdı. “Malyutin”gəmisinin, “Vstreça”, “Leyla”, “Maştağa” yedək gəmilərinin, “Bezımyanko”


9

А К Т Ъ.

Гор. Баку. Ноября 2-го дня 1918 года. Уполномоченнымъ Министра Путей Сообщенія по ликвидаціи дѣлъ бывшаго Воднаго Транспорта П.Н. ПОТОЦКИМЪ, въ присутствіи портового техника В.Н.Котельникова и Помощника Начальника Порта Н.В.Николаева, произведена сдача Обществу "Кавказъ и Меркурій" и "Восточному Обществу Товарныхъ Складовъ" пароходовъ, теплоходовъ, баркасовъ, баржей, плашкоутовъ, нефтянокъ и другихъ плавучихъ средствъ, оставшихся въ Бакинскомъ Порту послѣ эвакуаціи изъ него Каспійскаго Торговаго Флота вслѣдствіе вступленія въ г.Баку Турецкой Арміи, а также береговыхъ сооруженій: механическаго завода, эллинга, мастерскихъ, электрическихъ станцій, матеріальныхъ складовъ, пристаней, товарныхъ складовъ, лабазовъ, жилыхъ домовъ, желѣзныхъ резервуаровъ для нефти, вновь строющагося на Баиловомъ мысѣ дока и другихъ построекъ и сооруженій съ земельными участками вмѣстѣ со всѣмъ оборудованіемъ, движимымъ имуществомъ, матеріалами, товарами и грузами, имѣющимися на судахъ и въ другихъ береговыхъ постройкахъ и сооруженіяхъ, находившихся вслѣдствіе національзаціи въ вѣдѣніи упраздненнаго нынѣ Воднаго Транспорта, обратно владѣльцамъ нижеперечисленныхъ плавучихъ средствъ, построекъ и сооруженій въ лицѣ довѣреннаго Правленій Общества "Кавказъ и Меркурій" и "Восточнаго Общества Товарныхъ Складовъ" инженера Николая Николаевича СПЕКТОРСКАГО.

Нижеперечисленное имущество сдается въ томъ состояніи, въ которомъ оно принято Азербайджанскимъ Правительствомъ, при чемъ по осмотрѣ береговыхъ сооруженій, пристаней, судовъ и другихъ плавучихъ средствъ оказалось:

Принадлежащія Обществу "Кавказъ и Меркурій" плавучія средства

"МУШЪ", теплоходъ, находится въ ремонтѣ, производится постановка новаго чугуннаго кортера лѣваго мотора взамѣнъ лопнувшаго, а самый моторъ находится въ разобранномъ состояніи; стоитъ у пристани № 16.

"КОЛПИКЪ", баржа желѣзная, нефтяная, во всѣхъ трюмахъ 2 фута воды, на поверхности которой небольшой слой мазута, экипажа на баржѣ не имѣется; стоитъ у пристани № 16.

"АГА", баржа деревянная, экипажа не имѣется, стоитъ у пристани № 4 въ Черномъ Городѣ.

və “Çayka” motorlu qayıqlarının köməyi ilə Həştərxana dəniz yolu ilə 20 min pud benzin və 3500 pud sürtkü yağı göndərilmişdi. Xalqın sərvətinin yad diyarlara aparılmasının qarşısını almaq üçün Azərbaycan Demokratik Respublikası neft məhsullarının istehsalı və daşınması üzərində ciddi nəzarət qoymuşdu.

Azərbaycan Respublikası hökumətinin 1919-cu il 20 may tarixli qərarında göstərilirdi ki, neft sənayeçilərinə neft və neft məhsullarının Batuma göndərilməsinə, satılmasına, girovsuz mal mübadiləsinə nəzarətlə icazə verilir. Bu dönəmdə Həştərxana dəniz yolu bağlanmışdı. Əlbəttə, bu, Azərbaycan dövlətinin iqtisadiyyatı üçün heç də əlverişli deyildi. Fürsətdən istifadə edən sosialistlər tələb edirdilər ki, Həştərxan yolu açılsın, oraya neft daşınsın, ticarət əlaqələrinə başlanılsın. Azərbaycan Demokratik Respublikası Həştərxan yolunun açılmasının, mədəni, iqtisadi və ticarət əlaqələrinin yaradılmasının əleyhinə deyildi. Lakin M. Ə. Rəsulzadə məsələni qəti olaraq belə qoyurdu: “Həştərxan yolunu o vaxt açmaq istərdik ki, sovet hökuməti Azərbaycana müəyyən şərtlərlə müraciət etsin, ilk növbədə müstəqilliyimizi tanısın, daxili işlərimizə qarışmasın, Zaqafqaziya üzərində hakim olmaqdan qəti imtina etsin.”

Məkrli düşmənlər Azərbaycan Demokratik Respublikasını zəif salmaq üçün ticarət donanmasını və neft sənayesini ələ keçirməyə cəhd göstərdilər. Qafqaz cəbhəsi hərbi inqilabi şuranın Orconikedziyə göndərdiyi 21 aprel 1920-ci tarixli teleqramda deyilirdi: “Sürətli hücumla Bakıda bütün maye daşıyan donanmanı ələ keçirmək və neft məhsullarının korlanmasına yol verməmək.”

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Azərbaycan nefti təkcə Qazaxıstan və Türkmənistana, Dağıstan və Kalmıkiyaya, Stalinqrad və Orconikidze vilayətlərinə xidmət etmirdi. Xəzər nefti həm də dəmiryoluna və çay yoluna (Volqaya) verilir və sonra SSRİ-nin bir çox rayonlarına, o cümlədən mərkəzi vilayət və rayonlarına göndərilirdi.

***“DƏNİZ”***



*Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Donanmaların vaxtında və lazımı gəmilərlə yenilənməsi, habelə strateji inkişaf istiqamətləri üzrə digər işlər Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2016-cı il tarixli 2412 nömrəli Sərəncamı ilə təsdiqlənmiş

rası” və eyni zamanda, aparıcı beynəlxalq korporativ idarəetmə prinsiplərinə uyğun olaraq Cəmiyyətin fəaliyyətində kollegial qərarların qəbul edilməsini təmin etmək məqsədi ilə müvafiq sahələr – satınalmalar, mükafatlandırma və risklər üzrə komitələr təsis edilmişdir.

2014-cü ildən Gəmiçilikdə maliyyə hesabatlarının beynəlxalq standartları tətbiq edilir. Həmin standartlara uyğun hazırlanmış maliyyə hesabatları hər il beynəlxalq audit-konsaltinq şirkəti “EY” (Ernst&Young) tərəfindən audit olunur. Gəmiçilik audit olunmuş maliyyə hesabatlarını rəsmi internet səhifəsində yerləşdirir.

AXDG Xəzərdənkənar hövzələrdə fəallığını artırmaq məqsədi ilə gəmiçilik fəaliyyəti üzrə zəruri sertifikatları əldə etmək üçün 2014-cü ildən dünyanın nüfuzlu təsnifat və sertifikatlaşdırma qurumu – “Amerika Gəmiçilik Bürosu” (ABS) ilə əməkdaşlıq edir. Bu qurum tərəfindən AXDG-nin

ması, habelə AXDG haqqında qeyri-dəqiq məlumatların yer almaması məqsədi ilə “Məlumatların açıqlanması Qaydaları” təsdiq edilmişdir. Qaydalara uyğun olaraq Cəmiyyət hesabat dövrü üzrə maliyyə göstəriciləri, cəlb edilmiş maliyyə vəsaitləri, müvafiq tərəflərlə bağladığı mühüm əqdlər, dividendlər, əhəmiyyətli payın əldə edilməsi və ya özgəninkiləşdirilməsi, o cümlədən Cəmiyyətin idarəetmə orqanları, vəzifəli şəxsləri və səhmdarları barədə məlumatları, fəaliyyəti ilə bağlı və dayanıqlı inkişaf üzrə nəticələri açıqlayır. Məlumatlar AXDG-nin rəsmi internet səhifəsi, digər internet resursları, mətbuat orqanları, televiziya və radio kanalları vasitəsilə yayımlanır.

Eyni zamanda, 2016-cı ildə “Maliyyə və əməliyyat nəticələrinin açıqlanması Siyasəti” təsdiq edilmişdir ki, onun da əsas məqsədləri sırasında, o cümlədən Cəmiyyətin iqtisadi siyasətinin, maliyyə və təsərrüfat fəaliyyətinin daha düzgün formalaşdırıl-

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin

***Nəqliyyat sistemi milli iqtisadiyyatın aparıcı infrastruktur sahəsi olub, istər ölkənin iqtisadi təhlükəsizliyinin etibarlı təminatında, istərsə də ölkə üzrə ümumdaxili məhsulun formalaşmasında çox mühüm əhəmiyyət kəsb edir. Ulu Öndərimizin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi konsepsiyası dövlət başçımız İlham Əliyev tərəfindən məharətlə gerçəkləşdirilərək, Azərbaycanın regionda mühüm tranzit və logistika mərkəzinə çevrilməsi prosesini xeyli sürətləndirmişdir.***

Qeyd etmək xoşdur ki, Avrasiya məkanında önəmli geostrateji mövqeyə, çoxşaxəli iqtisadi və ticarət əlaqələrinə malik Azərbaycanın dəniz nəqliyyatı da bu gün inkişafının yeni, müasir mərhələsindədir.

Beş il bundan əvvəl dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2013-cü il tarixli 6 nömrəli Sərəncamına əsasən, respublikada mövcud olan iki böyük donanmanın – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Yeni qurumun fəaliyyəti dövlət başçısının 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamına müvafiq olaraq təşkil edildi.

Yaradıldığı gündən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC köklü islahatlar və struktur dəyişiklikləri apardı, fəaliyyətinin səmərəliliyini təmin etmək məqsədi ilə strateji inkişaf istiqamətlərini müəyyənləşdirdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2015-ci il tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş strateji inkişaf istiqamətlərinə uyğun olaraq Gəmiçiliyin 1–3 illik dövrü əhatə edən qısamüddətli, 3–6 illik dövrü əhatə edən ortamüddətli və 6–10 illik dövrü əhatə edən uzunmüddətli hədəfləri müəyyən edildi və Strateji İnkişaf Proqramı hazırlandı.

“2016–2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq mərhələli şəkildə aparılır.

Beynəlxalq korporativ idarəetmə sisteminin tələblərinə uyğun olaraq Gəmiçilikdə müvafiq normativ sənədlər, o cümlədən İdarə heyətinin reqlamenti, Korporativ idarəetmə Məcəlləsi, Biznes Etikası Məcəlləsi, Korrupsiya ilə mübarizəyə dair Təlimat, “Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyətinə və daxili araşdırmaların aparılmasına dair Təlimat, Maliyyə və Əməliyyat nəticələrinin açıqlanması Siyasəti, KSƏTƏMM (Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) və insan resursları, habelə daxili audit və risklərin idarə edilməsi üzrə sənədlər hazırlanıb tətbiq edilmişdir.

Əhəmiyyətli qərarların qəbul edilməsi prosesində şəffaflığın təmin olunmasına, maraqlı tərəflərin fikirlərinin nəzərə alınmasına xüsusi önəm verilən Gəmiçilikdə “AXDG” QSC sədrinin yanında “İctimai Məsləhətləşmələr Şu-

daxili KSƏTƏMM idarəetmə sistemi audit olunmuş və sistemin beynəlxalq idarəetmə standartlarının tələblərinə uyğunluğu təsdiq edilmişdir. Nəticədə 2016-cı ilin əvvəlində Gəmiçiliyə, Azərbaycan Dövlət Dəniz Akademiyasına və Təlim-Tədris Mərkəzinə 5 illik ISO və ISM üzrə uyğunluq sertifikatları təqdim edilmişdir.

Strateji inkişaf istiqamətlərinə uyğun olaraq kredit reytinqinin alınması üçün AXDG beynəlxalq reytinq agentliklərinin “böyük üçlüyü”nə daxil olan “Fitch Ratings” şirkəti ilə əməkdaşlıq etmişdir. “Fitch Ratings” tərəfindən AXDG-nin biznes modeli təhlil edilmiş, araşdırmalar aparılmış, likvidliyi və kredit öhdəliklərini yerinə yetirmək qabiliyyətinin dayanıqlı olduğu müəyyənləşdirilərək, 2016-cı ilin avqust ayında Gəmiçiliyə kredit reytinqi verilmişdir.

Bununla bərabər, 2016-cı ildə AXDG-nin fəaliyyətində şəffaflığın təmin edilməsi, bütün maraqlı tərəflərin Cəmiyyətə dair müəyyən məlumatlardan aidiyyəti üzrə xəbərdar olması, müvafiq məlumatları əldə etməkdə hər kəsə bərabər imkanların yaradıl-

ması, gələcək prioritetlərinin tam və dəqiq müəyyən edilməsi, potensial investorların və konkret layihələrin işlənilməsi üçün tərəfdaşların cəlb edilməsi qeyd olunmuşdur.

AXDG beynəlxalq korporativ idarəetmə sisteminin prinsiplərinin personal tərəfindən mənimsənilməsi və onların hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə mütəmadi olaraq xüsusi təlimlər təşkil edir. Dünyanın tanınmış şirkətləri – “Amerika Gəmiçilik Bürosu”, “EY” və “BIMCO”-nun (Beynəlxalq Dənizçilik Assosiasiyası) biznes akademiyaları AXDG-də beynəlxalq konvensiyalara, KSƏTƏMM standartlarının tələb və tövsiyələrinə, maliyyə uçotu, effektiv idarəetmə, habelə ünsiyyət və işin səmərəliliyinin idarə edilməsinə dair təlimlər keçirlər.

Səmərəli korporativ idarəetmədə əhəmiyyətli rolunu nəzərə alaraq, AXDG-də elektron sistemlərin tətbiqinə xüsusi diqqət yetirilir. Hazırda Gəmiçiliyin bütün struktur təşkilatlarını əhatə edən Vahid Mərkəzi Elektron Şəbəkəsi, “Mərkəzi Dispetçer” və “Elektron Təchizat” sistemləri quraşdırılıb,





# yaradılması ilə yeni zəfərlərə doğru

“Elektron Sənəd Dövriyyəsi” və SAP idarəetmə sisteminin bir çox modulları müvəffəqiyyətlə tətbiq edilib. Yenilərinin tətbiqi üzərində də iş aparılır. Gəmilərin sahillə rabitəsinin optimallaşdırılması üçün tədbirlər görülüb, gəmilərin mövqeyinin elektron xəritələrdə istənilən an təyin olunmasına imkan verən “Donanmanın mövqeyi” proqramı yaradılıb. 2016-cı ilin sentyabrından müştərilər Gəmiçiliyin rəsmi internet saytından elektron bilet sifariş etmək imkanından yararlanırlar.

Fəaliyyət göstərdiyi 5 ildə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC donanmasını 21 yeni gəmi ilə zənginləşdirmişdir. Onlar həm ticarət gəmiləri, həm də neft-qaz layihələrində iştirak edən müasir tipli gəmilərdir. Bura 1 ədəd Xəzərdə ən böyük yedək-təchizat gəmisi, 8 ədəd 5500 ton yükgötürmə qabiliyyətli quru yük gəmisi, 1 tanker, 7 təchizat gəmisi, eləcə də Bakı Gəmiqayırma Zavodunda inşa edilmiş 1 liman-yedək və 3 sərnişin gəmisi daxildir. Hazırda Gəmiçiliyin Dəniz Nəqliyyatı Donanmasında 52, Xəzər Dəniz Neft Donanmasında müxtəlif təyinatlı 213 gəmi istismar edilir.

Bakı Gəmiqayırma Zavodunda daha 4 gəminin - vaqon-TİR və sərnişin daşınması üçün nəzərdə tutulan 2 ədəd yeni nəsil Ro-Pax/Bərə tipli gəminin və 8000 ton yükgötürmə imkanına malik 2 tankerin tikintisi həyata keçirilir.

***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC Xəzərdə yeganə bərə operatorudur. 13 gəmi-bərəsi, 2 Ro-Ro tipli gəmisi var. Gəmi-bərələrdən 7-si 28 vaqon, 6-sı 52–54 vaqon götürmək qabiliyyətindədir. İnşa edilməkdə olan yeni nəsil Ro-Pax/Bərə tipli gəmilər isə 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını (TIR) tutumuna malik olub, bərə donanmasının potensialını daha da artıracaqdır.***

Bərə donanmamız Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (TBNM) müvəffəqiyyətlə istismar edilir. Bu marşrut 2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın dəmir yolu və dəniz daşınmaları ilə məşğul olan müvafiq qurumları tərəfindən yaradılmışdır. 2015–2017-ci illərdə Ukrayna, Rumıniya, Polşa və Türkiyənin aidiyyəti qurumları da bu marşruta qoşulmuşdur. 2016-cı ilin sonunda TBNM-ə hüquqi status verilərək Beynəlxalq Assosiasiya yaradılmışdır. Hazırda marşrutla Çindən başlayaraq, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa istiqamətində konteyner daşımaları həyata keçirilir. TBNM tərəfindən bütün marşrut boyu vahid keçid tarifi təyin olunmuş və “bir pəncərə” prinsipi tətbiq edilmişdir. Bu dəhlizin daha da inkişaf etdirilməsi üçün iştirakçı ölkələr tərəfindən ardıcıl tədbirlər görülür. 2017-ci il oktyabrın 30-da Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin istifadəyə verilməsi TBNM-in rəqabət qabiliyyətinin artırılması istiqamətində atılmış ən mühüm addımlardan biridir. Bakı–Tbilisi–Qars dəmir yolu təkcə Azərbaycan, Gürcüstan və Türkiyə arasında deyil, Avropa ilə Asiya arasında yükdaşımalar həcminin artmasına şərait yaradır.




Bugün dəniz nəqliyyatı qiymət baxımından sərfəliliyinə və yükgötürmə qabiliyyətinin böyüklüyünə görə dünya yükdaşıma bazarında aparıcı rol oynayır. Belə şəraitdə rəqabətədavamlılığı qoruyub saxlamaq, daşıdığı yüklərin həcmini artırmaq gəmiçilik şirkətləri üçün çox vacibdir.

AXDG 2014-cü ildə Qara dənizdə “Üzeyir Hacıbəyli” və “Natəvan” gəmilərini istismara verməklə xarici sularda fəaliyyətini bərpa etdi. Bu istiqamətdə ardıcıl və effektiv addımlar atan Gəmiçilik hazırda Xəzərdən kənarda – Azov, Qara və Aralıq dənizlərində üzən gəmilərinin sayını 14-ə çatdırıb. Onların 12-si quru yük gəmisi, 2-si tankerdir.

Xarici yükdaşıma bazarlarında özünün etibarlı tərəfdaş statusunu bir daha təsdiqləməyə çalışan Gəmiçilik 2018-ci il iyunun 6-da mühüm dəniz nəqliyyatı arteriyaları üzərində yerləşən Yunanıstanın paytaxtı Afinada nümayəndəliyini açmışdır.

Gəmilərimizin xarici sularda istismarı dənizçilərimizin beynəlxalq təcrübə toplayaraq yüksəkixtisaslı kadrlar kimi püxtələşmələrinə müsbət təsir edir. Bu amil öz növbəsində Gəmiçiliyə yetkin mütəxəssislərin potensialından səmərəli istifadə etməklə, Xəzərdə də gəmiçiliyi müasir tələblər səviyyəsində inkişaf etdirməyə imkan yaradır.

Azərbaycan Dövlət Dəniz Akademiyası regionda dənizçilik sahəsində yeganə ali təhsil müəssisəsi olub, Gəmiçiliyin bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır. Diplomu dünyanın 170 ölkəsi tərəfindən tanınan Akademiya bir sıra nüfuzlu dənizçilik qurumlarının – Beynəlxalq Dənizçilik Ali Məktəbləri Assosiasiyasının, Sankt-Peterburq şəhərindəki Admiral S.O.Makarov adına Dənizçilik Akademiyası tərkibində fəaliyyət göstərən MDB ölkələrinin dənizçilik ali məktəblərinin Tədris-metodiki Şurasının, Dəniz Universitetlərinin Beynəlxalq Assosiasiyasının üzvüdür. ADDA Xəzəryanı dövlətlərin Ali Məktəbləri Assosiasiyasının fəal iştirakçısı və 17 xarici ölkənin dənizçilik ali məktəbləri ilə birbaşa əməkdaşlıq edən ali təhsil ocağıdır.

Akademiya yüksəkixtisaslı dənizçi kadrları yetişdirməklə bərabər, onların ixtisasartırma və yenidən hazırlanması istiqamətində də böyük iş görür. 2014-cü ildən dənizdə işləyən mütəxəssislərin hazırlanmasını və sertifikatlandırılmasını Akademiyanın nəzdindəki Təlim-Tədris Mərkəzi həyata keçirir. Burada gəmi heyəti üzvləri və dəniz obyektlərində çalışan mütəxəssislər üçün “Dənizçilərin Hazırlanması, Sertifikatlandırılması və Növbə Çəkmələri haqqında” Beynəlxalq Konvensiyaya (DHSNÇ-78) və ona edilmiş əlavələrin tələblərinə və Beynəlxalq Dəniz Təşkilatının (IMO) standartlarına uyğun olaraq, xüsusi proqramlar üzrə 43 adda hazırlıq kursları keçirilir. Gəmiçiliyin donanmaları müasir gəmilərlə zənginləşdikcə, tədris prosesində yeni trenajorlardan istifadə edilir və laboratoriya şəbəkəsi genişləndirilir.

Akademiyada dənizçilik ixtisasları üzrə təhsilin bütün pillələrində (bakalavriatura, magistratura, doktorantura) müasir standartlara cavab verən tədris prosesi qurulub. Hazırda Akademiyada 3 fakültə və 7 kafedra fəaliyyət göstərir. Tələbə qəbulu 4 ixtisas üzrə aparılır. 30-dan çox laboratoriya və trenajor burada təhsil alan 1000-dən yuxarı tələbənin ixtiyarındadır.

AXDG-nin rəhbərliyi Dəniz Akademiyasının təhsildə uğurlu nəticələr əldə etmiş məzunlarının işlə təmin olunmasına, onların karyera inkişafına, təhsillərinin artırılmasına, habelə sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirir...

Hazırda “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti donanmasının tərkibinə və göstərdiyi xidmətlərin müxtəlifliyinə görə dünyanın seçilən gəmiçilik şirkətlərindən biridir. Doqquz mindən artıq əməkdaşı olan və özündə iki böyük donanmanı, gəmi təmiri və tikintisi zavodlarını, Azərbaycan Dövlət Dəniz Akademiyasını və Təlim-Tədris Mərkəzini, Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutunu, İstehsal Xidmətləri İdarəsini birləşdirən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti qarşısında qoyulan vəzifələri yerinə yetirmək üçün bütün qüvvələr səfərbər edilmişdir.

Cari ilin 14 mayında Ələt qəsəbəsində Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı da dəniz nəqliyyatının inkişafında önəmli rola malikdir.

Əminik ki, 160 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin şanlı salnaməsinə yeni-yeni parlaq səhifələr yazılacaqdır. Daim yenilənən və zənginləşdirilən donanma, tarixən formalaşmış əmək ənənələri və bu ənənələrə sadiq yüksəkixtisaslı mütəxəssislərdən ibarət kollektiv və ən başlıcası, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti ilə reallaşan nəhəng layihələrin kollektivimiz qarşısında açdığı geniş perspektivlər... buna əsas verir.

***Sevda ABDULLAYEVA***






# DƏNİZÇİLƏRİMİZ ÜÇÜN MİN AYA DƏYƏN GÜNLƏR

*Yeni gəmilərin sifarişi, onların suya buraxılması, dor ağaclarında üçrəngli bayrağımızın qaldırılması və gəmilərin istismara verilməsi dənizçilərin heç vaxt yadlarından çıxarmadıqları hadisələrdir. Belə əlamətdar və unudulmaz mərasimlərdə dövlət başçımızın iştirakından isə dənizçilərimizin sevinci Xəzər kimi aşıb-daşır. Möhtərəm Prezidentimizin hər gəlişi, dənizçilərlə hər görüşü Gəmiçiliyin bütün çoxminli kollektivi üçün böyük bayrama çevrilir.*

## Azərbaycan Prezidenti İlham Əliyev: “Dövlət şirkətləri arasında Xəzər Gəmiçiliyinin öz yeri, böyük tarixi, ənənələri var”





2014-cü il dekabrın 18-də “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin yeni gəmilərinin təqdimatı və dünya şöhrətli müğənni Müslüm Maqomayevin adını daşıyan gəminin istismara verilməsi mərasimi keçirildi.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, Müslüm Maqomayevin həyat yoldaşı, SSRİ xalq artisti Tamara Sinyavskaya, ARDNŞ-in prezidenti Rövnəq Abdullayev, Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanov, eləcədə BP Azərbaycan şirkətinin prezidenti Qordon Birel iştirak edirdilər.

Tamara Sinyavskaya gəminin istismara verilməsini bildirən rəmzi lenti kəsdikdən sonra Müslüm Maqomayevin məşhur “Azərbaycan” mahnısı səsləndirildi.

Gəminin kapitanı Prezident İlham Əliyevə raport verdi.

Gəmidə yaradılan şəraitlə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bildirdi ki, “Caspian Marine Services” şirkəti ilə uzunmüddətli Alyans razılaşması çərçivəsində alınan “Müslüm Maqomayev” sürətli sərnişin gəmisinin uzunluğu 70 metr, eni 16 metr, hündürlüyü 6 metrdir. 150 nəfər tutumu olan gəmi Beynəlxalq Dəniz Təşkilatının sürətli gəmilərin tikintisində tətbiq edilən HSC kodu tələblərinə uyğun olaraq inşa edilib. BP şirkətinin sifarişlərini yerinə yetirəcək “Müslüm Maqomayev” gəmisinin Xəzər hövzəsində analoqu yoxdur. Katamaran tipli, yəni ikigövdəli unikal gəmidə hər biri 3917 at gücündə olan 4 mühərrik qoyulub. Bu, saatda 70 kilometrə qədər sürət yığmağa və nəticədə neftçiləri dəniz platformalarına daha tez çatdırmağa imkan verəcək. Gəmi müasir tələblərə uyğun olaraq, DP2 - dinamik dayanıqlıq sistemi və sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi körpü ilə təchiz olunub və ilk növbədə dənizdə insan həyatının qorunmasına xidmət edir.

Gəmidə həmçinin Müslüm Maqomayevin xatirə guşəsi yaradılıb. Burada dünya şöhrətli müğənninin müxtəlif fotoları yer alıb. SSRİ xalq artisti Tamara Sinyavskaya dünya şöhrətli müğənni Müslüm Maqomayevin xatirəsinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkür etdi.

Dövlətimizin başçısı Müslüm Maqomayevin bənzərsiz yaradıcılığından danışdı, onun xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını vurğuladı. Bildirdi ki, Müslümün adı verilən bu gəmi gözəl ölkəmizə, Müslümün çox sevdiyi, bağlı olduğu, şərəfinə “Azərbaycan” adlı çox gözəl mahnı bəstələdiyi vətəninə xidmət edəcək.

Tamara Sinyavskaya dedi:

- Təşəkkür edirəm! İlahi, Azərbaycan torpağını qoru! Cənab Prezident, Allah Sizi, Mehriban xanımı, bu gəmini qorusun! Yolu uğurlu olsun!

Sonra Tamara Sinyavskaya gəminin istismara verilməsini bildirən düyməni basdı.

Daha sonra Prezident İlham Əliyev “Lənkəran” yedək-təchizat gəmisində yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, texniki göstəricilərinə görə Xəzərdə birinci olan, 16320 at gücündə yeni yedək-təchizat gəmisinin dartma qüvvəsi 207 ton, uzunluğu 74.2, eni 17.20, suya oturumu 7.20 metrdir. DP2 dinamik dayanıqlıq sistemi ilə təchiz edilmiş gəminin geniş texniki imkanları onun Xəzərdə bir çox layihələr, o cümlədən “Şahdəniz-2”, “Şəfəq-Asiman”, “Abşeron Faza-1” layihələri çərçivəsində nəzərdə tutulan işlərə cəlb olunmasını mümkün edir.

Prezident İlham Əliyev “Lənkəran” gəmisindən Qara dənizdə Azərbaycan bayrağı altında üzən “Natəvan” gəmisinin kapitanı Faiq Əmirovla videobağlantı vasitəsilə söhbət etdi. Gəmi kapitanı dövlətimizin başçısına minnətdarlığını ifadə edərkən dedi:

- Möhtərəm cənab Prezident!

Mən, bütün heyətimiz adından donanmamızın yeniləşdirilməsinə, dənizçilərin əmək və həyat şəraitinin yaxşılaşdırılmasına göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirirəm. Çox qürurverici faktdır ki, 5 illik fasilədən sonra Xəzərdən kənarda, dünya sularında Azərbaycan bayrağı altında üzən gəmilərimiz var. Dənizçilərimiz beynəlxalq sulara qayıdışı möhtərəm dövlət başçımızın dəniz nəqliyyatına verdiyi əhəmiyyətin yüksək nümunəsi kimi qiymətləndirirlər. Özü də bura köhnə gəmilərlə deyil, yeni alınmış müasir gəmilərlə qayıtmışıq. Biz Gəmiçilik sistemində apardığınız köklü islahatları tam dəstəkləyir və Sizi əmin edirik ki, bizə göstərdiyiniz etimadı var gücümüzlə doğruldacaq, dövlətimizi xarici sularda layiqincə təmsil edəcək, Azərbaycan bayrağını daim uca tutacağıq.

Prezident İlham Əliyev: İndi hardasan?

Kapitan: Hazırda Taqanroq limanındayıq. Gəmiyə yük vurulur. Buradan, inşallah, Türkiyənin İzmir limanına yola düşəcəyik.

Prezident İlham Əliyev: Çox yaxşı ki, Xəzər Gəmiçiliyinin gəmiləri Qara dənizdə də fəaliyyət göstərir. Gəmiçiliyin gözəl gələcəyi var. Aparılan islahatlar, struktur islahatları və Gəmiçiliyin fəaliyyəti ilə bağlı atılan addımlar gözəl nəticələr verir. Daha da böyük nəticələr olacaq. Bu yaxınlarda Gəmiçiliyin fəaliyyəti üçün əlavə maddi dəstək verilmişdir. Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir.

Azərbaycanda artıq bir neçə beynəlxalq şirkət fəaliyyət göstərir – SOCAR, AZAL və digər şirkətlər. Əlbəttə ki, özəl şirkətlər də bu sıradadır. Ancaq dövlət şirkətləri arasında Xəzər Gəmiçiliyinin öz yeri, böyük tarixi, ənənələri var. Xəzərdə bizim gəmiçiliyimiz həmişə böyük rola malik olub. Biz də bu gün müasir şirkət yaratmaqla həm iqtisadi potensialımızı möhkəmləndirəcəyik, eyni zamanda, Xəzər Gəmiçiliyi dünya miqyasında müasir, çox səmərəli şəkildə idarə olunan şəffaf şirkət kimi özünü təqdim edəcək. Sizə uğurlar arzulayıram.

Sonra Gəmiçiliyin nailiyyətləri və perspektiv layihələri ilə bağlı məlumat lövhələrinin təqdimatı oldu.

Cəmiyyətin sədri Rauf Vəliyev xüsusi vurğuladı ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi istər nəqliyyat, istərsə də neft donanmasının yeniləndirilməsini və müasirləşdirilməsini özünün prioritet vəzifələrindən sayır və bu istiqamətdə daim dövlətimizin dəstəyinə arxalanır. 2000-ci illərin əvvəllərindən Ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası ilə həyata keçirilən yenilənmə prosesi möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqət və qayğısı ilə 10 ildən çoxdur ki, davam edir.

2013-cü ildə yeni Cəmiyyət yaradıldıqdan sonra dövlətimizin və şəxsən möhtərəm Prezidentimizin qayğısı ilə donanmaların təzə gəmilərlə zənginləşdirilməsi məqsədilə əhəmiyyətli addımlar atılmışdır.

Yeni alınan gəmilərdən biri böyük Azərbaycan şairi Nəsiminin adını daşıyır və donanmamızın flaqmanı “Prezident Heydər Əliyev” tankeri ilə eyni layihədəndir. 13000 ton yükgötürmə qabiliyyətinə malik, uzunluğu 149.9, eni 17.3, suya oturumu 7.14 metr olan “Nəsimi” tankeri əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində (TRASEKA) neft və neft məhsulları daşıyır.

“AXDG” QSC-nin və “Caspian Marine Services” şirkətinin uzunmüddətli Alyans razılaşması çərçivəsində daha 3 yedək və 2 borudaşıyan gəmi alınmışdır. Bu gəmilər “Şahdəniz-2” layihəsində istifadə olunacaq, yeni boru kəmərlərinin çəkilişində yaxından iştirak edəcəklər. Yedək gəmilərinin hər biri 3044 at gücündə, dartma qüvvəsi isə 38 tondur. 1890 ton dedveytə malik borudaşıyan gəmilərin uzunluğu 81.6, eni 11.3, suya oturumu 3.7 metrdir.

Ümumiyyətlə, yeni gəmilərin alınması Azərbaycanda gəmi mütəxəssisləri üçün yeni iş yerlərinin açılmasına, istər beynəlxalq, istərsə də yerli yük və xidmət bazarlarında dayanıqlı mövqelərin əldə olunmasına, eləcə də dövlət bayrağımızı dünya sularında və beynəlxalq limanlarda dalğalandırmaqla ölkəmizin təbliğinə və bütövlükdə dəniz nəqliyyatının inkişafına xidmət edəcək.

Sonda Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.






# DƏNİZÇİLƏRİMİZ ÜÇÜN MİN AYA DƏYƏN GÜNLƏR

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı il aprelin 22-də Bakı gəmiqayırma zavodunda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə inşa edilən "Üfüq", "Zəfər" və "Turan" sərnişin gəmilərinin istismara verilməsi mərasimində iştirak etdi.***

## "Üfüq", "Zəfər" və "Turan" sevincimiz…










Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına zavodda inşa edilən gəmilər barədə məlumat verdilər. Bildirildi ki, hazırda Gəmiçiliyin donanması üçün zəruri olan müxtəlif təyinatlı gəmilərin inşası ilə bağlı danışıqlar aparılır. Onların arasında tankerlər, quru yük gəmiləri, konteynerdaşıyan gəmilər, kran, yanğınsöndürən, yedək-təchizat, təchizat və nəqliyyat gəmiləri var.

Dövlətimizin başçısı gəmilərin istismara verilməsini bildirən lenti kəsdi.

Azərbaycan neftçilərinin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulan sərnişin gəmilərinin inşasına dair müqavilə 2014-cü ilin mayında imzalanıb. Müvafiq layihə və hazırlıq mərhələsindən sonra tikinti işlərinə 2014-cü ilin oktyabrında başlanılıb. Gəmilərin hər biri 80 sərnişin tutumuna malikdir. Uzunluğu 38 metr, eni 8 metr, suya oturumu 2,25 metr olan gəmilərin gövdəsi polad, üst tikililəri isə alüminium materialdan hazırlanıb. Yüngül materialların tətbiqi, hərəsinin gücü 1920 kilovat olan iki baş mühərrikin qoyulması sərnişin gəmilərinə saatda 35 kilometrə yaxın sürət yığmağa imkan verir. Bu, mövcud gəmilərlə müqayisədə iki dəfə çoxdur. Eyni zamanda, yeni gəmilər göyərtələrinə 10 tonadək müxtəlif yük də götürə bilir.

Neftçilərin və yüklərin dəniz platformalarına daha tez və rahat çatdırılmasını təmin edəcək yeni sərnişin gəmilərinin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsində mühüm rol oynayan Bakı gəmiqayırma zavodunun növbəti uğurudur. Zavod Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığının aradan qaldırılmasına xidmət edərək, Xəzər donanmasını müasirləşdirməyə imkan verir. Eyni zamanda, bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Sonra Prezident İlham Əliyev "Üfüq" sərnişin gəmisinin istismara verilməsini bildirən düyməni basdı.

Gəmilərlə yaxından tanış olan Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.



# DƏNİZÇİLƏRİMİZ ÜÇÜN MİN AYA DƏYƏN GÜNLƏR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin “Rəşid Behbudov” sürətli sərnişin gəmisi, “Gəncə” tankeri və “Qafur Məmmədov” quru yük gəmisinin istismara verilməsi mərasimində iştirakı dənizçilərimizə sonsuz sevinc bəxş etdi .*

## Dövlət başçısının “Rəşid Behbudov” sərnişin gəmisi, “Gəncə” tankeri və “Qafur Məmmədov” quru yük gəmisinin istismara verilməsi mərasimində iştirakı dənizçilərimizə sonsuz sevinc bəxş etdi

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə yeni gəmilər barədə məlumat verdi.







Dövlətimizin başçısı əvvəlcə “Gəncə” tankeri ilə tanış oldu. Bu tanker “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və “Caspian Marine Services” Alyansı tərəfindən sifariş olunan 2 yeni tankerdən biridir. Tanker 7 min ton yükgötürmə qabiliyyətinə malikdir. Uzunluğu 140,9, eni 16,7, saya oturumu isə 4,2 metr olan bu tanker Volqa-Don-Maks tipli, yəni, dayaz sularda üzməklə maksimum yükgötürmə qabiliyyətinə malikdir.

“Gəncə” tankerinin texniki göstəriciləri Xəzər hövzəsində dayaz limanlara daxil olmasına, eyni zamanda, Volqa-Don, Volqa-Balt kanallarında üzməsinə imkan yaradır. Bu tanker ən müasir avadanlıqla təchiz olunub. Hazırda Xəzər dənizində yükgötürmə qabiliyyətinə görə ən böyük tankerlər Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsusdur və onlar 13 min ton dedveytə malikdir. Bu tankerlərin saya oturumu çox olduğundan onlar Xəzər dənizini xarici sularla əlaqələndirən Rusiyanın daxili su kanallarına, o cümlədən İran limanlarına yüklə daxil ola bilmirlər. Həcminin artması proqnozlaşdırılan maye yüklərin daşınmasını təmin etmək üçün “Gəncə” tipli tankerlərin böyük iqtisadi əhəmiyyəti var.

Dövlətimizin başçısı “Gəncə” tankerinin istismara verilməsini bildirən düyməni basdı.

Prezident İlham Əliyevə həmin günlərdə Bakı gəmiqayırma zavodunda tikintisinə dair müqavilə imzalanmış nadir Ro-Pax/Bərə tipli iki gəmi barədə məlumat verildi. Yeni nəsildən olan bu tipli gəminin konsepsiyasının hazırlanması üçün “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC son 1 ildən artıq müddətdə Odessa Dəniz Mühəndisliyi Bürosunun təcrübəli mütəxəssisləri ilə uzunmüddətli texniki müzakirələr aparıb və Xəzər dənizində suyun səviyyəsi, yanalma körpülərinin maksimal imkanları nəzərə alınaraq, 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını (TIR) tutumlu gəminin eskiz və texniki layihəsi hazırlanıb.

Sonra Bakı gəmiqayırma zavodunda bu tipli daha 2 tankerin tikintisi üzrə sifarişlə bağlı “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC ilə Bakı gəmiqayırma zavodu arasında müqavilə imzalandı.

Yeni tankerlər Xəzərdə suyun mövcud səviyyəsində, az saya oturumla maksimum çox yük götürə bilən nadir gəmilər olacaq. Belə ki, tankerin digər texniki xarakteristikaları eyni saxlanılmaqla, yükgötürmə qabiliyyətinin 8 min tonadək artırılmasına nail olunacaq. Yeni nəsil tanker ilk dəfə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanması üçün məhz Bakı gəmiqayırma zavodunda inşa ediləcək.

Daha sonra Prezident İlham Əliyev burada Rəşid Behbudovun ailə üzvləri görüşdü.

“Rəşid Behbudov” gəmisinin istismara verilməsini bildirən rəmzi lent kəsildi.

Prezident İlham Əliyevə məlumat verildi ki, 150 nəfər tutan “Rəşid Behbudov” sürətli sərnişin gəmisi “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və “Caspian Marine Services” Alyansının sifarişinə əsasən tikilib. Gəmidə ulu öndər Heydər Əliyev ilə Rəşid Behbudovun görüşləri və dövlətimizin başçısı İlham Əliyevin dünya şöhrətli müğənninin Bakıda abidəsinin açılışı zamanı çəkilən fotolardan ibarət stend yaradılıb. Xəzərdə neft və qaz layihələrində rəqabətqabiliyyətli, beynəlxalq standartlara uyğun yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində mühüm rol oynayacaq gəmidə sərnişinlərin rahatlığı üçün yüksək şərait yaradılıb, ən son beynəlxalq konvensiya tələblərinə uyğun səs və titrəmə izolyasiyası təmin edilib, istirahət sahələri quraşdırılıb.

Bütövlükdə alüminium təbəqələrdən yığılmış katamaran tipli gəmi saatda 60 kilometr sürət yığmaq imkanına malikdir. Onun uzunluğu 70, eni isə 16 metrdir. Gəmi ən müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlı mövqeləndirmə sistemi, sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi teleskopik körpü ilə təchiz olunub. Bu isə onun Beynəlxalq Dənizçilik konvensiyalarının tələblərinə tam səviyyədə cavab verməsini təsdiqləyir. Belə gəmilərdə xüsusi teleskopik körpünün istifadəsi dünyada ilk dəfə tətbiq olunur. Hazırda irimiqyaslı neft və qaz layihələrinə xidmət edən bir sıra digər gəmiçilik şirkətləri teleskopik körpü texnologiyasının tətbiqini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin təcrübəsi əsasında öyrənir. Bu texnologiya platformaya yan almadan, heyətin gəmidən platformaya qalxma-enmə əməliyyatlarında təhlükəsizliyə etibarlı zəmin yaradır.

Dünya şöhrətli müğənninin nəvəsi Rəşid Behbudov gəminin istismara verilməsini bildirən düyməni basdı.

Görkəmli sənətkar Rəşid Behbudovun ailə üzvlərinə gəminin maketi hədiyyə olundu.

Dövlətimizin başçısı İlham Əliyevə yeni alınmış “Qafur Məmmədov” quru yük gəmisi barədə məlumat verildi. Bu gəminin dedveyti 5,500 ton, uzunluğu 108,3, eni 16,5, saya oturumu isə 4,79 metrdir. Gəmi Xəzərdəki quru yük donanmasının yenilənməsi, hazırda balansda olan, maksimum yükgötürmə qabiliyyəti 3 min ton təşkil edən və istismar müddətini başa vurmuş gəmiləri yeniləməyə və növbəti illər ərzində Gəmiçiliyin quru yük daşımaları barədə mövqeyinin sabitləşməsinə imkan yaradır. Eyni zamanda, belə gəmilərin istismara verilməsi strateji əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması nəticəsində ölkəmizin ərazisindən keçməklə daşınacaq tranzit yüklərin və konteyner həcmlərinin mənzil başına vaxtında çatdırılmasında da mühüm əhəmiyyət daşıyır.













# DƏNİZÇİLƏRİMİZ ÜÇÜN MİN AYA DƏYƏN GÜNLƏR

*2017-ci il mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının "Qubadlı" və "Cəbrayıl" adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimində iştirak etdi.*

## Dövlətimizin dəstəyi ilə donanmalarımıza daxil olan hər yeni gəmi, həm də yeni iş yerləri deməkdir

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və SOCAR-ın prezidenti Rövnəq Abdullayev "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin texniki göstəriciləri, təyinatı barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, "Qubadlı" və "Cəbrayıl" təchizat gəmiləri bu tip gəmilərin tikintisi üzrə dünyanın qabaqcıl müəssisələrindən sayılan Norveçin "STX Norway Offshore" gəmiqayırma zavodunda inşa edilib. Gəmilərin hər ikisi müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən gəmilərə işğal altında olan rayonlarımızın adları verilib. Hər iki gəmi SOCAR-ın dəniz obyektlərinə xidmət edən köhnə gəmiləri əvəzləyəcək. Gəmilərdən biri SOCAR-a məxsus "28 May" yatağındakı, digəri isə "Ümid" yatağındakı platformalara yük daşıyacaq.

Qeyd olundu ki, gəmilərin hər birinin uzunluğu 73,6, eni 16 metrdir. Dedveyti 3270 ton olan gəmilər öz göyərtəsinə 1600 ton yük götürmək qabiliyyətinə malikdir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasında olan digər təchizat gəmiləri ilə müqayisədə bu gəmilərin bir sıra üstünlükləri var. Belə ki, yeni təchizat gəmiləri yanacaq, sürtkü yağı, qələvi məhlul, özül yağı, quru yük, içməli su, qazma məhlulu, konteyner, boru və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün daha geniş göyərtəyə və böyük həcmli yük tanklarına malikdir. Müasir avadanlıqla, o cümlədən DP-2 dayanıqlılıq sistemi ilə təchiz olunan "Qubadlı" və "Cəbrayıl" gəmilərinin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmilərdə quraşdırılan yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərkən hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır. Xilasetmə əməliyyatlarının yerinə yetirilməsi üçün hər bir gəmi xüsusi xilasedici qayıqla təchiz olunub. Qayıqların konstruksiyası kəskin hava şəraitində dənizdə axtarış və xilasetmə işlərinin yerinə yetirilməsini mümkün edir.

Dövlətimizin başçısı gəmilərin rəmzi olaraq istismara verilməsini bildirən düyməni basdı.

Qeyd edək ki, davam edən qlobal iqtisadi böhran, dünya birjalarında neftin qiymətinin kəskin aşağı düşməsi fonunda ümumi beynəlxalq ticarət dövriyyəsinin kəskin azalmasına və bunun gəmiçilik sahəsində müəyyən problemlər yaratmasına baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanda gəmiçiliyin inkişafını diqqət mərkəzində saxlayır. Bu da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının müasir tələblərə cavab verən gəmilərlə yenilənməsinə geniş imkan yaradır. "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin Xəzərdə istismara verilməsi də məhz bu istiqamətdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə onun alyans partnyoru olan "Caspian Marine Services"in həyata keçirdiyi birgə layihədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının daim yenilənməsi və müasir tələblərə cavab verən gəmilərin tikilməsi prioritet məsələlərdəndir.
















Donanmanın yenilənməsi istiqamətində aparılan işlər Gəmiçiliyin təsdiq olunmuş strateji inkişaf proqramına, həmçinin "2016-2020-ci illərdə Azərbaycanda gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Dövlət Proqramı ilə Xəzər hövzəsində və Xəzərdən kənarda beynəlxalq standartlara uyğun daşıma xidmətlərinin göstərilməsi, donanmanın yükdaşıma bazarlarındakı tələbata uyğun yenilənməsinin davam etdirilməsi, gəmi təmiri bazasının gücləndirilməsi, institusional islahatların davamı, gəmiçilik sahəsində yüksək ixtisaslı yerli kadrların hazırlanması təmin edilir. Bu sahədə görülən işlər Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi strategiyasına, ölkənin tranzit potensialının gücləndirilməsinə və iqtisadiyyatın şaxələndirilməsi ilə qeyri-neft sektorunun inkişafına və milli gəmiçiliyin yükdaşımalar bazarında mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Gəmiçiliyin fəaliyyət sahələrinin şaxələndirilməsi və bir bazardan asılılığının azaldılması ilə əlaqədar qarşıya qoyulan tapşırıqlara uyğun olaraq, 2014-cü ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq sularda fəaliyyətini bərpa edib.

Gəmilərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmalarının və onun təmir bazalarının Böyük Vətən müharibəsindən sonrakı illərdə inkişafı keçmiş SSRİ-nin xalq təsərrüfatı vəzifələrinə uyğun surətdə həyata keçirilirdi. 1946-cı ildə quru yükdaşıma donanması 26 gəmi aldı. Onların sırasında "ÜİLKGİ-nin 30 illiyi", "Nizami", "Çorox", "Andora" paraxodları vardı. "Kapitan Plauşevski", "Nargin", "Amburan" və digər gəmilər neftdaşıma donanmasının tərkibinə daxil oldu. 1945-ci ildə "Burnı" yedək gəmisini istismara verən Vano Sturua adına zavodda gəmiqayırma işləri genişləndirildi.***

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 1946-1970-Cİ İLLƏRDƏ




1953-cü ildə Xəzər tanker və Xəzər quru yük donanması Xəzər Dəniz Gəmiçiliyində birləşdirildi. Keçmiş "Reydtanker" (Həştərxan) gəmiçiliyi də Xəzər Dəniz Gəmiçiliyinin tərkibinə daxil oldu. Vahid Xəzər Dəniz Gəmiçiliyinin yaranması donanmaya operativ rəhbərlik edilməsinə və ondan daha səmərəli istifadə olunmasına imkan verdi. Həmin il donanma SSRİ-də və xarici ölkələrdə tikilmiş gəmilərlə zənginləşməyə başladı.

1100 ton yük götürən tankerlər, "Qaradağ", "Uxta", "Çarco" teploxodları, 1133 ton dedveyti olan "Tissa" tipli "Selinoqrad", "Pavlik Morozov", "Axtuba", "Şonqar" quru yük gəmiləri və digər gəmilər istismara verildi.

Qorki gəmiqayırma zavodunun tərsanəsində o dövr üçün nəhəng 10 min ton subasımına malik "General Həzi Aslanov" tankerinin tikintisinə hələ Böyük Vətən müharibəsindən əvvəl başlanmışdı. 1941-ci ilin yayında quraşdırılmasını başa çatdırmaq üçün gəmini Bakıya gətirmişdilər. Lakin müharibə başladı və yarımçıq quraşdırılmış tanker də cəbhə üçün işləməyə başladı. Gəmi təmirçiləri onu quru yük daşıyan barja çevirdilər və həmin barj "267" nömrəsi ilə dənizə çıxırdı. Barjın nəhəng anbarında döyüş sursatı daşınırdı. Müharibədən sonra barjın yeni həyatı başladı. Yedək gəmiləri barjı Volqaya qaytardılar və onu inşa edildiyi zavodun kollektivinə tapşırdılar. Gəmiqayıranlar Xəzər Dəniz Gəmiçiliyinin mühəndisi B. Kametskinin rəhbərliyi altında barjı Xəzər dənizində birinci dizel elektroxoda çevirdilər. 1950-ci ildə ikinci dəfə həyata qaytarılan tanker sonrakı illərdə Xəzərin mavi yollarında təxminən bir milyon mil qət etdi, 32 milyon tondan çox neft daşıdı.

1940-cı ilə nisbətən 1956-cı ildə quru yük daşınması 14,6 faiz, neft daşınması 31,3 faiz artdı. Xəzər dənizçiləri xam torpaqlarda yetişdirilmiş taxıl məhsullarının daşınmasının öhdəsindən məharətlə gəldilər. Təkcə bunu demək kifayətdir ki, 1956-cı ildə 1940-cı ilə nisbətən 15 dəfə çox taxıl daşındı. 1955-ci ildə 1940-cı ilə nisbətən quru yük daşınması 132, 9 faiz olmuş, pambıq daşınması 5 dəfə, sement daşınması 11 dəfə, duz daşınması 2 dəfə artmışdı.

"Oleq Koşevoy" və "Mühəndis A. Pustoşkin" tipli suya az oturan tankerlərin istismara verilməsi neft daşınması cəbhəsində texniki tərəqqinin inkişafında böyük addım idi. Dəniz reydində neftin başqa nəqliyyat vasitəsinə boşaldılmadan Bakıdan Həştərxana daşınması mümkün oldu. Tanker donanmasının məhsuldarlığı artdı, daşımanın maya dəyəri aşağı düşdü.

Xəzər Dəniz Gəmiçiliyi 1959-cu ildə dedveyti 4016 ton olan "Mühəndis Belov" tipli suya azoturan quru yük gəmiləri almağa başladı. Həmin gəmilər isə quru yüklərin aşırılmadan Xəzər sahillərindən yuxarı Volqaya və Həştərxana birbaşa daşınmasını xeyli sürətləndirdi. Xəzər dənizçiləri yeddinci beşilliyin axırınadək 18 belə gəmi aldılar. Gəmiçiliyə "Cəsur", "Cambul", "İnqilabçı", "Aşıq Stalski", "Boyevoy", "Otradnı", "Otvajnı" yedək və "Aleksandr Nevski" tipli reyd gəmiləri gətirildi. Texniki donanma "Turəli", "Ağ dəniz" və digər gəmilərlə möhkəmləndirildi.

1960-cı ildə Gəmiçilik 23 gəmi aldı. Bunlardan 2-si tanker, 5-i pambıq – taxta-şalban daşıyan teploxod, sərnişin və xilasedici gəmilər, 5-i texniki, 2-si liman yedək və sair gəmilər idi.

Müharibədən sonrakı dövrdə Bakı - Neft Daşları xətti yaradıldı. Qırxıncı illərin axırlarında tankerlər hər cür hava şəraitində neft götürmək üçün polad estakadaya yan alırdılar. Bakı - Neft Daşları xəttini "yanalma akademiyası" adlandırırdılar. Hər il 3 milyon tondan çox xam neft daşınmasını təmin edən 10 min tonluq "Həzi Aslanov" tankeri həmin xətdə gəmilərin yükgötürmə qabiliyyətindən istifadə edilməsinin bütün hövzə rekordlarını arxada qoydu.

Xəzərdə bərə keçidi yaratmaq ideyası hələ keçən əsrin 30-cu illərində irəli atılmışdı. O zaman bu fikir bir çoxları tərəfindən xəyal kimi qarşılanmışdı. Böyük Vətən müharibəsi bu ideyanın gerçəkləşdirilməsini xeyli gecikdirdi. Müharibə bitdikdən sonra dəniz mühəndisləri yenidən işə başladılar. SSRİ-nin tarixində ilk dəniz bərə keçidi Qara dənizdə işə salındı. Doğrudur, burada keçid cəmi iki saat davam edirdi. Lakin bu, sübut edirdi ki, bərə-keçidindən uzaq xətlərdə də istifadə etmək mümkündür.

1962-ci ildə təkcə SSRİ-də deyil, o zaman Avropada ən böyük Bakı – Krasnovodsk dəmiryol dəniz bərə keçidi işə düşdü. "Sovet Azərbaycanı" isə SSRİ-də ən böyük gəmi-bərə idi. Uzunluğu 133,8 metr, eni 18,3 metr, hündürlüyü 23 metr olan dizel-elektroxod bir səfərdə 293 sərnişin, 30 ədəd ağır yüklü dördoxlu vaqon götürürdü. Saatda təxminən 30 kilometr sürətlə hərəkət edən bərə Bakı ilə Krasnovodsk arasında məsafəni 11 saata qət edirdi. "Sovet Azərbaycanı" tipli 5 dizel-elektroxod Qafqazdan Orta Asiyaya, Qazaxıstana və əks istiqamətə yolu bir neçə yüz kilometr qısaldan "üzən körpü" əmələ gətirdi. Bekdaşda, Aktauda Xəzər bərə keçidinin sahil körpü qurğuları yaradıldı. Xəzər Dəniz Gəmiçiliyi nəqliyyat donanmasının fəal iştirakı ilə Manqışlaqda, Aktauda yeni körpülər tikildi. Manqışlaq – Makat dəmir yol xəttinin tikintisinədək yüklər dəniz yolu ilə daşınırdı.

Doqquzuncu və onuncu beşilliklərdə Gəmiçiliyin nəqliyyat donanmasının tərkibinə dedveyti 12 min ton olan "Nikifor Roqov" tipli 5 tanker, "Kişinyov" tipli 10 və "Voznesenski" tipli 11 quru yük daşıyan gəmilər daxil oldu. Xəzərə 4600 ton yük götürən "Oleq Koşevoy" tipli tankerlər gətirildi.

Keçən əsrin altmışıncı illərində Xəzər dənizçiləri ilk dəfə öz gəmiləri ilə dünya sularına çıxdılar. Dənizçilərimizin bu arzusu SSRİ-nin daxili su yollarında yeni kanalların açılması ilə gerçəkləşdi. Əvvəlcə Volqa-Don kanalının açılması dənizçilərimizin Qara dənizə və buradan Aralıq dənizinə, sonra isə Volqa – Baltik kanalının istifadəyə verilməsi ilə Avropanın şimal dənizlərinə və Atlantik okeanına çıxmalarına imkan verdi. 1961-ci ilin əvvəlində Xəzər Dəniz Gəmiçiliyinin bir sıra gəmiləri hövzədən kənarda yeni xətləri mənimsəməyə başladılar. "Gürgan", "Neftçala", "Ucar", "Cəbrayıl", "Nebitdağ" tankerləri uzaq səfərlərə çıxdı. 1962-ci ildə Xəzər dənizçiləri xarici ölkələrin 7 limanına 200 min tondan çox neft məhsulu daşıdılar. 1963-cü ildə Xəzər Dəniz Gəmiçiliyinin gəmiləri 16 xarici ölkənin 35 limanına daxil oldular. Daha bir il sonra kapitan V. Kononovun komandanlığı ilə "Qubadlı" teploxodu Xəzərdəki Nouşəhr limanından Şetsinə eksperimental səfər etdi. Aralıq dənizi və Baltik limanlarına gedən yeni dəniz xətlərinin mənimsənilməsində uzaq səfərlər kapitanı K. İsgəndərov, O. Veysov, A. Filimonov, Y. Yudin, N. Kobzev, A. Şirəliyev, O. Simonov, İ. Məmmədov və başqaları fəal iştirak etdilər. Təxminən 10 il ərzində dənizçilərimiz dünyanın 26 dövlətinin 115 limanına yan aldılar.

Xəzər Dəniz Gəmiçiliyinin salnaməsində müharibədən sonrakı dövrdə parlaq səhifələr çoxdur. Böyük Vətən müharibəsi illərində gəmini istismardan çıxarmadan böyük həcmdə təmir işləri yerinə yetirmiş "Azərbaycan" tankeri heyətinin şöhrəti hər yerə yayılmışdı. Qələbədən sonra onu birincilər sırasında böyük təmirə qoydular. Müharibənin yaralarının yenicə sağaldığı, xalq təsərrüfatının bərpa edildiyi həmin çətin zamanda böyük mexanik S. Oxonko başda olmaqla tankerin heyət üzvləri "Paris Kommunası" adına Gəmi Təmiri Zavodunda gəmini öz qüvvələri ilə təmir etməyi öhdələrinə götürdülər. Xəzər dənizçiləri "Əla gəmi növbəsi uğrunda" devizi altında gəmi heyətlərinin yarışının təşkilatçıları kimi çıxış edirdilər. Onların nümunəsi SSRİ-nin bütün dəniz donanmasında geniş yayıldı.

1960-cı ilin avqustunda dəniz nəqliyyatında qüsursuz xidmətlərinə görə Xəzər dənizçilərindən böyük bir qrupuna SSRİ-nin orden və medalları verildi. Onların sırasında ömrünün 25 ilini dənizə həsr etmiş "Mühənis P. Matveyev" tankerinin pompa maşinisti Pyotr Qriqoryeviç Melnikov da var idi. O, Xəzər dənizçiləri arasında ilk dəfə olaraq Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

O cümlədən, Xəzər Dəniz Gəmiçiliyinin rəisi Mahmud Rəhimov, matros İbrahim Əkbərov, Vano Sturua adına gəmi təmiri zavodunun direktoru İbrahim Əsədov, Bakı limanının baş krançısı Hacıbala Babayev, kapitanlar Cabir Məmmədov, Boris Kovalenko və Dmitri Şeyko, kapitanın baş köməkçisi İvan Kolotilin, "Paris Kommunası" adına zavodun direktoru Nikolay Sizov, "Zaqfederasiya" zavodunun korpus qazançısı Pyotr Truşin Lenin ordeni, 25 nəfər "Qırmızı Əmək Bayrağı" ordeni, 37 nəfər "Şərəf nişanı" ordeni, 26 nəfər "Əmək igidliyinə görə" və "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif edildi.

Gəmiçiliyin donanması ildən-ilə təkmilləşirdi, ixtisaslı gəmi sürücüləri və mexaniklər yetişirdi. Müasir cihazlar, avtomatlar və mexanizmlər dənizçilərin köməyinə gəlirdi. Gəmiçiliyin və onun təsərrüfatlarının material və texniki təchizatı yeddiillik ərzində daha da möhkəmləndi. "Oleq Koşevoy" tipli gəmilər, suya az oturan tankerlər, "Mühəndis Belov" tipli quru yük və pambıq – taxta-şalban daşıyan teploxodlar alındı. Donanmamız "Tacikistan", "Qırğızıstan" sərnişin gəmiləri, "Sovet Azərbaycanı" tipli "Sovet Türkmənistanı", "Həmid Sultanov" bərələri ilə möhkəmləndi. Sahildə kapital qoyuluşunun həcmi yeddiillik ərzində 42 milyon manatdan artıq oldu. Yük daşınması 1958-ci ilə nisbətən 1965-ci ildə 37 faiz, ton-mil üzrə isə 67 faiz artdı. Quru yüklərin həcmi və yük dövriyyəsi iki dəfə çoxaldı. Xəzər gəmilərinin Qara, Aralıq, Qırmızı, Baltik dənizlərinə çıxması böyük hadisə idi. Bunun nəticəsində yeddiillikdə xaricə yük daşınmasının həcmi 6 dəfə, yük dövriyyəsi isə 40 dəfə artdı. Təkcə yeddiillik plan tapşırıqlarını layiqincə yerinə yetirdiklərinə görə 1966-cı ildə Xəzər Dəniz Gəmiçiliyinin 142 işçisi SSRİ-nin orden və medalları ilə təltif edildi. "Sovet Türkmənistanı" gəmi-bərəsinin böyük mexaniki Ağarza Eyvazov isə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Beş il sonra Xəzər dənizçiləri "Alyoşa Caparidze" tankerinin böyük motorçusu Ramazan İbadovun da bu yüksək ada layiq görülməsinin sevincini yaşadılar.

İstehsalatın gücündən səmərəli istifadə olunmasına, boşdayanmaların aradan qaldırılmasına, istehsalat proseslərində mexanikləşdirmə və avtomatlaşdırmanın hərtərəfli tətbiqinə xüsusi diqqət yetirilirdi. 1959-cu ildə SSRİ Dəniz Donanmasında ilk dəfə olaraq Xəzər Dəniz Gəmiçiliyinin "Mühəndis A. Pustoşkin" teploxodunda təcrübəvi əhəmiyyət kəsb edən ilk avtomatlaşdırma əməliyyatı aparıldı. Məsələn, baş mühərriklərin uzaq məsafədən idarə olunması, qurğular üzərində avtomat nəzarət, teploxodun təhlükəsiz üzməsini təmin etmək üçün naviqasiya qurğularının avtomatlaşdırılması və sair kimi tədbirlər müvəffəqiyyətlə tətbiq edildi. Gəmidə aparılmış kompleks avtomatlaşdırma işlərinin öyrənilməsinə SSRİ Dəniz Donanmasının bütün elmi-axtarış institutları, layihə təşkilatları cəlb edilmişdi. Sonralar "Səməd Vurğun", "Alma-Ata", "Fedya Qubanov" və başqa gəmilərdə də avtomatlaşdırma işləri həyata keçirildi. Nəqliyyat donanmasından və limanların gücündən səmərəli istifadə etmək üçün yeni yüklər axtarmaq və onları su yolları ilə daşımaq üzrə iş aparılması genişləndirildi. İqtisadi islahatları daha da təkmilləşdirmək və gəmi təmiri müəssisələrinin işinin keyfiyyətini yaxşılaşdırmaq sahəsində mühüm tədbirlər görüldü.

Xəzər Dəniz Gəmiçiliyinin dənizçiləri səkkizinci beşillikdə (1965-1970-ci illər) plandan əlavə iki milyon ton müxtəlif xalq təsərrüfatı yüklərini daşıdılar, xaricə yük daşınması üzrə gəlir tapşırığı isə 109,1 faiz yerinə yetirildi. Neft və quru yükdaşıma donanmaları üzrə də tapşırıq artıqlaması ilə ödənildi.

1965-ci ilə nisbətən 1970-ci ildə gəmi-bərələrlə yük daşınmasının həcmi iki dəfə, bütövlükdə quru yük daşınmasının həcmi 23 faiz artdı. Səkkizinci beşillikdə 2 dəfə çox duz, 3 dəfə çox inşaat materialları, 2,6 dəfə çox külçə, 1,5 dəfə çox maşın avadanlıqları daşındı.

Daşımanın həcminin artması ilə birlikdə nəqliyyat donanmasından istifadə edilməsinin keyfiyyət göstəriciləri də yüksəldi. Kabotajda işləyən quru yükdaşıyan gəmilərdə məhsuldarlıq 43 faiz, neftdaşıyan gəmilərdə isə 4 faiz artdı. Əsas keyfiyyət göstəriciləri yükqaldırma əmsalından səmərəli istifadə olunması, ballastla üzmənin azaldılması, istismar vaxtı əmsalının yüksəldilməsi, limanlarda gəmilərin işlənməsinin sürətləndirilməsi və onların səmərəsiz dayanmalarının ixtisar edilməsi hesabına yaxşılaşmışdı.

Nəqliyyat donanması yeni gəmilərlə zənginləşirdi. Gəmiçilik 3 bərə və qış şəraitində nəqliyyat gəmilərini yola salmaq üçün xüsusi inşa olunmuş 2 tanker aldı. Lakin yük daşınmasının artmasına daha çox nəqliyyat donanmasından istifadə edilməsinin yaxşılaşdırılması hesabına nail olunmuşdu.

Gəmiçiliyin hər bir yeni beşilliyi qarşıda duran vəzifələrin yeni texniki vasitələrə yerinə yetirilməsi ilə deyil, həm də adamların peşə, ümumtəhsil, mədəni səviyyəsinin yüksəlməsi ilə səciyyəvi idi. Çox böyük dəyişikliklər baş verirdi. Bakı Dəniz Yolları Məktəbini bitirən Xəzər dənizçiləri sonralar Odessa Dəniz Donanması Mühəndisləri İnstitutu, Odessa Ali Dəniz Mühəndisləri Məktəbində təhsillərini davam etdirirdilər.

***Rasif TAHİROV***








# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN QORUNUB SAXLANILMASINDA VƏ İNKİŞAFINDA MİSİLSİZ XİDMƏTLƏRİ


Каспийское морское пароходство имеет богатую и героическую историю. Созданный недавно музей достойно представляет все это. Нет сомнения, что он будет развиваться и расширяться и станет хорошим средством для идейно-политического воспитания трудящихся, популяризации достижений Советского Азербайджана, Советского морского флота.

Г. Алиев

20-июня 1982.

## Gəmiçilərin işini həmişə yüksək qiymətləndirən dahi

Bütün şərəfli ömrünü insanlığa və canından artıq istədiyi Azərbaycana həsr edən Ulu Öndər Heydər Əliyev çağdaş tariximizdə təkcə xilaskarlıq missiyasını böyük ləyaqətlə yerinə yetirmiş, milli müstəqillik ideyasını gerçəkləşdirmiş Lider kimi deyil, həm də ölçüyəgəlməz fəaliyyəti ilə yaratdığı dövlətin inkişafı üçün iqtisadi, siyasi və hüquqi zəmin hazırlayan dahi Rəhbər kimi qalacaq. Danılmaz faktdır ki, Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi əsasən bu dahinin ölkəyə rəhbərliyi illərində yaradılmış potensiala əsaslanır.

Ötən əsrin altmışıncı illərinin sonundan başlayaraq respublikamızda bütün köklü dəyişikliklər məhz Heydər Əliyevin dəqiq hədəflərə istiqamətlənmiş məqsədyönlü fəaliyyəti ilə baş verirdi.

Dənizçilər də bugün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini, xüsusən Gəmiçiliyin əsasını təşkil edən nəqliyyat və neft donanmalarını Ulu Öndərin yadigarı saymaqda haqlıdırlar. Ümummilli Liderin iqtisadi siyasətində gəmiçilik xüsusi yer tutur, digər sahələrlə yanaşı, dəniz nəqliyyatı da onun qayğısı ilə inkişaf edirdi. Təsadüfi deyil ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixində Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi və SSRİ-nin ali rəhbərliyində çalışdığı illər donanmalarımızın zənginləşməsi və sürətli inkişafı dövrü hesab edilir. Məhz, həmin dövrdə Gəmiçiliyin donanmaları üçün dünyanın ayrı-ayrı ölkələrində inşa olunmuş 450-yə yaxın müxtəlif təyinatlı gəmi alınıb. “Gəmiçilər bilməlidirlər ki, mən həmişə onların işini yüksək qiymətləndirmişəm” sözləri isə Ulu Öndərin dənizçilərə sonsuz inamından xəbər verirdi.

## “Bizim Xəzər Dəniz Gəmiçiliyi idarəsinin donanması Azərbaycanın çox böyük sərvətidir.”

Dəniz nəqliyyatı tarixən yüklərin daşınmasında əsas və iqtisadi cəhətdən sərfəli vasitə olmuşdur. Bu səbəbdəndir ki, hər bir dövlət milli donanmasını inkişaf etdirməyə, nəqliyyat xidmətləri göstərməyə, yük daşımaqla gəlir əldə etməyə, müstəqil milli xarici ticarət qarantına malik olmağa çalışır. Xarici bazarda nəqliyyat sahəsi üzrə səmərəli fəaliyyət əhəmiyyətli dərəcədə milli ixracat potensialını artırmağa, xarici dəniz ticarətinin inkişafına və bütövlükdə iqtisadiyyatın möhkəmlənməsinə imkan verir.

Bu gün müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında üzən gəmilərimiz nəqliyyat hərəkətinin canlandığı dəniz yolları ilə sərnişin və müxtəlif yüklər – taxıl, neft, maşın və avadanlıqlar... daşıyır, Xəzərdə neft-qaz istehsalında dəniz nəqliyyatı xidmətləri göstərir. Əsası 1858-ci ildə qoyulmuş Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini bu günə çatdıran yol isə heç də həmişə hamar olmamışdır.

Bu baxımdan Ümummilli Liderimiz Heydər Əliyevin Gəmiçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsində xidmətləri əvəzsizdir. Məhz onun uzaqgörənliyi və səyi nəticəsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bu gün zəngin donanmaya malikdir.

XX əsrin 60-cı illərində Rusiyada, bir qədər sonra isə Qazaxıstanda böyük karbohidrogen ehtiyatları üzə çıxanda, Azərbaycanın nefti ilə bərabər, Gəmiçiliyi də mərkəzin diqqətindən kənarda qaldı. Donanmanın təzələnməsi yubadılır, ildən-ilə ötürülürdü. Bakıdan SSRİ hökumətinə, SSRİ Dəniz Donanması Nazirliyinə olunan müraciətlər cavabsız qalırdı. Yalnız dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana rəhbər təyin olunandan sonra bu problemi özünəməxsus incəliklə həll etdi. Belə ki, o vaxtlar Rusiyada və Qazaxıstanda hasil olunan xam nefti emal etmək üçün neftayırma zavodları tikmək planlaşdırılırdı. Lakin buna xeyli vaxt, vəsait lazım idi. Onda görkəmli siyasətçi Heydər Əliyev yaranmış məqamdan istifadə edərək SSRİ hökuməti qarşısında belə bir təkliflə çıxış etdi: “Biz Bakı neftayırma zavodlarında Manqışlaq və Sibir neftini emal edə bilərik”. Təklif bəyənildi və bundan sonra dənizçilərimiz tankerlərlə Xəzərin o tayından Abşeron sahillərinə xam neft, geriyə isə neft məhsulları daşımağa başladılar. Həmin illərdə Heydər Əliyevin səyi nəticəsində hövzədə yük axını çox sürətlə artdı.

Bunların nəticəsi kimi, Xəzər Dəniz Gəmiçiliyi 1970-1975-ci illərdə 1560 layihəli 12 min tonluq beş tanker aldı.

Elə həmin illərdə Qara Dəniz Gəmiçiliyi üçün tikilən “Qəhrəman Mehdi” teploxodu da bizim gəmiçiliyə verildi. 1971-1977-ci illərdə Xəzər Dəniz Gəmiçiliyi üçün 20 quru yük gəmisi inşa edildi.

80-ci illərin əvvəllərində Gəmiçilik yenidən belə çətinliklə üzləşdi. Tanker donanmasının təzələnməsi, sözün əsl mənasında, aşılmaz səddə çevrilmişdi. Həmin problemin həll olunmasını 19 il Gəmiçiliyə rəhbərlik etmiş mərhum Cabbar Həşimov belə xatırlayırdı: “Tanker donanmasının fiziki və mənəvi cəhətdən qocalması barədə dəfələrlə SSRİ Dəniz Donanması Nazirliyinin Kollegiya iclaslarında məsələ qaldırsaq da nəticəsi olmurdu. Yazılı müraciətlərimiz cavabsız qalırdı. Hər yerdən əlimiz üzüləndən sonra yenə respublika rəhbərinə müraciət etməyi qərara aldım. Ulu Öndər məni diqqətlə dinləyəndən sonra əlini telefona atdı. SSRİ Dəniz Donanması naziri Timofey Borisoviç Qujenkoya zəng vurdu. H. Əliyevin dəvəti ilə Timofey Qujenko Xəzər Dəniz Gəmiçiliyinin Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinin 100 illik yubileyində iştirak etmək üçün Azərbaycana gəldi.

SSRİ Dəniz Donanması naziri Bakıda olarkən respublikamızın rəhbəri Xəzər Dəniz Gəmiçiliyinin tanker donanmasının təzələnməsi barədə məsələ qaldırdı. Nazir yaxın vaxtlarda bu problemin aradan qaldırılacağına söz verdi”. Bu görüşdən sonra Gəmiçilikdə tanker donanmasının təzələnməsi başlandı.

Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyəndə də Xəzərdə gəmiçiliyin inkişafına xüsusi diqqət yetirir, dənizçilərin qayğıları ilə maraqlanırdı. Həm də Sov.İKP MK Siyasi Bürosunun üzvü olan Ulu Öndər öz nüfuzundan və imkanlarından istifadə edərək donanmanın yeni gəmilər hesabına zənginləşməsinə çalışırdı.

Dənizçilərin gözəl xatirindədir ki, hələ 1984-cü ildə, H. Əliyevin şəxsi səyi ilə Gəmiçiliyin nəqliyyat donanması Yuqoslaviyanın “Ulyanik” tərsanəsində inşa edilmiş “Dağıstan” tipli – istismar keyfiyyətlərinə görə həddən artıq fərqli və bu gün də uğurla istismar olunan gəmi-bərələrlə necə genişləndirilmişdi.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən tez-tez dənizçilər, liman işçiləri, gəmi təmirçiləri, o cümlədən Gəmiçiliyin yardımçı təsərrüfatının zəhmətkeşləri ilə görüşür, onların əmək və məişət şəraiti ilə maraqlanır, onun göstərişi və təşəbbüsü ilə bir çox problemlər aradan qaldırılırdı.

Gəmiçiliyin maddi-texniki bazasının möhkəmləndirilməsinə, sosial inkişafına xüsusi diqqət yetirilirdi. Məhz bu illərdə Dübəndidə neftin daşınması üçün nəzərdə tutulmuş liman, ilkin layihədə olmasa da, sonradan onun məsləhəti ilə meydançasında yay kafesi quraşdırılan və bakılıların sevimli istirahət guşəsinə çevrilən Bakı dəniz vağzalının binası istifadəyə verilmişdi.

Xəzər Dəniz Gəmiçiliyinin mənzil fondunun sahəsi isə 272 min kv. metrə çatdırılmışdı.

*(Davamı 12-ci səhifədə)*

## *GÖZ OXŞAYAN BU GƏMİLƏR ULU ÖNDƏRİN DƏNİZÇİLƏRİMİZƏ ƏRMƏĞANIDIR*







# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN QORUNUB SAXLANILMASINDA VƏ İNKİŞAFINDA MİSİLSİZ XİDMƏTLƏRİ

*(Əvvəli 11-ci səhifədə)*

O zaman respublikada xatirə, ev və tarix muzeylərinin təşkilinə ciddi fikir verilirdi. Heydər Əliyev cənabları gələcək nəslə xalqımızın oğul və qızlarının keçdikləri şərəfli ömür yolu ilə yaxından tanış olmaq imkanının yaradılmasına xüsusi diqqət yetirir və bu sahəyə qayğını artırmağı tövsiyə edirdi. Xəzər Dəniz Gəmiçiliyinin tarix muzeyinin açılışına gələn ilk qonaqlardan biri məhz Heydər Əliyev idi. Muzeyin "Fəxri qonaqlar kitabı"nda onun 20.06.1982-ci il tarixli qeydi vardır: "Xəzər Dəniz Gəmiçiliyi böyük və qəhrəmanlıqlarla zəngin tarixə malikdir. Bu yaxınlarda yaradılmış muzey bunların hamısını layiqincə əks etdirir. Şübhə yoxdur ki, o inkişaf edəcək və genişlənəcəkdir, zəhmətkeşlərin ideya-siyasi tərbiyəsi, Azərbaycanın, dəniz donanmasının nailiyyətlərinin geniş yayılması üçün yaxşı vasitəyə çevriləcəkdir".

1991-ci ildə Azərbaycan xalqı tarixin verdiyi təkrar imkandan istifadə edərək yenidən öz müstəqilliyini elan etdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat və rabitə müəssisələrinin Azərbaycan Respublikasının yurisdiksiyasına verilməsi haqqında" 24.01.92-ci il tarixli 39 saylı qərarı Xəzər Dəniz Gəmiçiliyinin tarixində yeni mərhələ oldu.

Öz müqəddəratını müəyyənləşdirmək prosesində Azərbaycanın keçdiyi yol çətin və əzablı olmuşdur. "Qara yanvar", Qarabağda müharibə, torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğalı, doğma yurd-yuvalarından didərgin düşərək çadırlarda yaşamağa məcbur olan milyon qaçqın, sonu görünməyən insan qurbanları – qısa zaman ərzində bu qədər sınaqlara sinə gərmək onilliklərə kifayət edərdi. Vəziyyəti həm də ölkənin dağılmaq həddində olması, xaosun, anarxiyanın, parçalanmanın hökm sürməsi, iqtisadi əlaqələrin tamamilə kəsilməsi ağırlaşdırırdı.

Bütün bu bəlalar Xəzər Dəniz Gəmiçiliyindən də yan keçmədi. Təbii ki, onların bir qisminin həlli respublikanın qocaman müəssisələrindən olub, dövlət büdcəsinə sabit gəlir gətirən Gəmiçiliyin öhdəsinə düşdü.

Azərbaycan xalqının bəxti onda gətirdi ki, gənc müstəqil dövlətin formalaşdığı çətin illərdə ona rəhbərliyi müdrik, qətiyyətli, Vətəninə və xalqına sadiq olan Ulu Öndər Heydər Əliyev edirdi. Məhz onun köməyi, dəniz nəqliyyatı işinin təşkilindəki incəlikləri dərindən bilməsi sayəsində Gəmiçiliyin dağılmasının qarşısını almaq və Xəzərdə aparıcı mövqeyini qoruyub saxlamaq mümkün oldu.

Hələ 1996-cı ildə Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin reallaşmasına aid sazişin imzalanmasını Ümummilli Liderimiz böyük "İpək yolu"nun bərpası istiqamətində atılmış real addım hesab edirdi və deyirdi ki, yeni "İpək yolu" – yeni nəqliyyat vasitələrindən istifadə etməklə qədim "İpək yolu"nun bərpasıdır. Əvvəllər, bu yol fəaliyyətdə olarkən, müasir nəqliyyat vasitələri yox idi, adamlar piyada və primitiv nəqliyyat vasitələri ilə hərəkət edirdilər. Amma bu gün dəmir yolu, avtomobil nəqliyyatı, dəniz gəmiləri "İpək yolu"nu qat-qat səmərəli etmişlər.

Ulu Öndərin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də keçirilən tarixi "İpək yolu"nun bərpasına həsr olunmuş Beynəlxalq konfrans bu sahənin yüksəlməsinə, onun səmərəliyinin artmasına kömək etmişdir.





Dəniz gəmiçiliyi sahəsində əldə edilmiş razılaşmalar, Azərbaycan Respublikasının adından Xəzər Dəniz Gəmiçiliyinin Gürcüstan, Ukrayna, Qazaxıstan, Türkiyə və digər dövlətlərlə bağladığı sazişlər dəniz yük daşımaları bazarının formalaşmasına, onların həcminin artmasına müsbət təsir göstərmişdir.

Tarixi "İpək yolu" nəqliyyat dəhlizi olmaqla bərabər, həm də respublikamız üçün strateji əhəmiyyətə malik həyat yoludur. Heydər Əliyev iqtisadiyyatımızın inkişafına, ölkəmizin qüdrətlənməsinə, beynəlxalq aləmdə mövqeyimizin möhkəmlənməsinə və təhlükəsizliyimizin artmasına şərait yaradan yeni "İpək yolu"nun fəaliyyətində dəniz gəmilərini, mühüm atributlardan biri hesab etməklə, gəmiçiliyin ölkəmiz üçün necə gərəkli təsərrüfat sahəsi olduğunu bir daha diqqətə çatdırırdı.

Ölkəmiz 1995-ci ilin may ayında dövlət başçısının xeyir-duası ilə Beynəlxalq Dəniz Təşkilatının (IMO) üzvü oldu. Həmin tarixdən 2001-ci ilədək respublikamızı bu mötəbər qurumda Xəzər Dəniz Gəmiçiliyi təmsil edirdi.

Xəzər Dəniz Gəmiçiliyinin kollektivi qarşısında duran tapşırıqların həlli, onun beynəlxalq səviyyədə çalışması işçilərdən yüksək peşəkarlıq, ixtisas biliklərinin keyfiyyətinin yüksəldilməsini tələb edirdi. Bunu nəzərə alaraq, Gəmiçiliyin rəhbərliyi respublika hökumətinə dənizçilər üçün mövcud təhsil sistemini yenidən təşkil etmək üzrə təkliflər verdi və Ulu Öndər Heydər Əliyevin şəxsi köməyi sayəsində 1996-cı il iyul ayının 15-də Nazirlər Kabinetinin qərarı ilə tamamilə Xəzər Dəniz Gəmiçiliyi tərəfindən maliyyələşdirilən Azərbaycan Dövlət Dəniz Akademiyası açıldı.

Gəmiçiliyin kollektivi Ulu Öndərin göstərdiyi yüksək etimadı həmişə doğrultmağa çalışır, Gəmiçiliyin ahəngdar və səmərəli işləməsi üçün bütün qüvvəsini səfərbər edirdi. 1998-ci ilin yanvar ayının 4-də Dübəndi neft terminalının açılışındakı nitqində Prezidentimizin söylədiyi sözlər – "Bizim Xəzər Dəniz Gəmiçiliyi idarəsinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir. Bu sahədə də işlərin müsbət istiqamətdə getməsi sevindirici haldır." – bizim hamımız üçün dəyərlidir.

Elə həmin il Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Xəzər Dəniz Gəmiçiliyinə dövlət statusu verildi, respublikanın sosial-iqtisadi həyatında Gəmiçiliyin mühüm rolu nəzərə alınaraq, hər il iyul ayının birinci bazar günü Xəzər Dəniz Gəmiçiliyi işçilərinin peşə bayramı günü elan edildi.

## Əgər bizim xüsusi gəmilərimiz olmasaydı...

Dünya neft sənayesinin beşiyi sayılan ölkəmizdə qədim zamanlardan quruda neft çıxarılır. Keçən əsrin ortalarından isə Xəzərin dərin qatlarından da neft və qaz hasil edilir. Dünyada dəniz neftinin erası məhz Azərbaycanda başlayıb. Xəzərdə çıxarılan "qara qızıl"ın hər damlasında isə Gəmiçiliyin Xəzər Dəniz Neft Donanmasının fədakar dənizçilərinin zəhmət payı var. Tarixi, Azərbaycanda dəniz neft sənayesinin yaranması ilə təxminən eyni dövrə təsadüf edən XDND 69 ildir ki, Xəzər şelfində, dənizin Azərbaycan sektorunda qiymətli enerji daşıyıcıları hasil edən qəhrəmanların xidmətindədir.

Dəniz neftinin axtarışı məqsədilə, 1904-cü ildə Pirallahı adasının Şimal sahilində ilk özül qoyulur. Təxminən 30 il sonra adanın Şimal akvatoriyasında metal dirəklər üzərində ilk qazma qurğusu quraşdırılır.

Müharibədən sonrakı illərdə Xəzərdə neft yataqlarının kəşfi ilə əlaqədar olaraq qazma, neftçıxarma, neftin toplanması və nəqli kimi məsələlər gündəmə gələrək kompleks həllini tələb edir.

SSRİ Nazirlər Sovetinin Xəzər dənizində neft istehsalının inkişafı haqqında 31 oktyabr 1949-cu il tarixli xüsusi qərarı ilə Azərbaycan SSR-də "Azərdənizneft" birliyi, onun tərkibində isə SSRİ Neft Sənayesi Nazirliyinin 4 noyabr 1949-cu il tarixli əmri ilə Üzən Vasitələr İdarəsi yaradılır.

Məhz həmin tarixdən Xəzər Dəniz Neft Donanmasının təşəkkülü başlayır. SSRİ Neft Sənayesi Nazirliyinin 22 yanvar 1953-cü il tarixli əmri ilə Üzən Vasitələr İdarəsi Xəzər Dəniz Neft Donanması İdarəsinə çevrilir.

İlk vaxtlar XDND-nin balansında cəmi 66 ədəd kiçikhəcmli gəmi və üzən qurğu vardı. Bu gəmilər vasitəsilə dənizin yalnız 20 metrə qədər dərinliklərində kəşfiyyat və inşa işləri aparmaq mümkün idi.

*(Davamı 13-cü səhifədə)*

## GÖZ OXŞAYAN BU GƏMİLƏR ULU ÖNDƏRİN DƏNİZÇİLƏRİMİZƏ ƏRMƏĞANIDIR







# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN QORUNUB SAXLANILMASINDA VƏ İNKİŞAFINDA MİSİLSİZ XİDMƏTLƏRİ

*(Əvvəli 12-ci səhifədə)*

1949-cu il noyabrın 7-də Neft Daşlarında ilk neft quyusu güclü fontan vurandan və yataqda böyük həcmdə neft ehtiyatı aşkar edildikdən sonra bu rayonda neft hasilatını artırmaq məqsədilə genişmiqyaslı işlərə, o cümlədən XDND-nin donanmasının möhkəmləndirilməsinə başlandı. Keçmiş SSRİ-nin istehsalı olan müxtəlif gəmilərin Bakı gəmi təmiri zavodunda modernləşdirilməsi işləri həyata keçirildi.



1950-ci illərin əvvəllərindən donanmaya kran, yedək, geoloji-kəşfiyyat, sərnişin və sair gəmilərin alınmasına başlandı. Həştərxanın "Krasnıye Barrikadı" zavodundan 20 tonluq kran, 50 nəfərlik sərnişin, 300 at gücündə yedək gəmiləri, Nijni Novqoroddan 40 tonluq kran, Sankt-Peterburqdan 600 at gücündə yedək gəmiləri və yanğınsöndürən gəmilər, Sosnovkadan xidməti və dalğıc katerləri alındı.

1965-ci ildə Nijni Novqorodun "Krasnoye Sormovo" zavodunda tikilən 250 ton yükqaldıran "Koroğlu" kran gəmisinin istismara verilməsi dənizin 60 metr dərinliyinədək sahələrində inşaat işlərinin aparılmasına imkan yaratdı.

1960-1970-ci illərdə Bakıda və Polşada tikilən 600 nəfərlik "Babazadə" və "Volqoqrad" gəmiləri ilə həmin dövr üçün donanmanın sərnişin daşınmasına olan tələbatı tam ödənildi.

Ümumiyyətlə, 1950-1970-ci illərdə donanmaya 336 ədəd müxtəlif təyinatlı gəmilər və üzən qurğular daxil olmuşdu. Bunlar kran, sərnişin, yedək, dalğıc, geoloji-kəşfiyyat, yanğınsöndürən gəmilər, kiçik yedək və xidmət katerləri, barjlar və sair idi.

1970-ci ildə neftçıxarmanın qarşısına qoyulan tələb - dənizin daha dərin yerlərindən neft istehsal edilməsi məsələsi donanmaya müvafiq olaraq güclü və daha geniş texniki imkanlara malik gəmilərin alınması zəruriyyətə çevirdi. Amma o zamanlar SSRİ gəmiqayıranlarının neftçıxarma üçün tələb olunan xüsusi təyinatlı gəmiləri inşa etmək təcrübəsi olmadığından onların tikintisi xarici tərsanələrdə həyata keçirilməli idi. Bunun üçün isə böyük məbləğdə xarici valyuta tələb olunurdu.

Dənizçilərin bəxti onda gətirdi ki, Azərbaycanın idarəetmə sükanı arxasında artıq Ulu Öndər dayanırdı və Heydər Əliyevin həmin illərdə Azərbaycana rəhbərlik etməsi məsələnin həllinə imkan verirdi. Məhz Heydər Əliyevin böyük səyi və qətiyyəti ilə bu məsələ müsbət həll edildi.

1973-cü ildə Niderlandda tikilən "Süleyman Vəzirov" borudüzən gəmisi dənizdə 195 metrə qədər dərinliklərdə sualtı boru xətlərinin çəkilməsini təmin edirdi.

Onun işini təmin etmək üçün Norveçdə hər biri 7040 at gücündə olmaqla 3 ədəd təchizat gəmisi sifariş edildi.

1978-ci ildə Fransada tikilmiş 200 metrədək dərinlikdə işləmək üçün sualtı dalğıc kompleksi ilə təchiz olunmuş "Əli Əmirov" geoloji-kəşfiyyat, 1980-ci ildə Almaniyada tikilmiş 2500 ton yükqaldıran kran gəmiləri donanmanın tərkibinə daxil edildi.

1980-ci illərin əvvəllərindən "Günəşli" yatağının mənimsənilməsinə başlandı. Bakı Dərin Dəniz Özülləri Zavodunda hazırlanan platformaların, dayaq bloklarının və neft qurğularının yatağa nəql edilməsi və quraşdırılması üçün xüsusi təyinatlı üzən vasitələr tələb olunurdu. Ulu Öndərin köməyi ilə qısa vaxtda Almaniyada 18000 ton yükgötürən və özüboşaldan "STB-1" barjı tikildi və Fransadan 2 ədəd 2000 ton yükgötürən "TMİ" tipli barjlar alındı.

Ümumiyyətlə, 1980-1991-ci illərdə xarici ölkələrdə tikilmiş 40-2500 ton yükqaldıran 17 kran, 23 ədəd 4000-8000 at gücündə təchizat-yedək, 12 ədəd sərnişin, 9 yanğınsöndürən, 4 liman-yedək, 1 ədəd 18000 ton yükgötürən və özüboşaldan barj, 1ədəd 300 metrədək dərinlikdə borudüzən, 1 ədəd 300 metrədək dərinlikdə sualtı dalğıc işləri görən dalğıc gəmisi və sair gəmilər alındı.

Donanmanın yarandığı ilk vaxtdan gəmilərə təmir və texniki xidmətin göstərilməsi üçün müvafiq təmir bazalarının yaradılmasına da diqqət yetirilirdi. 1953-1955-ci illərdə Cəmi təmiri zavodu tikilib istifadəyə verildi. Kiçik gəmilərin təmiri üçün gəmi təmiri emalatxanaları təşkil edildi. Bundan başqa, 1980-ci illərdə zavod üçün 3 ədəd – qaldırıcı qüvvəsi 4500 ton, 5000 ton və 15000 ton olan üzən dokların alınması donanmanın gəmilərinin sualtı hissəsinin təmirinin keyfiyyətini xeyli yaxşılaşdırmağa imkan verdi. Onu da qeyd edək ki, 1970-1980-ci illərdə Xəzəryanı ölkələrin sektorlarında neft-qaz yataqlarının ilkin kəşfi məhz XDND-nin gəmiləri vasitəsi ilə Azərbaycan neftçiləri tərəfindən həyata keçirilirdi.

1994-cü il sentyabrın 20-də Bakıda dünyanın yeddi ölkəsini təmsil edən on bir iri neft şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandı. Cəbhə bölgəsində atəşkəs rejiminin kövrək olduğu, dövlət idarəetmə mexanizminin hələ tam oturuşmadığı, bəzi qonşu dövlətlərlə münasibətlərdə ciddi psixoloji-siyasi gərginliyin hökm sürdüyü, Xəzərin hüquqi statusu ilə bağlı mübahisələrin kəskinləşdiyi bir vaxtda belə bir sazişin imzalanmasına nail olmağa yalnız bir rəhbərin gücü, məharəti, cəsarəti, qətiyyəti çata bilərdi: Ulu Öndər Heydər Əliyevin!

Məhz Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Məhz Ulu Öndər Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətlərdən xilas etmək üçün bütün mühüm tədbirləri görməyə başladı. Məhz Ulu Öndər bütün kənar maneələrə mətinliklə sinə gərərək Qərbin aparıcı şirkətlərini bu müqavilənin səmərəliliyinə inandıra bildi. Bu, sadəcə Azərbaycanın neft sənayesinin yeni inkişaf dövrünə qədəm qoyması demək deyildi. Bu, həmin dövr üçün Azərbaycanın bəlalardan qurtulmaq, müstəqilliyini qoruya bilmək imkanı demək idi. "Əsrin müqaviləsi" həm də ölkənin iqtisadi yüksəlişi üçün təməl daşı idi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə ifadə etsək: "Əsrin kontraktı"nın Azərbaycan tarixində xüsusi yeri vardır və Azərbaycanın müstəqil ölkə kimi yaşamasında bu rol əvəzolunmazdır. O vaxt bizim nə imkanlarımız var idi, nə də vəsaitimiz. Ölkədə sənaye sahəsində hələ ki, tənəzzül yaşanırdı, iqtisadiyyat demək olar ki, çökmüşdü. Müstəqil ölkə üçün yaşamaq çox çətin idi. Müstəqilliyimiz demək olar ki, şübhə altında idi. Məhz o çətin illərdə Azərbaycana investisiyalar gətirmək, Azərbaycanı dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim etmək, xarici investorlar üçün münbit şərait yaratmaq, eyni zamanda, Azərbaycanın dövlət maraqlarını tam şəkildə qorumaq böyük siyasi təcrübə, bilik və məharət tələb edirdi."

Əslində "Əsrin müqaviləsi"nə ilk xeyir-duanı Ulu Öndərimizin hələ keçmiş SSRİ-nin vaxtında respublikamızda yaratdığı nəhəng neft sənayesi kompleksi verdi. Dövlət başçımızın vurğuladığı kimi: "Bizim çox inkişaf etmiş neft infrastrukturumuz, xüsusi gəmilərimiz və platformalarımız olmasaydı, "Əsrin kontraktı"nın imzalanması, hesab edirəm ki, bizə o qədər də böyük səmərə verməzdi, ümumiyyətlə, xarici şirkətlər 1994-cü ildə Azərbaycana sərmaya qoyacaqdı-qoymayacaqdı, bu, hələ sual doğururdu".

Ulu Öndərimizin sarsılmaz iradəsi ilə həyata vəsiqə qazanan və sonralar layiqli varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən çox məharətlə davam etdirilən yeni neft strategiyası Xəzər Dəniz Neft Donanmasının da qarşısında yeni üfüqlər açdı. Belə ki, "Əsrin müqaviləsi" çərçivəsində nəzərdə tutulmuş bir sıra mühüm işlərin yerinə yetirilməsində donanmamızın kəşfiyyat, kran, təchizat, yedək gəmilərinin xidmətlərindən geniş istifadə edilməyə başlandı. Məhz XDND Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin sifarişləri əsasında sualtı boru kəmərlərinin çəkilişini təmin etdi, yeni tikilmiş platformaların, dayaq bloklarının hasilat nöqtələrinə nəqli, dəniz obyektlərinin quraşdırılması, onların təhlükəsizliyinin təmin olunması, dalğıc işlərinin görülməsi kimi mürəkkəb əməliyyatların öhdəsindən layiqincə gəldi. Və təbii ki, bu müddətdə donanmanın modernləşdirilməsinə, daha müasir nəqliyyat vasitələri ilə təchiz edilməsinə də xüsusi diqqət yetirilirdi.

## Ulu Öndərin xatirəsinə ən böyük ehtiramımız...

Donanmamızı xalqımızın əvəzsiz sərvəti hesab edən Ulu Öndərimiz kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyev də Gəmiçiliyin ölkənin nəqliyyat sektorunda roluna çox böyük qiymət verir, Azərbaycanda gəmiçiliyin inkişafına, donanmaların müasir gəmilərlə möhkəmləndirilməsinə, gəmiçiliyin fəaliyyəti ilə əlaqəli infrastrukturun təkmilləşdirilməsinə xüsusi diqqət göstərir və ciddi islahatlar həyata keçirir.

Dövlət başçımızın 22 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə respublikada mövcud olan iki böyük donanmanın – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasında da əsas məqsəd dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsidir.

Ümummilli Liderin alternativi olmayan siyasi kursu müstəqil Azərbaycanımızın uğurlu inkişafının əvəzsiz təminatı deməkdir. Bu gün Azərbaycan dövləti möhtərəm Pezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə məhz Ümummilli Liderin təməlini qoyduğu yolla inamla irəliləyir. Dünya artıq iqtisadi inkişafın Azərbaycan modelindən danışır. Regionun enerji və nəqliyyat layihələrinin əsas təşəbbüskarı və iştirakçısı kimi çıxış edən Azərbaycan dünənədək əlçatmaz sayılan sahələrdə böyük uğurlara imza atır. Şübhəsiz, Ulu Öndərin xatirəsinə ən böyük ehtiram onun arzularının və ideyalarının həyata keçirilməsinə fədakarlıqla xidmət göstərməkdir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxminli kollektivi də belə xidmətdən şərəf duyur və inanır ki, gündən-günə çiçəklənən Azərbaycan Ümummilli Liderimizin mənəvi-siyasi irsinin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən qüdrətli, ən inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

**Rauf VƏLİYEV,**
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*

## GÖZ OXŞAYAN BU GƏMİLƏR ULU ÖNDƏRİN DƏNİZÇİLƏRİMİZƏ ƏRMƏĞANIDIR









TƏBRİKLƏR... TƏBRİKLƏR... TƏBRİKLƏR...

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri cənab Rauf VƏLİYEVƏ

*Hörmətli Rauf müəllim!*

Sizi, Azərbaycanda iqtisadi artımın sürətləndirilməsində və əhatə dairəsinin genişləndirilməsində, eləcə də ölkəmizin həm daxili, həm də qonşu ölkələrlə nəqliyyat əlaqələrinin inkişaf etdirilməsində və dəniz nəqliyyatı sahəsində əməliyyatların təkmilləşdirilməsində yaxından iştirak edən, habelə uzun müddət bu sahədə çalışmış və gərgin əməklərini əsirgəməmiş kollektivinizi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi münasibəti ilə səmimi-qəlbdən təbrik edirəm.



Dəniz nəqliyyatı vasitəsi ilə aparılan idxal-ixrac əməliyyatları və tranzit yük daşımaları işinin səmərəliliyinin ən qabaqcıl təcrübələrə uyğunlaşdırılması, dəniz nəqliyyatı sahəsində texniki imkanların artırılması, logistika əməliyyatlarının idarə edilməsi üçün qabaqcıl texnoloji infrastrukturun yaradılması, Azərbaycanın logistika sahəsində davamlı inkişafının təmini üçün beynəlxalq ticarət şəbəkələrinə çevik inteqrasiyasının təşkil edilməsi istiqamətində rəhbərliyiniz altında həyata keçirilən fəaliyyət yüksək qiymətləndirilməkdədir.

Sizi bir daha bu əlamətdar hadisə münasibəti ilə təbrik edir, Azərbaycan dəniz nəqliyyatının inkişafında əvəzsiz xidmətləri olan Ulu Öndərimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Respublikamızın müstəqil inkişafı və tərəqqisi naminə ölkəmizdə dəniz nəqliyyatının inkişafı üçün əhəmiyyətli təşəbbüslərin həyata keçirilməsi, o cümlədən ölkənin logistika sahəsində aparıcı mövqeyinin gücləndirilməsi istiqamətində həyata keçirdiyiniz bütün fəaliyyətlərinizdə yeni-yeni uğurlar və cansağlığı arzulayıram.

*Hörmətlə,*

***Qüdrət QURBANOV,***
***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru***

## Azərbaycan dənizçiləri üçün ən müasir gəmilər inşa etməkdən sonsuz qürur duyuruq

BAKU SHIPYARD

*Hörmətli Rauf müəllim!*

Sizi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin bütün kollektivini Gəmiçiliyin 160 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sevindirici haldır ki, ölkəmizin ən qocaman şirkətlərindən olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi sizin rəhbərliyiniz altında inamla irəliləyərək, beynəlxalq aləmdə nüfuzunu daha da artırır.



Yarandığı ilk günlərdən Bakı Gəmiqayırma Zavodu ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini sıx əməkdaşlıq münasibətləri birləşdirir. Sorağı dünya sularından gələn Azərbaycan dənizçiləri üçün ən müasir gəmilər inşa etməkdən sonsuz qürur duyuruq. Bu münasibətlərin əsası və təməl prinsipləri Azərbaycan donanmasının yerli istehsal olan, yeni və müasir gəmilərlə təchizatı istiqamətində birgə fəaliyyət göstərməkdir. Onu da qeyd etmək lazımdır ki, şirkətlərarası münasibətlərimizin möhkəm təməllər üzərində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi məmnunluq doğurur.

Əminəm ki, sizin Bakı Gəmiqayırma Zavodu ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin strateji tərəfdaşlığını genişləndirmək əzminiz qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızı bundan sonra da müvəffəqiyyətlə davam etdirməyə imkan verəcəkdir.

Sizə və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin kollektivinə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm!

*Hörmətlə,*

***İmanverdi HƏSƏNOV,***
***"Bakı Gəmiqayırma Zavodu" MMC-nin Baş Meneceri***

## Qoy həmişə Gəmiçiliyin gəmilərinin kili altında 7 fut olsun!

1923-cü ildə Rusiya Dəniz Gəmiçiliyi Registri təsnifat cəmiyyəti olaraq yarandıqdan 10 il sonra Bakı şəhərində öz bölməsini açmışdır. O vaxtdan Rusiya Dəniz Registrinin Azərbaycan nümayəndiliyi Xəzər Dəniz Gəmiçiliyi ilə sıx əməkdaşlıq edir. Uzun illər ərzində Dəniz Ticarət Donanması və Xəzər Dəniz Neft Donanmasının gəmilərinin təsnifatını həyata keçirmişik. Gəmiçiliyin balansında olan gəmilər unikallığı ilə seçilməklə yanaşı, həm də təsnifat üçün maraqlı və məsuliyyətlidir.



Son illər «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin rəhbərliyi ilə həm Gəmiçiliyin, həm də donanmanın beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində səmərəli fəaliyyəti Cəmiyyətin dəniz gəmiçiliyi sahəsində beynəlxalq daşımalarda rəqabət qabiliyyətinin artmasına və tranzit potensialının gücləndirilməsinə gətirib çıxarmışdır.

Donanmanın gəmilərinin yenilənməsi müasir Gəmiçilik şirkətində vacib şərt olduğu kimi, həm də böyük maliyyə ehtiyatları tələb edən bir amildir. Dünya bazarının sərt tələblərinə baxmayaraq «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin əldə etdiyi uğurlar həmişə olduğu kimi, bu gün də bizi hədsiz sevindirir.

Son illərdə yeni gəmilərin alınması və Bakı Gəmiqayırma Zavodunda 4 yeni gəminin tikintisi qeyd olunanların bariz nümunəsidir. Bu, Gəmiçiliyin çoxsaylı uğurlarının bir hissəsidir. Qeyd etmək istərdim ki, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin Registr təsnifatına önəm verməsi göstərdiyimiz xidmətlərin yeni tələblərlə uyğunlaşdırılmasında məsuliyyətimizi artırır.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti özünün 160 illik yubileyini qeyd edir. Bu əlamətdar bayram münasibətilə Rauf Vəliyev cənabları başda olmaqla, bütün dənizçiləri səmimi-qəlbdən təbrik edir, onlara uzun ömür, cansağlığı, daim tərəqqi arzu edirəm.

Qoy həmişə Gəmiçiliyin gəmilərinin kili altında 7 fut olsun!

***Şaban QULİYEV,***
***"Rusiya Dəniz Registri Azərbaycanda" ASC-nin sədri***

## HƏR SƏFƏR BİR SINAQDIR...







## Əminəm ki, uğurlu əməkdaşlığımız daha da genişlənəcək və Azərbaycan iqtisadiyyatının davamlı yüksəlişinə böyük töhfələr verəcəkdir

SOCAR



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri cənab Rauf Vəliyevə*

Hörmətli Rauf müəllim!

Bu il şanlı tarixə malik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyini qeyd edir. Bu münasibətlə Sizi və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivini təbrik edir, hamınıza möhkəm cansağlığı, məsul və şərəfli işinizdə uğurlar arzulayıram.

Ölkəmizdə dəniz gəmiçiliyinin tarixi XIX əsrdən başlayır. Həmin dövrdə Bakıda neft hasilatının artması ilə neft daşımalarında yaranan tələbat gəmiçiliyin inkişafına səbəb olmuşdu. Sonradan bu sahənin inkişafı davam etdirilsə də, məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə bu strateji sektorun inkişafında ciddi sıçrayış müşahidə olunmuşdur. Azərbaycanda gəmi parkının əhəmiyyətli dərəcədə genişləndirilməsi, yükdaşıma həcminin artması, yeni obyektlərin tikilərək istismara verilməsi Ulu öndərin Azərbaycana rəhbəlik etdiyi illərə təsadüf edir.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları gəmiçiliyin inkişafına böyük önəm verir. Onun rəhbərliyi altında ölkəmizin dəniz nəqliyyatı sisteminin fəaliyyəti müasir beynəlxalq standartlar səviyyəsində yenidən qurulmuşdur. Bu gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Vətənimizin iqtisadi cəhətdən daha da qüdrətlənməsi naminə qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gələrək, yeni-yeni nailiyyətlərə imza atır. Ölkəmizin iqtisadiyyatının bu strateji sektorunda əvəzsiz yeri olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC beynəlxalq yükdaşımalar bazarındakı tərəfdaşlarının dərin etimadını qazanmışdır. Xəzərin Azərbaycan sektorunda hasil olunan karbohidrogenlərin dünya bazarlarına çıxarılmasında Gəmiçiliyin rolu böyükdür. Müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulan gəmilər neftçilərin yeni uğurlara imza atmasına təkan verir.

SOCAR-la Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi arasında işgüzar əlaqələr hazırda yüksək səviyyədədir. Əminəm ki, bu uğurlu əməkdaşlıq daha da genişlənəcək və Azərbaycan iqtisadiyyatının davamlı yüksəlişinə böyük töhfələr verəcəkdir.

Bir daha Sizi və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kollektivini 160 illik yubileyiniz münasibəti ilə təbrik edir, Vətənimizin gələcəyi naminə genişmiqyaslı fəaliyyətinizdə daha böyük və davamlı uğurlar arzulayıram.

Hörmətlə,

***Rövnəq ABDULLAYEV,***
***SOCAR-ın prezidenti***

## BP şirkəti "AXDG" QSC ilə əməkdaşlığa yüksək dəyər verir

bp
BP Azerbaijan



***Bütün BP Azərbaycanın adından "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə, onun heyətinə şanlı 160-cı ildönümü münasibətilə səmimi təbriklərimi çatdırmaq istəyirəm.***

Azərbaycanın dənizçilik tarixi və ənənəsi əsrlər əvvələ, Xəzər dənizində ticarət əlaqələrinin başlandığı dövrə gedib çıxır. Azərbaycanda müasir dəniz gəmiçilik sənayesinin inkişafı neft sənayesinin yaranması və sürətli inkişafı ilə əlaqəlidir. Təsadüfi deyildir ki, bir çox əsrlər əvvəl Xəzər dənizçiləri ofşor neft daşımalarında liderlik etmişlər. Bildiyim qədər, dünyada ilk neftdaşıyan "Aleksandr" barjı 1873-cü ildə Xəzərdə istismar edilib. Dünyada ilk tanker – "Zərdüşt" də (1878-ci ildə inşa edilib) Xəzərdə səfərlər edib.

Bugün Xəzər dənizi AÇG, Şahdəniz, BTC və CQBK kimi dünya miqyaslı neft və qaz layihələri sayəsində müasir enerji qovşağına çevrilmişdir. BP bu layihələrin operatoru kimi özünün bütün ofşor əməliyyatlarında Azərbaycanın dəniz donanmasının vacib dəstəyinə həmişə arxalanmışdır. Bizim logistika və daşıma fəaliyyətlərimiz Xəzər dənizçilərinin böyük təcrübəsindən və bacarıqlarından yararlanmaqda davam edir.

Bir daha Azərbaycan Xəzər Dənizi Gəmiçiliyini bu möhtəşəm ildönümü münasibətilə təbrik edirəm. Biz "AXDG" QSC ilə əməkdaşlığa yüksək dəyər veririk və Azərbaycanın gələcəyi naminə birgə işləyəcəyimizə ümidvar olduğumuzu bildiririk.

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan-Gürcüstan-Türkiyə üzrə regional prezidenti***

## Dənizçilər mavi sularda bayrağımızı şərəflə dalğalandırırlar



***Bu gün dənizçilər dünyada ən fədakar peşə sahiblərindən biri sayılır. Onlar öz fəaliyyətləri ilə aid olduqları ölkələrə nüfuz qazandırırlar. Təkcə bu səbəblərə görə, dənizçilərlə qürur duymaq olar. Sevindirici haldır ki, Azərbaycan dənizçiləri öz peşəkarlıqları ilə dünyada xüsusi dəyərə sahibdirlər. Hər zaman mavi sularda bayrağımızı şərəflə dalğalandırırlar.***

Ümumiyyətlə, dənizə çıxışı olan ölkələr sırasında Azərbaycan mövqeyinə görə daim fərqlənib. Qədim gəmiçilik ənənələrimizin olması bizə imkan verib ki, bu sahədə fəaliyyətimizi gücləndirək. Təsadüfi deyil ki, bu gün ölkəmizdə 160 illik tarixi olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi kimi nüfuzlu şirkət fəaliyyət göstərir. Şirkətin durmadan inkişafı hər kəsə bəllidir.

Ümumiyyətlə, Azərbaycanın beynəlxalq yol nəqliyyatında çox vacib rol oynaması gəmiçilik üçün də imkanlar açıb. Dəniz nəqliyyatı indi təkcə öz yüklərimizin deyil, digər ölkələrin yüklərinin daşınmasında da fəal iştirak edir.

Gəmiçilik sahəsinin inkişafı Azərbaycan üçün hər zaman prioritet istiqamətlərdən olub. Bu gün də bu sektor hərtərəfli dövlət qayğısı ilə əhatələnib. Demək olar ki, gəmiçilik sənayesinin sürətli inkişafı üçün ölkəmizdə hər cür şərait yaradılıb. İndi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi öz işini tam olaraq müasir dövrün tələb və çağırışlarına uyğun qurub. Donanmalarımız davamlı yenilənir, qabaqcıl texnologiya və avadanlıqlar alınır, kadrların yetişdirilməsinə xüsusi diqqət yetirilir.

Əziz dənizçilər, sizdən gözləntilərimiz böyükdür. Ümid edirəm ki, həmişə olduğu kimi, bundan sonra da dənizçi peşəsinin nüfuzunu yüksəklərdə tutacaqsınız. Ölkəmizin dənizçilik ənənələrini uğur və şərəflə davam etdirəcəksiniz.

160 illik yubileyiniz mübarək!

***Aydın MİRZƏZADƏ,***
***Milli Məclisin deputatı***

## Sevindirici haldır ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyəti təkcə Xəzər dənizi ilə məhdudlaşmır

DNV·GL



***Norveç krallığının "DNVGL AS" şirkəti və həmin şirkətin Azərbaycan Respublikasındakı Nümayəndəliyi adından Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyini və çoxsaylı kollektivini Gəmiçiliyin 160 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir və fəaliyyətlərində müvəffəqiyyətlər arzulayırıq.***

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər dənizində ən böyük və ən qədim tarixə malik gəmiçilik şirkətidir. Sevindirici haldır ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyəti təkcə Xəzər dənizi ilə məhdudlaşmır, müxtəlif təyinatlı gəmiləri Xəzərdənkənar hövzələrdə də müvəffəqiyyətlə səfərlər edir.

"DNVGL AS" təsnifat cəmiyyəti olaraq, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə çalışmaqdan və Azərbaycan dənizçilərinin qazandıqları müvəffəqiyyətlərdə bizim də az da olsa rolumuzun olmasından çox məmnunuq.

Hal-hazırda "DNVGL AS" şirkətinin təsnifatında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus beynəlxalq tələblərə cavab verən, ən yeni texnika və texnologiyalarla təmin olunan müxtəlif tipli müasir gəmilər istismar olunur. Bu gəmilərə misal olaraq aşağıdakıları qeyd edə bilərik.

"Akademik Tofiq İsmayılov" dalğıc gəmisi - Dinamik mövqeləşdirmə sistemi ilə təmin olunub və 300 m dərinlikdə dalğıc, daha dərin sahələrdə uzaqdan idarə olunan aparatlarla sualtı işlərin aparılması üçün nəzərdə tutulmuşdur.

"QUBADLI" - Dinamik mövqeləşdirmə sistemi ilə təmin olunmuş müasir tipli təchizat və yanğınsöndürmə gəmisidir.

"SUMQAYIT" – Müasir tipli təchizat gəmisidir.

Bu gəmilərin istismarında yüksək ixtisaslı mütəxəssisların çalışması və onların texniki bilik səviyyələrinin və səriştələrinin artırılmasının daim diqqət mərkəzində olması Gəmiçiliyin gələcəkdə də təhlükəsiz və səmərəli inkişafına təminat yaradır.

***Rəsul HÜSEYNOV,***
***"DNVGL AS" şirkətinin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri***

## "Dənizçilər var olsun!"

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyini, bütün dənizçilərimizi 160 illik yubiley münasibəti ilə ürəkdən təbrik edirəm. Yolunuz açıq, işıqlı olsun...***

Azərbaycan xalqı dənizçilərə hər zaman xüsusi hörmətlə yanaşıb. Təkcə 1990-cı ilin 20 Yanvar hadisələrində onların göstərdikləri şücaəti xatırlamaq kifayətdir. Həmin gün dənizçilər öz gəmilərini Bakı buxtasına yaxınlaşdıraraq böyük qəhrəmanlıq nümayiş etdirdilər. Onlar bu qanlı hadisənin ört-basdır edilməsinin qarşısını aldılar. Bəli, bu, dənizçilərimizin vətəndaşlıq borcu idi və onlar bunu layiqincə yerinə yetirdilər.

Dənizçilər fədakar, məsuliyyətli, möhkəm və əzmkar olurlar. Onların bu xarakteri ədəbiyyat və incəsənət adamlarının da hər zaman diqqət mərkəzində olub. Xəzər dənizinə, dənizçilərimizə həsr edilmiş onlarla şeir, mahnı, rəsm əsərləri var. Bu mahnılardan birini bu yaxınlarda mənə yazmaq



qismət oldu. Söhbət "Dənizçilər var olsun!" marşından gedir. 160 il tarixi olan qocaman bir şirkət üçün belə bir mahnının ərsəyə gəlməsindən qürur duyuram. Əziz dənizçilər, çalışdım ki, sizin fədakarlığınızı mahnı ilə tərənnüm edim.

Bu günlərdə isə sizin bayramınızdır. 160 illik yubileyinizin qeyd olunması ərəfəsindəsiniz. Hər bayram gözəldir, özü ilə sevinc gətirir. Mən sizə ilin bütün günlərində uğur arzu edirəm. Var olun, dənizə və dənizçiliyə sevginiz azalmasın.

***Faiq SÜCƏDDİNOV,***
***Xalq artisti, Əməkdar incəsənət xadimi***

**T Ə B R İ K L Ə R . . .   T Ə B R İ K L Ə R . . .   T Ə B R İ K L Ə R . . .**

## Müstəqil Azərbaycanın bayrağı altında üzən gəmilərimiz respublikamızın iqtisadi qüdrətinin daha da güclənməsinə xidmət edir

***Əziz Xəzər Dəniz Gəmiçiliyinin kollektivi!***

Bu günlər Azərbaycanda gəmiçiliyin yaranmasının 160 illik yubileyi qeyd edilir. Bu, çox böyük bayram, əlamətdar hadisədir. 160 illik tarixin hər səhifəsində Azərbaycan dənizçilərinin qəhrəmanlıqla dolu əmək fəaliyyəti, iqtisadiyyatımızın inkişafı, vətənimizin çiçəklənməsi naminə gördükləri əzəmətli işlər öz əksini tapmışdır.

Xəzərdə gəmiçilik qədim tarixə malikdir. XIX əsrdə Bakıda neft hasilatının coşğun inkişafı ticarət gəmiçiliyinin tərəqqisinə güclü təkan vermişdi. Məhz bunun nəticəsində 1858-ci ilin mayında “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyəti - gəmiçilik şirkəti yaradılmış və həmin cəmiyyət Xəzər Dəniz Gəmiçiliyinin sələfi hesab edilir.



Gəmiçilik tariximizin bütün mərhələlərində Siz şərəflə xalqımıza, vətənimizə xidmət etmisiniz. Böyük Vətən müharibəsi illərində Xəzər Dəniz Gəmiçiliyi çox böyük fədakarlıq göstərmiş, faşizm üzərində qələbənin qazanılmasında xidmət göstərmişdir.

Keçən əsrin 70-ci illərində ulu öndər H.Əliyevin titanik əməyi nəticəsində Xəzər Gəmiçiliyi inkişafının həmin dövrə qədər görünməmiş zirvələrinə qalxmışdır. Dənizçilər hər zaman Ulu öndərin qayğısını hiss etmiş, onun dəstəyinə arxalanaraq gəmiçiliyimizi qoruyub saxlaya bilmişlər.

Müstəqillik illərində də bu sahə dövlətimizin daim diqqət mərkəzindədir. Görülmüş sistemli tədbirlər nəticəsində Xəzər Gəmiçiliyi dayanıqlı və çox güclü perspektivli bir sahəyə çevrilmişdir.

Keçilmiş yola nəzər salsaq görərik ki, bu yol heç də asan olmamış, ömrünü dənizə həsr edən bir çox nəsillərin donanmanın, limanların, gəmi təmiri zavodlarının, tədris və səhiyyə ocaqlarının yaradılması və inkişafı üçün istedad və bacarıqlarını əsirgəməmişlər.

Bu gün müstəqil Azərbaycanın bayrağı altında üzən gəmilərimiz ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına, respublikamızın iqtisadi qüdrətinin daha da güclənməsinə xidmət edir. Xəzər Dəniz Gəmiçiliyi qədim İpək Yolunun bərpası, Qərblə Şərq arasında ticarət-iqtisadi əlaqələrimizin genişləndirilməsində fəal iştirak edir. Dövlət başçısı cənab İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq Xəzər Dəniz Gəmiçiliyinin maddi-texniki bazasının ildən-ilə möhkəmləndirilməsi, cəmiyyətin yeni-yeni müasir gəmilərlə, digər avadanlıqlarla təmin olunması, dənizçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlər görülür.

Mən Xəzər Dəniz Gəmiçiliyinin bütün kollektivini fəaliyyətlərinin 160 illiyi münasibəti ilə təbrik edir, işlərində yeni-yeni uğurlar, müvəffəqiyyət diləyir, hamıya, respublikamızın gələcək inkişafına öz layiqli töhfələrini verən insanlara möhkəm cansağlığı, vətənimizin iqtisadi qüdrətinin artması, innovasiyalı iqtisadiyyatın qurulması işində uğurlar arzu edirəm.

***Ziyad SƏMƏDZADƏ,***
***akademik, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti***

## Uğurlarınız davamlı olsun!

### Xəzər Dəniz Gəmiçiliyinin tarixi şanlı səhifələrlə zəngindir



***Hər bir önəmli hadisə keçilən yolu dəyərləndirib, qarşıdakı illərin gözləntiləri ilə bağlı xoş istəkləri açıqlamağı fəaliyyətimizin bir hissəsinə çevirib. Əbəs yerə deyilmir ki, dünənimiz bu günümüz, gələcəyimiz üçün açar, eyni zamanda, keçilən yolun bələdçisidir. Bu baxımdan 160 illik yol qət edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kollektivinin yubiley sevincinə qatılmaq, Azərbaycanın davamlı inkişafına qurumun verdiyi töhfələri bir vətəndaş, cəmiyyətin güzgüsü funksiyasını yerinə yetirən mətbuatın nümayəndəsi kimi dəyərləndirmək və xoş sözlərimi çatdırmaq istərdim.***

Sirr deyil ki, Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın tranzit ölkə kimi önəmi artır. Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji və nəqliyyat layihələrinin uğurlu icrası, yeni-yeni layihələrin gündəmə gətirilməsi bu önəmi daha da diqqətçəkən edir. Nəzərə alsaq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyət tarixi çox zəngindir, ölkəmizdə gəmiçiliyin inkişafı neft sənayesinin yaranması və tərəqqisi ilə sıx bağlıdır, bu fikri böyük fəxr hissi ilə qeyd edə bilərik ki, iqtisadiyyatımızın onurğa sütunu olan neft sənayesinin inkişafı bütün istiqamətlərdə, o cümlədən gəmiçilikdə davamlı uğurlara yol açıb. İki böyük donanmanın - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə yaradılan «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti (QSC) qarşıya qoyduğu iqtisadiyyatda köklü struktur islahatlarının davam etdirilməsi, dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi kimi məqsədlərə yüksək səviyyədə nail olmaq üçün təkmilləşməni, yeniləşməni fəaliyyətinin əsas istiqaməti kimi qəbul edib. Ulu öndər Heydər Əliyevin «Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O böyük işlər görür və gələcəkdə də görəcəkdir» fikri 160 illik yolun öncədən proqnozlaşdırılan və bugünkü reallıqlarda təsdiqini tapan ifadəsidir.

Azərbaycan dünya neft tarixində ilklərə imza atan ölkə kimi tanınır və nüfuz qazanıb. Bu reallığı böyük inamla bildiririk ki, dünya neftinin tarixi Azərbaycandan başlayır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilib. O vaxt – XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlində Azərbaycan dünya neft hasilatında da aparıcı yer tuturdu. XIX əsrdə Bakıda neft hasilatının sürətli artımı Xəzərdə gəmiçiliyin inkişafına təkan verib. Təbii ki, həmin dövrdə neft və neft məhsullarının daşınması üçün yeni üzən vasitələr tələb olunurdu. Tarixi mənbələrə müraciət etdikdə görürük ki, dünyada ilk neftdaşıyan “Aleksandr” barjı 1873-cü ildə məhz Xəzərdə istismar edilib. Dünyada ilk tanker – “Zərdüşt” də (1878-ci ildə inşa edilib) Xəzərdə səfərlər edib. İlk daxiliyanma mühərrikli “Vandal” (1903-cü il), ilk reversivli iki mühərriklə çalışan “Delo” (1908-ci il) gəmilərində üzmək də Xəzər dənizçilərinin qismətinə yazılıb. Bu ilklərin sayı artdıqca ölkəmizin mövqeyi də möhkəmlənmiş, bugünkü uğurlarımız üçün möhkəm baza yaranmışdır. Dənizlə daşınan yüklərin həcmində artım Xəzər dənizinin sahillərində limanların say tərkibinə də öz müsbət təsirini göstərmişdir. Yeni körpülər inşa edilir, donanmanın genişlənməsi gəmi təmiri bazasının yaradılmasını da zərurətə çevirir. Bu tələbə uyğun olaraq Gəmiçiliyin donanması ölkədə və xaricdə inşa edilmiş yeni tipli gəmilərlə zənginləşir. Dövrün tələblərinə uyğun olaraq təkmilləşmə, yeniləşmə hər bir sahənin ayrı-ayrılıqda inkişafına, kompleks şəkildə isə ölkəmizin hərtərəfli inkişafına xidmət edir.

Bu günümüzün əsas hədəflərindən biri Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli dövlətə çevirməkdir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin iki donanmanın birləşdirilərək yaradılmasında da əsas məqsədlərdən biri ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsidir. Ölkələr arasında dəniz nəqliyyatının əsas «sakinləri» olan gəmilər müxtəlif yükdaşımaları ilə fərqlənirlər. Bu fərqliliklər fonunda Xəzər dənizində irimiqyaslı neft və qaz layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin geniş profilli ixtisaslaşmış donanması böyük rol oynayır.

Azərbaycanın enerji sektorunda uğurları davamlıdır. Tarixə «Üç dəniz əfsanəsi» kimi daxil olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallığa çevrilməsi növbəti layihələrin gündəmə gətirilməsinə, dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, görülən işlərin zirvəsi olan «Cənub Qaz Dəhlizi»nin açılışına yol açdı. Artıq Azərbaycan regional əməkdaşlıqdan beynəlxalq əməkdaşlığa doğru addımlarını iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrlə təsdiqləyir. Ötən il «Yeni əsrin müqaviləsi»nə imza atılıb. İmzalanan sazişlər, gündəmə gətirilən hər bir layihənin uğurlu icrası təbii ki, bütün strukturların kompleks fəaliyyətini, o cümlədən gəmiçiliyin inkişafını bir tələb kimi ortaya qoyur. «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən donanmaları vahid bir orqanizmdə birləşdirilərək, qarşıya qoyulan vəzifələri yüksək səviyyədə və operativ yerinə yetirmək əzmindədir.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin rəhbərliyini, bütün kollektivini 160 illik yubiley münasibətilə ürəkdən təbrik edir, «uğurlarınız davamlı olsun» deyirəm!

***Vüqar RƏHİMZADƏ,***
***«İki sahil» qəzetinin Baş redaktoru, Əməkdar jurnalist***

## HƏR SƏFƏR BİR SINAQDIR...







160 TƏBRİKLƏR... TƏBRİKLƏR... TƏBRİKLƏR...

## Gəmiçilik daha böyük zirvələri fəth edəcək



Dənizçi peşəsi olduqca şərəfli və məsuliyyətlidir. Tarixin bütün dönəmlərində ölkəmizdə bu sahəyə böyük maraq olub. Məhz cəsur, fədakar dənizçilərimiz hesabına Azərbaycanda bu sahə daim inkişaf edib. Belə olmasaydı, biz Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyini qeyd edə bilməzdik.

Təbii ki, 160 il ərzində böyük uğurlarla yanaşı, çətinliklər də az olmayıb. Əsas odur ki, dənizçilərimiz çətinliklərin öhdəsindən hər zaman məharətlə gələ biliblər.

Bu gün ölkəmizdə böyük bir dənizçilik şirkəti - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC fəaliyyət göstərir. Tərkibində yüzlərlə gəmi olan AXDG təkcə yükdaşımalarda deyil, neft-qaz hasilatının inkişafında da mühüm rol oynayır. Sevindirici haldır ki, dövlət tərəfindən də bu sahəyə xüsusi diqqət və qayğı göstərilir. Donanmaların tərkibi yenilənir, dənizçilərimizin peşəkarlığının artırılması istiqamətində ciddi addımlar atılır. Bu isə o deməkdir ki, Gəmiçilik bundan sonra daha böyük zirvələri fəth edəcək, bu sahədə yeni uğurlara imza atılacaq.

Əziz dənizçilər, sizi 160 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, sizə cansağlığı, uğurlu səfərlər arzulayıram.

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin deputatı***

## Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzər dənizi regionunda ən vacib tərəfdaşlarımızdan biridir



Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Amerika Gəmiçilik Bürosu ("ABS") üçün Xəzər dənizi regionunda ən vacib tərəfdaşlardan biridir.

Gəmiçiliyin rəhbərliyi və əməkdaşlarını 160 illik yubiley münasibətilə ürəkdən təbrik edirəm. "ABS" Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bu tarixi salnaməsində rol oynamasından qürur duyur.

150 illik tarixə malik təsnifat cəmiyyəti olaraq Amerika Gəmiçilik Bürosu Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əldə etdiyi uğurların kifayət qədər böyük olduğunu anlayır. Və əminik ki, bu nailiyyətlər davamlı olacaq və Azərbaycan dənizçiləri gələcəkdə daha böyük uğurlara imza atacaqlar.

***Seyfəttin TATLI,***
***Amerika Gəmiçilik Bürosunun Türkiyə, Azərbaycan və Xəzər dənizi regionu üzrə direktoru***

## Uğur həmişə yol yoldaşınız olsun!



Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin kollektivini 160 illik yubiley münasibəti ilə təbrik edirəm.

Nəqliyyat və ofşor gəmiləri də daxil olmaqla 265 dəniz gəmisi, akademiya, gəmi təmiri və tikintisi zavodları və ən əsası, 9000 min nəfərdən ibarət böyük peşəkarlar kollektivi bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyini dünyanın ən aparıcı gəmiçilik şirkətlərindən birinə çevirən zəruri amil və Gəmiçiliyin bünövrəsidir.

Bu gün AXDG Çin və Avropa bazarlarını birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun zəruri həlqəsidir.

Bu gün AXDG Xəzər dənizində neft-qaz hasilatı, eləcə də dəniz özüllərinin, estakadaların inşası, geoloji-kəşfiyyat, neft-qaz kəmərlərinin çəkilişi, istismar və təmiri proseslərinin gəmilər tərəfindən təchizatı, o cümlədən neft obyektlərində yanğın təhlükəsizliyinin təmin edilməsi, neftçilərin iş yerlərinə çatdırılması kimi məsuliyyətli əməliyyatlar deməkdir.

Bu gün AXDG Xəzərdə yükdaşımada öncül mövqeyə malik, eyni zamanda Aralıq, Qara və Azov dənizlərində aktiv fəaliyyət göstərən nəhəng dəniz gəmiçiliyidir.

Bu gün AXDG-nin gəmiləri yalnız Azneft platformalarında deyil, həm də BP, Lukoil və digər neft şirkətləri ilə bağlanmış kontraktlar əsasında neft hasilatına cəlb olunmuşdur.

Bu gün AXDG deyəndə donanmaları müntəzəm, o cümlədən Azərbaycan tərsanələrində ən müasir gəmilərin inşası yolu ilə zənginləşdirən şirkət başa düşülür...

Biz Azərbaycan Xəzər Dəniz Gəmiçiliyindəki həmkarlarımızla birgə fəaliyyətimizdən çox şadıq. RST27 layihəli tankerlər və 005RSD03 layihəli quru yük gəmiləri, CNF18C layihəli "Avtomobil-dəmiryolu-sərnişin" tipli bərələr, RST12C layihəli kimyəvi maddələr daşıyan tankerlər, WSB01 layihəli işçi və digər gəmilər birgə fəaliyyətimizin bəhrəsidir. Sevinir və qürur hissi duyuruq ki, ən müasir layihələrlə Azərbaycanın aparıcı gəmiçilik şirkətinin qarşısında duran mürəkkəb və mühüm məsələləri həll etməyə biz də öz töhfəmizi veririk.

Uğur həmişə yol yoldaşınız olsun, əziz dənizçilər!

***Gennadi YEQOROV,***
***Xəzər Dəniz Mühəndisliyi Bürosunun Baş direktoru, texnika elmləri doktoru, professor***

## İnanıram ki, çoxsaylı müştərək layihələrə imza atacağıq



*Hörmətli Rauf müəllim!*

Sizi və Sizin timsalınızda parlaq tarixə malik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bütün kollektivini 160 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Xəzərdə gəmiçilik qədim zamanlardan mövcud olsa da, sürətli inkişafı məhz XIX əsrin sonuna təsadüf edir. Həmin dövrdə təsis edilmiş "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyəti gəmiçilik şirkəti olaraq Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sələfi sayılır. Gəmiçiliyin tarix salnaməsinə fədakar əməkləri ilə inkişafına əvəzsiz töhfələr vermiş yüzlərlə şəxsiyyətin adı yazılmışdır. Müstəqilliyimizin təşəkkül tapdığı çətin illərdə Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Gəmiçiliyi qoruyub saxlamaq və inkişaf etdirmək mümkün olmuşdur. Belə ki, Gəmiçilik Beynəlxalq Dəniz Təşkilatının üzvü qəbul edilmiş, Dəniz Akademiyası yaradılmış, donanma yeni gəmilərlə zənginləşmiş, yükdaşımaların həcmi artmışdır. Donanmasının tərkibinə və göstərdiyi xidmətlərin müxtəlifliyinə görə dünyanın seçilən gəmiçiliklərindən biri hesab edilən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycanı regionda müasir nəqliyyat-logistika qovşağına çevirmək və ölkənin bu sahədə rəqabət qabiliyyətini, tranzit potensialını gücləndirmək sahəsində uğurla irəliləməkdədir.

Fəxrlə bildirirəm ki, "Caspian Marine Services Limited" şirkəti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə artıq 5 ildən çoxdur ki, uğurlu əməkdaşlıq edir. Bundan öncə isə şirkətimiz AXDG-nin tərkib hissəsi olan Xəzər Dəniz Neft Donanması ilə 2006-cı ildən etibarən strateji əməkdaşlıq qurmuş və tərəflər arasında imzalanmış Alyans müqaviləsi çərçivəsində şirkətlərimiz regionun ən nəhəng neft-qaz layihələrindən olan Azəri, Çıraq, Günəşli və Şahdəniz layihələrində uğurla iştirak etmişdir. Eyni zamanda Azərbaycan Dövlət Dəniz Akademiyasının çoxsaylı tələbələrinin şirkətimizin gəmilərində təcrübə keçmələrinə şərait yaradılmış, akademiyanın bir çox məzunu şirkətimizdə işlə təmin olunmuşdur.

İnanıram ki, vətənimizin çiçəklənməsi naminə əməkdaşlığımız gələcəkdə daha da möhkəmlənəcək, şirkətlərimiz çoxsaylı müştərək layihələrə imza atacaqlar.

Sizə çətin, məsuliyyətli, lakin olduqca şərəfli fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

***Zamiq İSMAYILOV,***
***"Caspian Marine Services Limited" şirkətinin direktoru***

# "UNUTSAQ, UNUDULARIQ"

## ƏZİZ OXUCULAR!

*160 illiyini qeyd edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixin bütün sınaqlarından uğurla çıxmasının, müxtəlif dövrlərin sarsıntılarına sinə gərməsinin sirrini ilk növbədə taleyini dənizsiz, Gəmiçiliksiz təsəvvür etməyən dənizçilərimizin fədakarlığında və sədaqətində axtarmaq lazımdır. Biz Gəmiçiliyin inkişafı üçün öz bilik və bacarıqlarını, qüvvə və səriştələrini əsirgəməyənlərlə təkcə qürur duymuruq. Düşünürük ki, onları unutmağa mənəvi haqqımız yoxdur!*

*Qəzetimizin bu sayında "Unutsaq, unudularıq" rubrikası altında diqqətinizə təqdim etdiyimiz yazılarda belə Şəxsiyyətlərin bəziləri barədə müəyyən məlumatlar ala bilərsiniz.*



## Hər diplomlu kapitan Hacı Vahab olmaz

***Hacı Vahab Əliqulu oğlu 1855-ci ildə Bakıda – İçərişəhərdə anadan olub. Artıq dörd yüz il davam edən böyük dənizçilər sülaləsinin bünövrəsini qoymuş ulu babası Hacı Zeynalabdin kimi gəmi kapitanı olub. Dənizçilik peşəsinin sirlərinə çox erkən, hələ uşaq yaşlarından yiyələnməyə başlayıb. Tezliklə Xəzərdə ən təcrübəli kapitan kimi ad çıxarıb. Təhsil almasa da, o dövrün bir çox gəmi sürücülərindən fərqli olaraq Hacı Vahab diplomlu kapitan olub.***

Oxuyub-yazmağı belə bacarmayan Hacı Vahabın diplom almasının maraqlı tarixçəsi var.

1909-cu ildə Xəzər hərbi donanmasına məxsus "Araks" gəmisi saya oturur. Gəminin ağır gövdəsi yarıyadək torpağa batır. Ən güclü yedək gəmiləri, bir həftə çalışsalar da "Araks"ı heç yerindən tərpədə bilmirlər. Çarəsiz qalan komandan adı dillərdə gəzən mahir kapitanı İçərişəhərdən yanına çağıtdırır. Hacı Vahab öz "Nobel" yedək gəmisində körpüyə yan alanda, gəmini görənlərin hamısı problemin həll ediləcəyinə şübhə yanaşır. Lakin çıxış yolu olmayan komandan gəminin saydan çıxarılması əməliyyatının Hacı Vahaba həvalə edilməsi haqqında əmr imzalayır. Və Hacı Vahab diplomlu kapitanların bir həftə müddətində yerindən tərpədə bilmədikləri "Araks"ı on iki saata saydan çıxarır.

Elə həmin gün admiral Hacı Vahabı yanına çağırıb heyranlığını gizlətmədən, ona mükafat olaraq yüz çervon qızıl təqdim edir. Lakin Hacı Vahab qızılları götürmür, deyir ki, dənizçi diplomunu heç min çevrona dəyişməz. Kapitanın özünəinamı və təmkini admiralın xoşuna gəlir, onunla daha yarım saat söhbət edəndən sonra ətrafındakılara qətiyyətlə söyləyir: "Onun diplomu olacaq!"

Admiralın dənizçilik təcrübəsinə və səriştəsinə heyran qaldığı Hacı Vahaba iki ildən sonra Sankt-Peterburqdan göndərilmiş dənizçilik diplomunu təqdim edirlər. Diplomun əsli Milli Azərbaycan Tarix Muzeyində saxlanılır.

Hacı Vahab 1916-cı ildə dünyasını dəyişib. Ruhu yaqin ki, şaddır. Çünki sülaləsindən olan 25 kapitan və onlarca mexanik bu gün də babalarının yolunu ləyaqətlə davam etdirirlər.

**"DƏNİZ"**

## Hacı Zeynalabdin Tağıyev: "Xahiş edirəm bu gənci yadınızda saxlayın, siz onun haqqında çox eşidəcəksiniz"

***Məhərrəm Süleyman oğlu İsmayılov 1878-ci ildə Bakıda - İçərişəhərdə anadan olub. Bakı dənizçilik siniflərinin ilk azərbaycanlı məzunu - dənizçilər sülaləsindən olan Süleyman İsmayıl oğlunun ikinci oğul övladıdır.***

Dənizçilər nəslinin yetirməsi olan bütün oğullar kimi, o da erkən yaşlarından atası ilə birlikdə yelkənli gəmilərdə dəniz səfərlərinə çıxıb, peşənin incəliklərinə mükəmməl yiyələnib.

Atası oğlunun qabiliyyətini və dənizçilik peşəsinə həddsiz marağını görüb, onu təhsil almaq üçün Peterburqa göndərir. İmperator Birinci Aleksandrın adını daşıyan, quru və dəniz yolları üçün mühəndislər hazırlayan institutun kiçik kurslarında 5 il təhsil alan Məhərrəm sözügedən təhsil ocağını əla qiymətlərlə başa vuraraq, "gəmi sürücüsü" ixtisası üzrə diplom alır.

Bakıya qayıdan gənc Məhərrəm milyonçu Yusif Dadaşova məxsus yelkənli gəmilərin birində kapitan köməkçisi işləyir. Biliyi, bacarığı və çalışqanlığı ilə seçilən kapitan köməkçisi yenidən oxumaq üçün Peterburqa getmək istədikdə, onun arzusu nəzərə alınır. Bu dəfə Məhərrəm İsmayılov imperiyanın paytaxtına uzaq səfərlər kapitanı olmaq məqsədi ilə yola düşür. Və…



Dövlət imtahanlarından əvvəl müdavimlərdən ibarət heyətlə yelkənli gəmi Peterburqdan Avstraliyaya səfərə çıxır. Gəmi yolda – 10-cu paraleldə güclü tufana düşür. Gəminin kapitanı Paxolonq 18 müdavimə yelkənlərdən 10-15-ni yığmağı əmr edir. Müdavimlər bosmanın göstərdiyi dor ağaclarına çıxıb, yelkənləri yığırlar. Məhərrəm Süleyman oğlu da onların arasında olur. Öz yelkənlərini təzə yığıb qurtarır ki, birdən qışqırıq eşidilir: "Suya düşən var!". Bu hadisə okeanda dan yeri təzəcə sökülən zaman baş verir. Gənc Məhərrəm dərhal göyərtəyə düşür. Vaxt itirmədən belinə kəndir bağlayır və bir ucunu da borta bənd edib suya tullanır ...

Üç aydan sonra gəmi Peterburq limanında dayanır. 2 gün əvvəl müdavimlərin dövlət imtahanlarından azad olması barədə əmr gəlsə də, heyəti sahilə buraxmırlar.

Günortadan sonra gəminin salonunda kapitan səfərin uğurlu alınması və vaxtından 10 gün tez bitməsi münasibətilə müdavimləri təbrik edir. Daha sonra müdavim yoldaşını dalğaların caynağından alan Məhərrəm Süleyman oğlunu qəhrəman adlandırır və dərslərindən də həmişə yüksək qiymətlər aldığını bildirir. Şücaətinə görə ona mükafat olaraq Peterburq qusar zabitlərinə forma tikən dərzi sexində pulsuz kapitan libası tikdirmək üçün qəbz və göy rəngli atlas vərəqdə adına yazılmış tərifnamə təqdim edir.

Bakıya qayıdan Məhərrəmi bir ay sonra Yusif ağa Dadaşov məşhur milyonçu Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə onun malikanəsinə aparır.

Həmin gecə Hacı xarici ölkələrdə və Rusiyada təhsilini başa vuran gənclər üçün ziyafət təşkil edir. Məhərrəmi isə ziyafətin təyin olunduğu vaxtdan yarım saat tez çağırır və onunla söhbətləşir. Ziyafət zamanı gənclərə Məhərrəmi göstərib deyir: "Xahiş edirəm bu gənci yadınızda saxlayın, siz onun haqqında çox eşidəcəksiniz". Hacı Zeynalabdin bu yüksək mənəviyyatlı gənc kapitanın onu Peterburqda saxlamaq istəsələr belə, Vətənə qayıdıb öz millətinə xidmət etmək, milli kadrlar hazırlamaq əzmini yüksək dəyərləndirir.

1918-1920-ci illərdə müstəqil Azərbaycanın üçrəngli bayrağı altında üzmək Məhərrəm Süleyman oğlunun nəsibinə yazılır. Kapitan cani-dildən ölkəsinin tərəqqisi üçün çalışır, gənc kadrları hazırlayaraq onların kapitan kimi fəaliyyət göstərmələrinə nail olur...

Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə Məhərrəmə qarşı haqsızlıqlar olsa da, təcrübəli kadrların çatışmazlığı onu işdən uzaqlaşdırmağa imkan vermir. Məhərrəm Süleyman oğlunun gəmisi, hətta dənizin təlatümlü vaxtlarında səfərə çıxır. Böyük nüfuz sahibi olan kapitan bacarıqla heyəti tapşırıqların yerinə yetirilməsinə səfərbər edir, yeni-yeni rekordlara imza atır. Odur ki, dənizçilər nəslinin görkəmli nümayəndəsi haqlı olaraq işi, insani keyfiyyətləri və əməlləri ilə sayılıb-seçilir və nəinki Xəzərdə, bütün keçmiş Sovet İttifaqı məkanında tanınır.

Böyük Vətən müharibəsi illərində Xəzər dənizçilərinin fədakar əməyi yüksək dəyərləndirilir. Təkcə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 4 iyun tarixli əmri ilə 498 nəfər müxtəlif orden və medallarla təltif edilir ki, onların sırasında Məhərrəm Süleyman oğlu da olur.

Dinc quruculuq illərində də kapitan M. İsmayılov eyni əzm və səylə çalışır və ən başlıcası öz məramına çatır – onlarca milli kadr hazırlayır.

Adlı-sanlı kapitan Məhərrəm Süleyman oğlunun fəaliyyəti yüksək qiymətləndirilib – iki dəfə Lenin ordeninə, "Qırmızı Əmək Bayrağı" ordeninə, iki medala layiq görülüb və "Dəniz Donanmasının fəxri işçisi" olub.

Məhərrəm Süleyman oğlu İsmayılov 1952-ci il mayın 20-də 74 yaşında dünyasını dəyişib.

Böyük hörmət sahibi olan Məhərrəm Süleyman oğlunun adı ölümündən sonra əbədiləşdirilib - Finlandiyada istehsal edilmiş buzqıran yedək gəmisinə onun adı verilib.

**Sevda ABDULLAYEVA,**
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İctimaiyyətlə əlaqələr departamentinin mütəxəssisi*



## Bakı dənizçilik sinfinin ilk azərbaycanlı məzunu

***XIX əsrin sonunda Bakıda neftin sənaye üsulu ilə hasilatı artıb və bu iqtisadi amil Xəzərdə gəmiçiliyin sürətli inkişafına təkan verib. Qısa vaxt ərzində Bakıda böyük dəniz nəqliyyatı təsərrüfatı yaranıb. Xəzərdə mayedaşıyan gəmilər artdıqca, dənizçi kadrlara tələbat da çoxalıb.***

Yaranan tələbatı ödəmək məqsədi ilə 1881-ci ildə Bakıda dənizçilik sinifləri təşkil edilib. Burada əsasən iş təcrübəsi olan dənizçilər təhsil alıblar. Siniflər donanma üçün hər il 25-30 şturman (gəmi sürücüsü) və 15-17 şkiper (kapitan) hazırlayıb. Təhsil rus dilində olduğundan, siniflərdə azərbaycanlılar azlıq təşkil edib. 1881-ci ildən 1902-ci ilədək bu təhsil ocağını 945 mütəxəssis bitirib. Onlardan 136 nəfər milliyyətcə azərbaycanlı olub.

İçərişəhərli Süleyman İsmayıl oğlu 1883-cü ildə sözügedən sinifləri bitirmiş ilk azərbaycanlı məzun olub. Gəmi sürücüsü ixtisası üzrə diplom almış Süleyman İsmayıl oğlunun özü İsmayılovlar (İzmayılovlar) - Süleymanovlar dənizçilər sülaləsinin təməlini qoyub. Həmin sülalənin nümayəndələri bu gün də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində ləyaqətlə çalışırlar.

**"DƏNİZ"**

## “UNUTSAQ, UNUDULARIQ”

# TƏKCƏ “ƏMƏK QƏHRƏMANI” OLMAYAN KAPİTAN

***Əlibala Ələkbər oğlu Rəcəbov 1879-cu il martın 22-də Bakıda dənizçi ailəsində anadan olub.***

Erkən yaşlarında anasını, on bir yaşında isə atasını itirən Əlibalanı “Abbasiyə” gəmisində bosman işləyən böyük qardaşı Məlik himayəsinə götürüb. O dövrün bütün dənizçi ailələrində olduğu kimi, Əlibalanı elə uşaq ikən sahibkar Üseynovun gəmilərinin birində yunqalığa verib. On altı yaşı tamam olanda Əlibala matros kimi çalışmağa başlayıb və mahir gəmi sürücüsü ola biləcəyinə də elə həmin illərdə inam yaranıb. Belə ki, gəminin sürücüsü zirək, dərrakəli və işgüzar yeniyetməyə peşəsinin sirlərini həvəslə öyrədib. Əlibala sonralar başqa gəmilərdə matros işləyəndə də, hər gəmi sürücüsündən nə isə öyrənib. İnadkar gəncin səyləri hədər getməyib, ona matros olmaqla bərabər, həm də sükançı qismində çalışmağa imkan veriblər. Əlibala da ciddi-cəhdlə diplomlu gəmi sürücüsü olmaq arzusu ilə imtahana hazırlaşıb və nəhayət, 1904-cü ildə istəyinə nail olub. O, Bakı dəniz yolları məktəbində imtahandan müvəffəqiyyətlə keçərək “Uzaq səfərlər üzrə gəmi sürücüsü” diplomuna layiq görülüb. Həmin tarixdən etibarən Əlibala Ələkbər oğlu fərdi gəmi sahibkarlarının gəmilərində kapitan işləyib və tezliklə bacarıqlı mütəxəssis kimi tanınıb. 1922-ci ildən Xəzər Dəniz Gəmiçiliyində çalışıb.



1923-cü ildə Xəzərdə donanmanın və sahil təsərrüfatının bərpası və təkmilləşdirilməsi üçün genişmiqyaslı işlər görülür. 1927-1935-ci illərdə “Krasnoye Sormovo” Gəmiqayırma Zavodunda Xəzər Dəniz Gəmiçiliyi üçün 11 tanker inşa edilir. Hər birinin yükqaldırma qabiliyyəti 9500 ton olan bu tankerlər o zaman Xəzərdə istismar olunan bütün donanmanın yükqaldırma qabiliyyətinin 50%-ni təşkil edirdi. Belə gəmilər yalnız təcrübəli, qəzasız üzən kapitanlara həvalə olunurdu. 1930-cu ildə Bakıya gətirilən dördüncü tanker - “Ağamalı oğlu” kapitan Əlibala Rəcəbovun sərəncamına verilir.

Ə. Rəcəbov fasiləsiz on iki il bu gəmidə kapitan işləyir. Onun təklif etdiyi yenilik - tankerin dörd boru vasitəsilə doldurulması da məhz “Ağamalı oğlu” gəmisində tətbiq edilir. Bu üsul tankerləri sürətlə yükləyib səfərlərin sayını artırmağa imkan verir. Bundan başqa, Əlibala Rəcəbov 1932-ci ildə tankerlərin yükgötürmə qabiliyyətinin artırılmasını dəstəkləyən ilk kapitanlar sırasında olur və bunun məqsədəuyğunluğunu praktiki surətdə sübut edir. Kapitan həm də 1940-cı ildə artıq bu məsələ üzərində işləyən gəmiqayırma mühəndislərinə yaxından kömək edir.

Tankerin davamlılıq həddini hesablamaq üçün mütəxəssislərə Xəzərdəki dalğaların qabaritləri haqqında məlumatlar lazım olur. Mövcud texniki ədəbiyyatda göstəricilər bir-birindən fərqlənir. Hövzədə isə o zaman dalğaların sistemli şəkildə instrumental ölçüsü aparılmır. Kömək üçün mühəndislər təcrübəli kapitana müraciət edirlər. Ə. Rəcəbov uzun illər ərzində Xəzərdə apardığı müşahidələrin nəticələrini səliqə ilə dəftərçəsinə qeyd etdiyindən, məhz həmin göstəricilər dalğaların qabaritini hesablamaq üçün yeni metodun əsasını qoyur.

Böyük Vətən müharibəsi illərində “Ağamalı oğlu”nun heyəti iradəli komandir Ə. Rəcəbovun rəhbərliyi ilə ən çətin tapşırıqların öhdəsindən şərəflə gəlir. 1943-cü ildə Həştərxana 10000 ton benzin gətirmiş tanker alman faşistlərinin aviazərbələrinə məruz qalır. Reyddə yükünü ikinci barja dolduran tanker boşaltma əməliyyatını saxlayaraq manevr etməyə başlayır. Kapitanın tez və dürüst əmrləri tankeri bacardıqca qırıcıların hədəfindən yayındırır. Lakin həmin hava hücumunda kapitan ciddi yaralanır və kontuziya alır. Bununla belə, Ə. Rəcəbov kapitan körpüsündə qalıb gəminin qorunması üçün qüvvələri səfərbər edir. Tamam haldan düşəndə isə, onu yüngül yaralanmış köməkçisi əvəz edir...

Xəstəxanadan çıxandan sonra kapitan Ə. Rəcəbovun sərəncamına donanmanın flaqman tankeri verilir. Qocaman kapitan 1947-ci ilədək həmin tankeri idarə edir. Lakin müharibədə aldığı yaralar özünü biruzə verir və Ə.Rəcəbov uzun sürən xəstəlikdən sonra öz xahişi ilə işləməyə təmir gəmilərinə keçir və öz peşəsinin incəliklərini gənclərə öyrətməkdə davam edir.

Təvazökar, zəhmətkeş və özünə qarşı həddən artıq tələbkar olan kapitan Ə.Rəcəbovun xidmətləri yüksək qiymətləndirilib. 1936-cı ildən Əmək Qəhrəmanı olan Ə. Rəcəbov iki dəfə Lenin ordeni, “Qırmızı Əmək Bayrağı” və “Şərəf nişanı” ordenləri, “Qafqazın müdafiəsinə görə” və “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” medalları ilə təltif edilib. “Dəniz Donanmasının fəxri işçisi” adına, SSRİ Dəniz Donanması Nazirliyinin və SSRİ Ali Sovetinin fəxri fərmanlarına layiq görülüb. 1944-cü ildən fərdi təqaüdçü olub.

Görkəmli kapitan, iradəli komandir, sadə, həssas və qayğıkeş insan Əlibala Ələkbər oğlu Rəcəbov 1953-cü il yanvarın 14-də 74 yaşında haqq dünyasına qovuşub.

***“DƏNİZ”***

# Həmişə əzmkarlığı və işə vicdanlı münasibəti ilə seçilib

***Mirzağa Ağaverdi oğlu Xanməmmədov 1902-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Atası daxili yanacaqla işləyən motor üzrə maşinist, anası evdar qadın olub. Mirzağa on iki yaşında anasını, on altı yaşında atasını itirib.***

Əmək fəaliyyətinə on üç yaşında başlayan Mirzağa dəyirmanda, daha sonra neft mədənlərində yağlayıcı fəhlə işləyib. 1920-ci ilin iyun ayında Zaqafqaziya dəmir yolunun Bakı emalatxanasında çilingərliyə başlayıb və əməksevərliyi ilə seçilib. Yaxşı istehsalatçı, fəal ictimaiyyətçi olan Mirzağanı kommunist partiyası sıralarına qəbul ediblər. 1922-ci ildə isə onu oxumaq üçün partiya məktəbinə göndəriblər. 1924-cü ildə Mirzağa Xanməmmədov partiya səfərbərliyi üzrə Sovet Ordusu sıralarında xidmətə başlayıb və 1938-ci ilədək hissə komandiri vəzifəsinədək yüksəlib.

Mirzağa Ağaverdi oğlu 1938-ci ildə ordusu sıralarından tərxis edildikdən sonra rəhbər partiya və təsərrüfat işində çalışıb. O, Azərbaycan SSR Ali Sovetində, Azərbaycan KP MK və BK aparatında, Azərbaycan KP-nin Vilayət Komitəsində müxtəlif vəzifələrdə çalışıb. Harada işləməsindən asılı olmayaraq, həmişə əzmkarlığı və işə vicdanlı münasibəti ilə seçilib. Böyük Vətən müharibəsi başlayanda M. Xanməmmədov Xəzərdə quru yük gəmiçiliyinin - “Xəzərdonanma”nın siyasi şöbəsinə rəis təyin edilib.



O illərdə ölkənin sənaye və nəqliyyatının iş ahəngini müharibə şəraitinə uyğunlaşdırmaq tələb olunurdu. Daşınan yüklərin tərkibi kəskin surətdə dəyişmişdi. Təsərrüfat yüklərini hərbi sursat və texnika əvəzləmişdi. Silahlı hərbi hissələr və təxliyyə olunmuş əhali üçün də gəmilər tələb olunurdu. Donanmanın işini operativ surətdə yenidən qurmaq lazım gəlirdi. Formalaşmış yükaxınlarına müvafiq olaraq Xəzərdə istiqamətlər müəyyənləşirdi: Orta Asiyadan qərbə Krasnovodskdan (indiki Türkmənbaşı) keçməklə hərbi hissələr, Bakıdan, Həştərxan və Mahaçqaladan isə Krasnovodska təxliyə olunmuş əhali, buğda və müharibə zonasından çıxarılmış avadanlıq və dəzgahlar, maddi sərvətlər daşınırdı.

1941-ci ilin oktyabrında cəbhədə vəziyyətin ağırlaşması Xəzər dənizini Şimali Qafqazla Zaqafqaziyanı Orta Asiyaya birləşdirən əsas magistrala çevirir və yükdaşımaların həcmi dəfələrlə artır. Əgər 1941-ci ilin avqustunadək Xəzər donanması sərəncamında olan gəmilərlə yük daşımaların öhdəsindən gəlirdisə, artıq avqustun ortalarında kəskin tonnaj çatışmazlığı hiss olunurdu. Bakı və Mahaçqala limanlarında sərnişinlər və təxliyə olunmuş yüklər yığılırdı. Ağır vəziyyətdən çıxmaq üçün SSRİ Dəniz Donanmasının Xalq Komissarlığı hövzədə iki gəmiçiliyi – “Xəzərdonanma” ilə “Xəzərtanker”i vahid rəhbərlikdən idarə etmək barədə 28.10.1941-ci il tarixli əmr verir. Gəmiçiliklərə rəhbərlik bu vəzifə ilə bərabər, SSRİ Dəniz Donanması Xalq Komissarının müavini vəzifəsini yerinə yetirən F. A. Matyuşevə tapşırılır. Gəmiçiliklərin siyasi şöbələri də birləşdirilir və rəis vəzifəsinə öz işi ilə fərqlənən M. Xanməmmədov təyin edilir.

Mirzağa Xanməmmədovu həmin dövrdə həmişə tankerlərdə görmək olurdu. O, gəmi heyətləri ilə görüşür, onları ruhlandırır, cəbhə üçün yanacağın əhəmiyyətini onlara başa salırdı.

Məsul vəzifəsinin öhdəsindən bacarıqla gələn M. Xanməmmədov 1942-ci ildə “Şərəf nişanı” ordeni, 1944-cü ildə “Qırmızı Əmək Bayrağı” ordeni və “Qafqazın müdafiəsinə görə” medalı, 1945-ci ildə “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə” və “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə” medalları ilə təltif edilib.

Müharibədən sonra “Xəzərdonanma”da fəaliyyətini davam edən Mirzağa Ağaverdi oğlunu 1952-ci ildə SSRİ Dəniz Donanması Akademiyasına oxumağa göndərirlər. Akademiyanı bitirdikdən sonra o, 1954-cü ilin oktyabrında Xəzər Dövlət Dəniz Gəmiçiliyinin rəisi təyin olunur. 1956-cı ildə Gəmiçilik yenidən təşkil edilir və gəmi təmiri zavodları da onun tabeliyinə verilir. M. Xanməmmədov həmin tarixdən 1965-ci ilin may ayınadək gəmiçiliyin rəis müavini işləyir.

“Dəniz Donanmasının fəxri işçisi” dəfələrlə Bakı şəhər zəhmətkeşləri Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib. 1965-ci ildən İttifaq əhəmiyyətli fərdi təqaüdçü olan Mirzağa Ağaverdi oğlu Xanməmmədov 1983-cü ildə haqq dünyasına qovuşub.

***Sevda ABDULLAYEVA***

# "UNUTSAQ, UNUDULARIQ"

## ƏFSANƏVİ ŞƏXSİYYƏT

***Mahmud Cəfərqulu oğlu Rəhimov 1905-ci ildə Bakı şəhərində anadan olub. Əmək fəaliyyətinə 1920-ci ildə Bakı şəhərində Su nəqliyyatının ərzaq şöbəsində agent işləməklə başlayaraq Gəmiçiliyin rəisi vəzifəsinə kimi yüksəlib.***

1931-ci ildə əməkdə fərqlənmiş işçilər sırasında Leninqrad (Sankt-Peterburq) şəhərindəki Su Nəqliyyatı Mühəndisləri İnstitutuna orta komandir heyəti kurslarına göndərilib.

Bakıya, Xəzər Dəniz Gəmiçiliyinə qayıtdıqdan sonra dispetçer, baş dispetçer, istismar şöbəsinin rəis müavini, "Xəzərtanker" Gəmiçiliyinin rəis müavini vəzifələrində çalışıb.

Mahmud Rəhimovun parlaq təşkilatçılıq qabiliyyəti 1942-1952-ci illərdə "Xəzərtanker" Gəmiçiliyinin rəisi vəzifəsində çalışarkən özünü xüsusilə biruzə verib. Onun bilavasitə rəhbərliyi ilə Böyük Vətən müharibəsi illərində cəbhəni fasiləsiz neft məhsulları ilə təmin etmək kimi ağır və məsuliyyətli iş uğurla görülüb. Müharibə illərindəki fədakar əməyinə və böyük uğurlarına görə M.Rəhimovun rəhbərliyi ilə "Xəzərtanker"in kollektivi SSRİ Müdafiə Komitəsinin Qırmızı Bayrağı ilə (əbədi saxlanılmaqla) təltif edilib.

1952-1956-cı illərdə Mahmud Rəhimov Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini işləyib. 1956-cı ildə Xəzər Dəniz Gəmiçiliyinin rəisi təyin olunub.

Gəmiçiliyin rəisi kimi M.Rəhimov donanmanın, xüsusilə onun özəyini təşkil edən tanker donanmasının bərpasına, yeniləşdirilməsinə və inkişafına ciddi fikir verib. Xəzərdə Bakı ilə Krasnovodsk (Türkmənbaşı) limanları arasında gəmi-bərə keçidinin inşasının təşəbbüskarlardan və onu reallaşdıranlardan biri olub. Mükəmməl nəqliyyat – dəmir yolu – bərə sisteminin yaradılmasında misilsiz xidmət göstərib. Keçən əsrin 60-cı illərində M.Rəhimovun sayəsində donanmanın suya az oturan "Mühəndis Pustoşkin" tipli tanker və "Mühəndis Belov" tipli quru yük daşıyan gəmilərin Qara və Aralıq dənizlərində istismarına icazə verilir. Bu, Xəzər Gəmiçiliyinin dənizçilərinə beynəlxalq sulara çıxaraq təcrübələrini dünya standartlarına uyğun zənginləşdirmək imkanı yaradır. Bakı limanında qeydiyyata alınmış gəmilər dünyanın 100-dən artıq limanına daxil olur.





Mahmud Rəhimov donanmanın və Gəmiçiliyin sahil strukturlarının inkişafı ilə bağlı məsələlərdən başqa, habelə donanmanın idarə edilməsi metod və üsullarının təkmilləşdirilməsi, dənizçilərin sosial problemlərinin həlli, xüsusilə də yaşayış binalarının tikintisi ilə gündəlik məşğul olurdu. Məhz onun dövründə dənizçilər, liman işçiləri, gəmi təmirçiləri, bir sözlə Gəmiçiliyin bütün struktur bölmələrində çalışanlar üçün mənzil tikintisinə başlanılıb. 553-cü, 555-ci, 557-ci və sairə yaşayış məhəllələri salınıb. 600 min kv.metrdən artıq yaşayış sahəsi, uşaq bağçaları, mədəni-məişət obyektləri və pansionatlar tikilib.

M.Rəhimov 1965-ci ildə dəniz nəqliyyatının inkişaf etdirilməsinə kömək məqsədi ilə Birləşmiş Ərəb Əmirliklərinə göndərilib, burada SSRİ Dəniz Donanması Nazirliyinin səlahiyyətli nümayəndəsi kimi çalışıb. 1966-cı ildə Xəzər Dəniz Gəmiçiliyinin İrandakı Baş dəniz agentliyinə rəis təyin edilib.

Mahmud Rəhimov çalışdığı bütün sahələrdə işə vicdanlı münasibəti ilə seçilib. Onun təvazökarlığı, qəlb açıqlığı, yaranan problemlərin həllində israrlı olması, kadrlara tələbkarlığı ilə bərabər, onlara qayğı ilə yanaşması – Vətən qarşısında borcu yerinə yetirməyin ən parlaq nümunəsi idi.

Mahmud Rəhimovun əmək fəaliyyəti çox yüksək – dörd dəfə Lenin ordeni (keçmiş SSRİ dövründə bu, çox nadir hadisə idi), "Qırmızı Əmək Bayrağı" ordeni və bir çox medallarla qiymətləndirilib.

1989-cu ildə dünyasını dəyişsə də nurlu şəxsiyyət Mahmud Cəfərqulu oğlu Rəhimovun xatirəsi Xəzər dənizçilərinin qəlbində yaşayır və həmişə də yaşayacaqdır.

## İlk baxışdan sərt adam təsiri bağışlasa da...



***Ağaisa Cabbar oğlu Mustafayev 1905-ci il sentyabrın 28-də Bakı şəhərində anadan olub.***

1922-1931-ci illərdə Xəzər hərbi dəniz donanmasında xidmət edib. 1931-ci ildən taleyini Bakı dənizçilik məktəbi ilə bağlayıb. Müəllim, hərbi hazırlıq rəhbəri, hərbi hazırlıq işləri üzrə rəis müavini, məktəbin rəisi işləyib. Təhsil ocağında çalışdığı otuz yeddi ildə yüksəkixtisaslı kadrların hazırlanması üçün əlindən gələni əsirgəməyib. Müdavimlərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün böyük zəhmət çəkib. A. Mustafayev dənizçilər üçün intizamı vacib şərt sayaraq, məktəbdə nizam-intizama ciddi fikir verib. Tələbkarlığı ilə seçilən Ağaisa müəllim ilk baxışdan sərt adam təsiri bağışlasa da, hədsiz dərəcədə mehriban və həssas qəlbli insan olub, müdavimlərə həqiqi mənada ata kimi qayğıkeşlik göstərib. Çoxsaylı yetişdirmələrinin sorağı demək olar ki, vaxtilə Sovet İttifaqında fəaliyyət göstərən bütün gəmiçiliklərdən gəlib.

Ağaisa Mustafayev mədəni, savadlı, nəcib insan kimi kollektivdə böyük nüfuz və hörmət sahibi olub. Fədakar əməyi layiqincə qiymətləndirilib. 1948-ci ildə "Qırmızı Ulduz", 1954-cü ildə "Qırmızı Bayraq" ordenləri, 8 medalla təltif edilib. "Dəniz Donanmasının fəxri işçisi" adına layiq görülüb.

Azərbaycanın Əməkdar müəllimi, istefada olan polkovnik Ağaisa Mustafayev 1982-ci ildə dünyasını dəyişsə də, xatirəsi bu gün də böyük ehtiramla yad edilir.



## Ömrünün 56 ilini Gəmiçiliyə həsr edən kapitan

***Vəli Rəhim oğlu Rəhimov 1904-cü ildə Cənubi Azərbaycanda dünyaya göz açıb.***

Əmək fəaliyyətinə 1920-ci ildə "Kaşen" gəmisində 2-ci dərəcəli matros kimi başlayan Vəli Rəhimov taleyini həmişəlik Xəzər Dəniz Gəmiçiliyi ilə bağlayıb. 1932-ci ildə "Gəmi sürücüsü" ixtisası üzrə diplom alıb. 1938-ci ilədək kapitanın üçüncü, daha sonra ikinci köməkçisi işləyib. Öz səyi, bacarığı və dərrakəsi ilə kapitanlığa yüksəlib. 1938-ci ildən 1945-ci ilədək müxtəlif gəmilərin, o cümlədən Böyük Vətən müharibəsi illərində iritonnajlı "Stalin", "Komintern", "Profintern" tankerlərinin kapitanı olub. Səmərəli fəaliyyətinə, döyüş tapşırıqlarının icrasında göstərdiyi fədakarlığa görə "Qırmızı Ulduz" ordeni, habelə, "Əmək rəşadətinə görə", "Qafqazın müdafiəsinə görə", "1941–1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.

Müharibədən sonra V.Rəhimov doqquz il hami kapitan kimi çalışıb. Özünə qarşı tələbkarlığı ilə seçilən Vəli Rəhimovun səmərəli fəaliyyəti 1952-ci ildə Lenin ordeni ilə qiymətləndirilib. "Dəniz Donanmasının fəxri işçisi" adına layiq görülüb.

Dərin biliyə, zəngin təcrübəyə malik olan Vəli Rəhimov sonralar Gəmiçilik rəisinin donanmanın istismarı üzrə müavini, Bakı limanının kapitanı işləyib – ümumilikdə Xəzər Dəniz Gəmiçiliyində 55 il 6 ay 3 gün çalışıb.

Vəli Rəhim oğlu Rəhimov 1995-ci ilin dekabrında 92 yaşında haqq dünyasına qovuşub.

**"DƏNİZ"**

## "UNUTSAQ, UNUDULARIQ"

# Əksər məsələləri yerindəcə həll edirdi





***Mustafa İmam Əli 1905-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Hələ gimnaziyada oxuyarkən gəmilərlə ciddi maraqlanan Mustafa İmam Əli 1922-ci ildə orta təhsilini başa vuran kimi, Azərbaycan SSR-nin Mərkəzi İcraiyyə Komitəsinə müraciət edərək gəmi inşaatı üzrə xüsusi təhsil almaq üçün onu xaricə göndərməyi xahiş edib. Respublika Mərkəzi İcraiyyə Komitəsi Zaqafqaziya Xalq Komissarları Şurası qarşısında gəncin müvafiq təhsil alması üçün Almaniyaya göndərilməsi və həmin müddətdə ona təqaüdün ödənilməsi barədə vəkalət qaldırıb. Gənc Mustafa qərarı gözləyənədək vaxtını boş keçirməyib: alman dilini mükəmməl öyrənib, riyaziyyat və başqa texniki fənlər üzrə biliyini daha da artırıb. Nəhayət, Zaqafqaziya Xalq Komissarları Şurası qərar qəbul edib və Mustafa İmam Əli 1924-cü ildə gəmi inşaatı üzrə mühəndis olmaq arzusunu gerçəkləşdirmək üçün Berlinə yola düşüb.***

Berlində ən yaxşı tərsanələrin və gəmi inşaatı üzrə xüsusi təhsil ocaqlarının Kil və Danzinqdə yerləşdiyini öyrənən Mustafa hər şeydən öncə istehsalat təcrübəsi qazanmağın əhəmiyyətini nəzərə alaraq Kilə gedib. Burada beş il ərzində "F.Krupp" konserninə məxsus gəmi tərsanəsinin emalatxanalarında və "Klavitter" zavodunun gəmi inşası bürosunda təcrübə keçən fəhlə kimi çalışıb. Eyni zamanda Mustafa İmam Əli ali texniki məktəbin gəmi inşası şöbəsinə daxil olub. 1932-ci ilin iyun ayında imtahanlarını uğurla verərək, gəmi inşaatçısı-mühəndis diplomu ilə Vətənə dönüb.

Bakıya qayıtdıqdan sonra Mustafa İmam Əli "Xəzər donanması"nda mühəndis kimi fəaliyyətə başlayıb. Bir il sonra enerjili və təşəbbüskar mühəndis artıq gəmi-mexanika xidmətinin rəisi vəzifəsinə təyin edilib. Təcrübəli mütəxəssis o vaxt Gəmiçilikdə istismar olunan "Lenin", "Profintern", "Tsryupa" və "Ağamalı oğlu" kimi iritonnajlı tankerlərin bortlarındakı ballast bölmələrində dəniz üzgüçülüyü üçün təhlükə yaratmadan neftin daşınması təklifini irəli sürüb. Bu, neft daşımalarını 20 %-dək artırmağa imkan verib.

Mustafa İmam Əli əsas fəaliyyətindən əlavə, həm də dəniz nəqliyyatı donanması üçün yerli kadrların hazırlanması işinə böyük diqqət yetirib. Belə ki, Bakı dənizçilik texnikumunda "Gəmi nəzəriyyəsi"ndən bir neçə il dərs deyib. Ana dilində xüsusi dərsliklərə ehtiyacın olduğunu görərək, o dövrün əsaslı dərsliyi sayılan P.P.Şirşovun "Gəmi nəzəriyyəsi"ni tərcümə edib və elmi dəniz terminalogiyasını Azərbaycan dilində işləyib hazırlayıb.

Təəssüflər olsun ki, Mustafa İmam Əlinin qüsursuz işinə baxmayaraq, 1937-1938-ci illərin repressiyası ondan da yan keçməyib. O zaman xaricdə təhsil almış bir çox mütəxəssislər kimi, Almaniyada işləyib-oxumuş Mustafanı da həbs ediblər. Həbsxanada Mustafa, oğlunun anadan olduğu, lakin qısa bir zamanda xəstələnib-öldüyü barədə sarsıdıcı xəbər alıb.

Böyük Vətən müharibəsinin başlanması Mustafa İmam Əlinin həbsxana həyatına son qoyub. Dəniz nəqliyyatı sahəsində onun kimi zəngin təcrübəli və dərin biliyə malik mütəxəssisə həddən artıq tələbat olduğundan, Mustafanı həbsdən azad edərək yenidən öz işinə bərpa ediblər.

Müharibənin çətin sınaq illərində Mustafa İmam Əlinin xidmətləri əvəzedilməz olub. Bu, danılmaz faktdır. Həmin dövrdə vaxt və şəraitlə hesablaşmadan cəbhəyə ən müxtəlif yüklərin – yanacağın, hərbi texnika və silah-sursatın, habelə hərbi hissələrin və təxliyyə olunmuş insanların fasiləsiz daşınmasını həyata keçirmək, eyni zamanda gəmilərin təmirini və ya yenidən qurulmasını icra etmək lazım gəlirdi.

Mustafa İmam Əli o illərdə demək olar ki, vaxtını ancaq gəmi təmiri zavodlarında və Xəzər hövzəsinin limanlarında keçirib. Strateji yüklər daşıyan gəmilər kütləvi aviahəmlələrə məruz qaldığından, Mustafa çox vaxt təyyarə ilə gəmilərin zədələndiyi yerə gedərək, onların təmiri məsələsini yerində həll edib.

Müharibənin sonunda Mustafa İmam Əli mühəndis-mayor rütbəsində Sovet İttifaqının Dəniz Donanması Nazirliyindən göndərilən əməli qrupun tərkibində Avstriya və Macarıstana gedərək, xüsusi tapşırığın icrası ilə əlaqədar İttifaq Nəzarət Komissiyasının sərəncamında olub. 1945-ci ilin 30 aprelindən 1946-cı ilin 15 iyununadək Vyana və Budapeştdə Sovet Dunay Gəmiçiliyi üçün gəmilərin hazırlanıb təchiz edilməsi, Dunay Hərbi Nəqliyyat İdarəsində isə batmış gəmilərin çayın dərinliyindən qaldırılması işlərinə rəhbərlik edib.

Xüsusi tapşırığın icrasından sonra Mustafa İmam Əli Latviya Gəmiçiliyinə göndərilib. Öz ailəsi Riqada yaşayan görkəmli gəmi inşaatı mütəxəssisi sonrakı illərdə işi ilə əlaqədar Leninqrad şəhərinə göçərək ömrünün sonunadək burada yaşayıb. On il Baltik Gəmiçiliyinin Mərkəzi Layihə-Konstruktor Bürosunda və daha on il keçmiş Sovet İttifaqı məkanında gəmi inşaatı üzrə ən nüfuzlu təsisatda - Akademik A.H.Krılov adına Mərkəzi Elmi-Tədqiqat İnstitutunda baş konstruktor vəzifəsində çalışıb. Mustafa İmam Əli həmin illərdə onlarla elmi iş görüb, müxtəlif ixtiralar edib. Bakı – Krasnovodsk (indiki – Türkmənbaşı) gəmi-bərə keçidində ilk səfərə məhz Mustafa İmam Əlinin layihələndirdiyi "Sovet Azərbaycanı" gəmi-bərəsi çıxıb. Böyük dəniz layneri "İvan Franko", iritonnajlı "Sofiya" tipli tanker və digər gəmilərin layihələrinin də müəllifi Mustafa İmam Əli olub. Müxtəlif illərdə A.A.Jdanov adına Qorki Politexnik İnstitutunun, Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun, Leninqrad Gəmi İnşası İnstitutunun gəmi nəzəriyyəsi şöbəsi tələbələrinin diplom layihəsinə və istehsalat təcrübəsinə rəhbərlik edib.

Peşəsinin bütün incəliklərinə dərindən bələd olan Mustafa İmam Əli dəfələrlə SSRİ Dəniz Donanması Nazirliyi tərəfindən məsləhətçi və ekspert kimi tərsanələrində İttifaq üçün sifarişlə yeni gəmilər inşa edən xarici ölkələrə ezam olunub. Mustafa İmam Əli kadr hazırlığına da həmişə ciddi fikir verib, onun yetirmələri – çoxsaylı mütəxəssis-konstruktorlar öz müəllimlərinin işini uğurla davam ediblər, onlardan bir çoxu SSRİ Dəniz Donanması Nazirliyinin müəssisə və idarələrində aparıcı vəzifələrə irəli çəkilib.

Görkəmli mütəxəssis, nəcib insan olan Mustafa İmam Əli 1978-ci ildə 73 yaşında dünyasını dəyişib. Ölkənin dəniz donanmasının inkişafına sanballı töhfələr vermiş Mustafa İmam Əli böyük ehtiramla Pulkovo qəbiristanlığının Albalı xiyabanlığında dəfn edilib.

# İLK XƏZƏRŞÜNAS-OKEANOLOQ





***Professor Qasım Kazım oğlu Gül 1909-cü il dekabrın 31-də Şamaxı şəhərində dünyaya göz açıb.***

1919-cu ildə atası Kərbəlayı Kazım ailəsi ilə birlikdə Bakıya köçüb və on yaşlı Qasım Xəzər Gəmiçiliyində yunqa kimi fəaliyyətə başlayıb. 1924-cü ildə Bakı dənizçilik texnikumuna daxil olub və texnikumu bitirdikdən sonra Xəzər Dəniz Gəmiçiliyində çalışıb.

1931-ci ildə Gül xüsusi göndərişlə Leninqrad Su Nəqliyyatı Mühəndisləri İnstitutuna daxil olub və 1933-cü ildə institutun "Dəniz gəmi idarəetmə" fakültəsini müvəffəqiyyətlə bitirərək, "mühəndis-pedaqoq" ixtisası üzrə diplom alıb. Elə həmin il 24 yaşlı Qasım Gül Bakı dənizçilik texnikumunun direktoru təyin edilib.

Böyük Vətən müharibəsi illərində Qasım Gül hərbiləşdirilmiş balıqovlayan donanmaya rəhbərlik edib və flaqman şturmanı vəzifəsini tutub. Donanmada fədakar əməyinə görə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunub.

Müharibədən sonra Qasım Gül Azərbaycan Dövlət Universitetinin coğrafiya şöbəsində pedaqoji işə keçib və qısa vaxtda - 1947-ci ildə namizədlik, 1951-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib. O, 1948-ci ildə dosent, 1953-cü ildə isə professor elmi adını alıb və elə həmin ildə də universitetin geologiya-coğrafiya fakültəsinin fiziki coğrafiya kafedrasının müdiri seçilib.

Professor Qasım Gül 1954-1957-ci illərdə Azərbaycan Dövlət Universitetində elmi işlər üzrə prorektor vəzifəsində işləyərkən böyük müvəffəqiyyətlərə nail olub. Elm fədaisinin işi yüksək dəyərləndirilərək 1957-ci ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutuna direktor təyin edilib. 1962-ci ildən isə ömrünün sonunadək Coğrafiya İnstitutunun Xəzər bölməsinə rəhbərlik edib.

Professor Qasım Gül elmi fəaliyyətində Xəzərşünaslığı aparıcı istiqamət kimi götürərək, Xəzəri, xalqımızı tanıdan böyük alim - Azərbaycanın ilk coğrafiya elmləri doktoru, coğrafiya sahəsində ilk professor, AEA-nın ilk müxbir üzvü, ilk Xəzərşünas-okeanoloq kimi ad qazanıb.

Görkəmli alim, fədakar elm xadimi 1972-ci il mayın 31-də 63 yaşında gözlərini əbədi yumub.

Xəzərdə üzən gəmi-bərələrimizdən biri Qasım Gülün adını daşıyır.

***Sevda ABDULLAYEVA***

# “UNUTSAQ, UNUDULARIQ”

## Anadan dənizçi doğulmuşdu



***Uzaq səfərlər kapitanı Hacımurad Şirəli oğlu Pənahov 1911-ci ildə Bakı şəhərinin Şağan kəndində anadan olub.***

1936-cı ildə Bakı dənizçilik texnikumunu bitirdikdən sonra Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasında işləyib. Təşkilatçılıq qabiliyyəti, bacarığı və biliyi Hacımurad Şirəli oğlunu qısa müddətdə kapitanın üçüncü köməkçisindən kapitan vəzifəsinədək yüksəldib.

Böyük Vətən müharibəsinin ağır illərində “Sentrosoyuz” gəmisinin kapitanı olarkən H. Pənahovun ən yaxşı komandirlik keyfiyyətləri – heyəti monolit komandaya çevirmək, hər bir tapşırığı layiqincə yerinə yetirmək məharəti üz çıxıb.

1954-cü ildə SSRİ Dəniz Donanması Nazirliyinin Akademiyasını bitirən Hacımurad Pənahov Gəmiçiliyin dəniz üzgüçülüyü xidmətində məsləhətçi kapitan vəzifəsinə irəli çəkilib, onlarla gənc kapitan tərbiyə edib.

1961-ci ildə Bakı – Krasnovodsk (Türkmənbaşı) limanları arasında Avropada ən böyük gəmi-bərə keçidi açılarkən məhz Hacımurad Pənahov ən təcrübəli kapitan kimi gəmi-bərələrin ilki - “Sovet Azərbaycanı” dizel-elektroxodunun sükanı arxasına keçib. Onun səyi, işə yaradıcı münasibəti qısa müddətdə gəmi-bərənin istismarının mənimsənilməsinə kömək edib. O, gəmi-bərələrin səmərəli – sıxlaşdırılmış cədvəllə istifadə olunması təklifini verib ki, bu da böyük iqtisadi fayda ilə nəticələnib.

Hacımurad Pənahov uzaq səfərlərə çıxan ilk kapitanlardan olub, uzun müddət Qara və Aralıq dənizlərində üzən gəmilərimizin heyətlərinə başçılıq edib.

H. Pənahov VII çağırış SSRİ Ali Sovetinin deputatı olub.

“Dəniz Donanmasının fəxri işçisi” (1957) olan Hacımurad Pənahovun əməyi yüksək qiymətləndirilib. O, Lenin (1963) və “Oktyabr İnqilabı” (1971) ordenləri ilə, müxtəlif medallarla təltif edilib. Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına layiq görülüb.

Hacımurad Şirəli oğlu Pənahovlar sülaləsinin banisi olub, hər üç övladı ömrünü dənizlə bağlayıb.

Hacımurad Şirəli oğlu Pənahov 1974-cü ilin oktyabrında 63 yaşında qəflətən vəfat edib.

***Sevda ABDULLAYEVA***

## Dənizin vurğunu Dərya



***Dərya Atakişi oğlu Dadaşov 1915-ci ildə Bakının Mərdəkan qəsəbəsində anadan olub.***

Orta məktəbi bitirdikdən sonra Bakı Pedaqoji Texnikumuna daxil olub, lakin tezliklə Bakı Dənizçilik Texnikumuna keçərək, burada “Gəmi sürücülüyü” ixtisasına yiyələnib.

D.Dadaşov kapitan körpüsünə 1938-ci ildə qalxıb. Bacarıqlı və təcrübəli gəmi sürücüsü kimi tanınıb. Böyük Vətən müharibəsi illərində təşkilatçılıq qabiliyyəti, liderlik keyfiyyətləri və şücaəti ilə fərqlənib.

Dərya Dadaşov 1957–1960-cı illərdə milis orqanlarında çalışıb, nəqliyyatda su milisi bölməsinə rəhbərlik edib.

1960-cı ildə yenidən doğma Xəzər Dəniz Gəmiçiliyinə qayıdan Dərya Dadaşov əvvəlcə “Türkmənistan”, sonra başqa gəmilərdə kapitan olub. Başçılıq etdiyi heyətlərin qüvvəsini qarşıda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə səfərbər etməyi bacarıb. Sükanı ona etibar edilən gəmilərin adları həmişə qabaqcıllar sırasında çəkilib.

Mahir kapitanın əməyi layiqincə qiymətləndirilib – Lenin və II dərəcəli “Vətən müharibəsi” ordenləri, bir çox medallarla təltif olunub, “Dəniz Donanmasının fəxri işçisi” adına layiq görülüb. 1988-ci ildən fərdi təqaüdçü olub.

Uzaq səfərlər kapitanı Dərya Dadaşov 2000-ci il fevralın 10-da dünyasını dəyişib.

## Bir vaxtlar səfərlərə çıxdığı sularda indi adına gəmi üzür






***Uzaq səfərlər kapitanı Ağa Rəşid Qurban oğlu Ağasıyev 1928-ci il mayın 22-də Bakıda dünyaya göz açıb.***

1945-ci ildə Bakı dəniz yolları məktəbinə daxil olub. 1949-cu ildə “Gəmi sürücülüyü” ixtisası üzrə təhsilini başa vurduqdan sonra Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində işləyərək kapitanlığa kimi yüksəlib.

Odessa Ali Dəniz Mühəndisləri Məktəbində “Gəmi maşınları və mexanizmləri” ixtisası üzrə təhsilini tamamladıqdan sonra uzaq səfərlər kapitanı kimi fəaliyyət göstərib. Təcrübəli, məsuliyyətli kapitan, səmimi və təmkinli şəxs kimi kollektivdə dərin hörmət qazanıb. “Qırmızı Əmək Bayrağı” ordeni və medallarla təltif olunub. “Dəniz Donanmasının fəxri işçisi” adına layiq görülüb.

Kapitan A. Ağasıyev həm də pedoqoji fəaliyyət göstərib – Bakı dəniz yolları məktəbində, Bakı balıq sənayesi texnikumunda ixtisası üzrə müdavimlərə dərs deyib. 1990-1993-cü illərdə həm də məsləhətçi kapitan kimi çalışıb.

1993-cü ilin sonundan etibarən “Xəzərdənizneftdonanma” İdarəsində işləyib. Burada da tələbkar, intizamlı və vicdanlı işçi kimi hörmət qazanıb, çətin tapşırıqların öhdəsindən bacarıqla gəlib. Müstəqil Azərbaycan dövlətinin ABŞ sahillərinə yan alan ilk gəmisini o idarə edib. ABŞ-ın Norfolk limanında kapitanı olduğu “Yarenqa” gəmisinin yedəyinə 2 gəmi alaraq Hindistanın Bombey (indiki Mumbay) limanına aparıb. Belə mürəkkəb keçidi uğurla yerinə yetirərək, Azərbaycan dənizçilik məktəbinin şərəfini ucaldıb.

Kapitan A. Ağasıyev 2008-ci ildə - 80 yaşının tamamına 4 ay qalmış dünyasını dəyişib. Gəmiçiliyin rəhbərliyi kapitan A. Ağasıyevin fədakar əməyini yüksək dəyərləndirərək, Türkiyədə inşa olunmuş liman yedək gəmisinə onun adını vermişdir.

***“DƏNİZ”***

## Bütün çətin vəziyyətlərdən baş çıxarırdı



***Fətulla Həsən oğlu Fətullayev 1915-ci ildə Orconikidze (indiki Vladiqafqaz) şəhərində anadan olub.***

1936-cı ildə Bakı dənizçilik texnikumunu “Uzaq səfərlər gəmi sürücüsü” ixtisası ilə bitirib və Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində əmək fəaliyyətinə başlayıb. Özünə qarşı tələbkarlığı ilə seçilən gənc tezliklə dənizçilər arasında nüfuz qazanıb. Neft donanmasının qabaqcıllarından olub.

F.Fətullayevin liderlik keyfiyətləri və təşkilatçılıq qabiliyyəti Böyük Vətən müharibəsi illərində özünü xüsusilə biruzə verib. 1942-ci ildə kapitan göyərtəsinə qalxıb. Müharibə illərində iritonnajlı “ÜKP(b)” tankerində böyük istehsal riski olan yüklərin – hərbi sursatın, döyüş texnikasının və yanacağın daşınmasını həyata keçirib. Kapitanı olduğu gəmi dəfələrlə aviahəmlələrə məruz qalıb. Belə şəraitdə kapitan kimi xüsusi bacarıq və şücaət göstərib.

Müharibədən sonrakı illərdə F.Fətullayev tankerlərdə işləməkdə davam edib. Qabaqcıl metodlardan məharətlə istifadə edərək böyük nailiyyətlər əldə edib. Xəzərdə neftin yeni xətlərlə - Neft Daşlarından və Çələkəndən daşınmasında fəal iştirak edib. İyirmi il hami kapitan kimi donanma üçün təcrübəli kadrlar hazırlayıb.

Fətulla Fətullayevin fədakar əməyi “Qırmızı Ulduz” və “Oktyabr İnqilabı” ordenləri, “Qafqazın müdafiəsinə görə”, “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə”, “Əmək rəşadətinə görə”, “Əməkdə fərqlənməyə görə” medalları ilə qiymətləndirilib. “Dəniz Donanmasının fəxri işçisi” və “Xəzərin veteranı” olub.

# "UNUTSAQ, UNUDULARIQ"

## Etimadı həmişə doğruldurdu



***Milliyyətcə polyak olan Vatslav Vikentyeviç Danitski 1918-ci il dekabrın 7-də Ukraynanın Xmelnitski vilayətinin Bojikovets kəndində anadan olub.***

1938-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutuna daxil olub. "Dəniz donanmasının istismarı" fakültəsində təhsil alan gənc bir müddət Odessa gəmi təmiri zavodunda çəkicvuran işləyib.

1943-cü il iyulun 23-də təhsilini başa vuran Vatslav Danitski 20göndərişlə Bakıdakı "Xəzərtanker" idarəsinə gəlib. 1943-1948-ci illərdə dispetçer, dəniz agenti, özü hərəkət etməyən gəmilərdə kapitan işləyib. 1949-cu ildən etibarən əmək fəaliyyətini Xəzər Dəniz Neft Donanması İdarəsində davam etdirib. 1949-1964-cü illərdə mühəndis, dispetçer, İstimar xidmətinin rəisi vəzifələrində çalışıb. Əməksevərliyi, dərin biliyi və əzmkarlığı ilə kollektivdə böyük hörmət qazanıb.

Zəngin təcrübəsi, təşkilatçılıq qabiliyyəti və nəcib insani keyfiyyətləri ilə seçilən Vatslav Vikentyeviç 1964-cü ildə Xəzər Dəniz Neft Donanması İdarəsinin rəisi təyin edilib və 1985-ci ilədək bu vəzifədə çalışıb.

V.Danitskinin Xəzər Dəniz Neft Donanması İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsində və müxtəlif təyinatlı gəmilərin modernləşdirilməsində böyük xidmətləri olub. "Qırmızı Əmək Bayrağı" ordeni, "Böyük Vətən müharibəsi illərində rəşadətli əməyə görə" və "Yanğınsöndürmədə igidliyə görə" medalları ilə təltif olunub. "SSRİ-nin fəxri neftçisi" və "Azərbaycan SSR-nin əməkdar mühəndisi" fəxri adlarına layiq görülüb. SSRİ Nazirlər Soveti mükafatının laureatı olub.

Vatslav Danitski 2005-ci ildə gözlərini əbədi yumub.

## Tələbkar olduğu qədər də qayğıkeş



***Aydın Əsədulla oğlu Bədirxanov 1935-ci il martın 8-də Astara şəhərində anadan olub.***

Orta təhsilini doğma şəhərində alan Aydın Bədirxanov 1954-cü ildə Bakıya gələrək, Sabunçu qəsəbəsindəki 1 №-li texniki məktəbə daxil olub. 1956-cı ildə həmin məktəbi "gəmi sürücüsü" ixtisası üzrə bitirərək, Azərbaycan SSR Neft Sənayesi Nazirliyi nəzdində fəaliyyət göstərən "Xəzərdənizneftdonanma"nın "İliç buxtası" dəniz nəqliyyatı kontoruna məxsus "M. Əliyev" gəmisində matros kimi işə başlayıb. Çalışqanlığı ilə seçilən gənc bir il sonra kiçik katerə kapitanın böyük köməkçisi, üç il sonra isə kapitan təyin edilib.

Rəhbərlik gənc dənizçinin bacarıq və öyrənmək həvəsini görüb, ona istehsalatdan ayrılmadan təhsilini davam etdirməyə imkan yaradıb. Aydın Bədirxanov 1958-ci ildə Odessa Su Nəqliyyatı Mühəndisləri İnstitutuna daxil olub və 1964-cü ildə "Su nəqliyyatının istismarı" fakültəsini "istismarçı mühəndis" ixtisası üzrə bitirib. Ali təhsilli mütəxəssis 1964-1966-cı illərdə mühəndis-dispetçer, 1966-1976-cı illərdə isə Bulla adasının istismar sahəsində rəis - böyük mühəndis vəzifələrində çalışıb.

Məsuliyyəti və özünə tələbkarlığı ilə seçilən Aydın Bədirxanov 1976-cı ilin martında "Xəzərdənizneftdonanma"ya məxsus Dəniz Neft Limanına, dörd il sonra isə Cənub rayon idarəsinə rəis təyin edilib. Məsul vəzifələrdə püxtələşən A. Bədirxanova 1985-1987-ci illərdə və 1996-cı ildə "Xəzərdənizneftdonanma" İdarəsinə rəhbərlik etmək həvalə olunub. Peşəkarlığı, tələbkarlığı ilə bərabər, həm də diqqət və qayğısı ilə kollektivdə böyük nüfuz qazanıb.

A. Bədirxanov 1996-1998-ci illərdə Cənub rayon idarəsinin rəis müavini işləyib.

Vicdanlı və qüsursuz fəaliyyəti yüksək qiymətləndirilən A. Bədirxanov 1970-ci ildə "Əmək rəşadətinə görə", 1985-ci ildə "Əmək veteranı" medalları və 1986-cı ildə "Xalqlar Dostluğu" ordeni ilə təltif edilib.

Aydın Bədirxanov 1998-ci il mayın 15-də 63 yaşında dünyasını dəyişib.

***Sevda ABDULLAYEVA***

## İlk azərbaycanlı qadın gəmi kapitanı

***Şövkət Şahbaz qızı Səlimova 1920-ci il dekabrın 25-də indiki İsmayıllı (o zaman Şamaxı uyezdi) rayonunun Lahıc kəndində anadan olub. Atası Şahbaz kişi sonradan çoxuşaqlı ailəsi ilə Bakının Şubanı kəndinə köçüb.***



Onuşaqlı ailənin ilki olan Şövkət məktəbli ikən aviamodelçilər dərnəyinə üzv yazılıb. 1935-ci ildə Moskvada aviamodelçilərin toplanışında iştirak edərkən, hazırladığı model hamısından uzağa uçaraq ümumittifaq rekordu yeniləyib və daha üç il ona birinciliyi əldə saxlamaq imkanı verib. Bundan sonra Ş.Səlimova planerdə ilk uçuşunu həyata keçirib. Lakin təsadüf onun peşə seçimini dəyişdirib.

Jurnalda ilk qadın uzaq səfərlər kapitanı Anna Şetininanın fotosunu gördükdən sonra o da kapitan olmaq qərarına gəlib və məktəbdə təhsilini başa vuran kimi sənədlərini Bakı Su Nəqliyyatı Texnikumunun "Gəmi sürücüsü" fakültəsinə verib. Əmək fəaliyyətinə Odessa Dəniz Gəmiçiliyinin uzaq səfərlərə çıxan "Serqo" gəmisində kapitanın üçüncü köməkçisi kimi başlayıb və tezliklə öz dəyanəti, əzmi, biliyi və qətiyyəti ilə heyətin dərin hörmətini qazanıb. Bakıya qayıdan Ş.Səlimova Xəzər Gəmiçiliyinin gəmilərində kapitan işləyib. Müharibə başlayanda "Dnepr" gəmisinin kapitanı olub. Odlu-alovlu illərdəki şücaəti "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə qiymətləndirilib.

Müharibədən sonra Şövkət xanım daha üç il sevdiyi peşəsi ilə məşğul olub. 1948-ci ilin sentyabrın 11-də onu respublika ali partiya məktəbinə oxumağa göndəriblər. 1950-ci ildə həm partiya məktəbini, həm də ekstern yolu ilə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. Azərbaycan KP MK-da təbliğat-təşviqat şöbəsinin müdiri işləyib. 1954-cü ildə Azərbaycan Dövlət Heft və Kimya İnstitutunda müəllimlik fəaliyyətinə başlayıb. Mühəndis-iqtisad fakültəsinin dekanı, prorektor olub. Dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi alıb. 1971-ci ildə "Azərbaycanın Əməkdar iqtisadçısı" fəxri adına layiq görülüb. Dosent Ş.Səlimova Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında marksizm-leninizm kafedrasının müdiri işləyib, uzun illər "Bilik"cəmiyyəti Bakı təşkilatı sədrinin müavini olub.

Azərbaycanın ilk qadın gəmi kapitanı Şövkət Şahbaz qızı Səlimova 1999-cu ildə haqq dünyasına qovuşub.

***"DƏNİZ"***

## Sosialist Əməyi Qəhrəmanı olan baş mexanik



***Ağarza İbrahim oğlu Eyvazov 1929-cu il aprelin 29-da Bakı şəhərində anadan olub. 25 №-li məktəbdə təhsil alıb. 1946-cı ildə Bakı yunqa məktəbini əla qiymətlərlə bitirərək Bakı dəniz yolları məktəbinə daxil olub. Dördüncü mexanik kimi əmək fəaliyyətinə başlayıb. 1952-1958-ci illərdə "Profintern" tankerində dördüncü, üçüncü, ikinci mexanik kimi üzüb. 1958-1961-ci illərdə "Qudurmes" tankerində böyük mexanik kimi çalışıb.***

1961-ci ildə "Krasnoye Sormovo" zavodunda "Sovet Türkmənistanı" dizel-elektroxodunun tikintisinə nəzarət etmək üçün Qorki (Nijni Novqorod) şəhərinə ezam olunan qrupa başçılıq edib. Gəmi-bərə suya salındıqdan sonra baş mexaniki təyin edilib. Sonralar "Naxçıvan", "Selinoqrad" gəmilərində böyük mexanik işləyib.

Ağarza Eyvazov hədsiz dərəcədə işgüzar, bacarıqlı dənizçi kimi tanınıb, hörmət qazanıb. Dörd dəfə - 1953, 1957, 1964, 1969-cu illərdə Xəzər Dəniz Gəmiçiliyinin, 1975-ci ildə SSRİ Dəniz Donanması Nazirliyinin "Ən yaxşı mexanik"i adına layiq görülüb. İqtisadi fayda verən neçə-neçə yeniliyin müəllifi - fəal səmərələşdirici olub. 1973-cü ildə istehsalatdan ayrılmadan Odessa Ali Dəniz Mühəndisləri Məktəbini bitirib.

Böyük təşkilatçılıq qabiliyyəti, təsərrüfatçılıq məharəti nəzərə alınaraq Ağarza Eyvazov 1976-cı ildə Dəniz Nəqliyyatında Ticarət İdarəsinin rəisi təyin edilib və ömrünün sonunadək bu vəzifədə çalışıb.

Ağarza Eyvazovun əməyi yüksək dəyərləndirilib – 1966-cı ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb, orden və medallarla təltif olunub.

Ağarza İbrahim oğlu Eyvazov 1994-cü ilin sentyabr ayında 65 yaşında qəflətən vəfat edib.

# "UNUTSAQ, UNUDULARIQ"

## Başladığı hər işi sona çatdırırdı






*Cabbar Əzim oğlu Həşimov 1925-ci il martın 15-də Göyçay şəhərində anadan olub.*

On altı yaşlı yeniyetmə pedaqoji məktəbi bitirəndə İkinci Cahan savaşı başlayıb. Müharibənin ilk illərindən Keşlə dəmiryol stansiyasında və Sement zavodunda işləyib.

1945-ci ildə Bakı dəniz yolları məktəbinin "Gəmi sürücülüyü" fakültəsini bitirərək şturman ixtisasına yiyələnib, Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasına məxsus "Özbəkistan", "Sırdərya" və digər gəmilərində üzüb.

Cabbar Həşimovun təşkilatçılıq qabiliyyəti və bacarığı nəzərə alınaraq 1952-ci ilin mayında Gəmiçiliyin sahil heyətində işə cəlb olunub. 1965-ci ilədək burada böyük inspektor, bölmə rəhbəri, kadrlar şöbəsinin rəisi vəzifələrində çalışıb.

O, bu dövrdə həm də ali təhsil alıb - 1964-cü ildə Odessa Su Nəqliyyatı Mühəndisləri İnstitutunu "İstismarçı mühəndis" ixtisası üzrə bitirib. 1965-1968-ci illərdə Gəmiçilik rəisinin müavini, 1968-1987-ci illərdə Gəmiçiliyin rəisi, 1994-cü ildən ömrünün sonuna qədər isə Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi rəisinin müşaviri vəzifələrində işləyib.

Gəmiçiliyə rəhbərlik etdiyi 19 ildə C. Həşimov dənizçilik kadrlarının yetişdirilməsinə, quruculuq işlərinə, donanmanın tərkibinin təzələnməsinə, idarəetmə strukturunun təkmilləşdirilməsinə böyük əmək sərf edib. Onun rəhbərliyi altında donanma üçün keçmiş Sovet İttifaqının və xarici ölkələrin tərsanələrində inşa edilmiş ən müasir gəmilər, o cümlədən "Dağıstan" tipli gəmi-bərələr alınıb. Dənizçilərin sosial problemlərinin həlli fəaliyyətində xüsusi yer tutub - yeni-yeni məhəllələr salınıb, yüzlərlə işçi ev-eşik sahibi olub.

C.Həşimovun xidmətləri həm respublikada, həm də SSRİ Dəniz Donanması Nazirliyində həmişə yüksək qiymətləndirilib. O, Azərbaycan SSR Ali Sovetinin 8-ci, 9-cu və 10-cu çağırışlarında deputat, habelə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü seçilib. "Qırmızı Əmək Bayrağı", "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenləri ilə təltif olunub, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına, "Əməkdar nəqliyyat işçisi", «Dəniz Donanmasının fəxri işçisi" adlarına və çoxsaylı medallara layiq görülüb.

Cabbar Əzim oğlu Həşimov 2007-ci il yanvarın 5-də 82 yaşında Bakı şəhərində vəfat edib.

## Tələbkar olsa da, kimsə ondan incimədi

*Teymur Qafar oğlu Əhmədov 1935-ci ildə anadan olub.*



1956-cı ildə Tallin dəniz yolları məktəbində "gəmi sürücüsü" ixtisasına yiyələnib və təyinatla Şimal Dəniz Gəmiçiliyinə (Arxangelsk şəhərinə) göndərilib. 1962-ci ilədək nəqliyyat donanmasının gəmilərində üzüb, sonra Xəzər Dəniz Gəmiçiliyinə gəlib. 1970-ci ilədək Gəmiçiliyin gəmilərində kapitan köməkçisi, 1970-ci ildən isə uzaq səfərlər kapitanı işləyib.

T. Əhmədov gəmiçilik vəzifələrinin bütün pillələrindən keçərək böyük əməli təcrübə qazanıb. 1975-ci ildə SSRİ Dəniz Donanması Nazirliyinin "Ən yaxşı kapitan"ı adına layiq görülüb. 1976-cı ildə Gəmiçiliyin yük daşınması və donanmanın hərəkəti xidmətinin rəisi təyin edilib. 1978-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunu "mühəndis-istismarçı" ixtisası üzrə bitirib və həmin ilin dekabrında donanma və limanların istismarı üzrə Xəzər Dəniz Gəmiçiliyi rəisinin müavini vəzifəsinə irəli çəkilib. 1987-ci ildə Xəzər Dəniz Gəmiçiliyinin rəisi təyin olunub.

Teymur Əhmədov öz vəzifələrinə həmişə təşəbbüskar, işgüzar və yüksək səviyyəli təsərrüfatçı kimi yanaşıb. Böyük əməli təcrübəyə və yaxşı nəzəri biliyə malik olması ona donanmanın istismarının təşkilində əsaslı dəyişikliklər etməyə və onun iqtisadi səmərəliyini yüksəltməyə imkan verib.

Teymur Əhmədov tabeliyində olan işçilərə tələbkarlığı ilə bərabər, həm də çox həssas və diqqətli olması ilə seçilib.

T. Əhmədovun əməyi "Rəşadətli əməyə görə" və "Əmək igidliyinə görə" medalları ilə qeyd olunub.

Teymur Qafar oğlu Əhmədov 1994-cü il fevralın 17-də 59 yaşında xidməti vəzifəsini icra edərkən qəflətən vəfat edib.




## Xəzər Dəniz Neft Donanmasında adı bu gün də hörmətlə çəkilir



*Cəbrayıl Xanlar oğlu Məmmədov 1937-ci il aprelin 12-də Bakı şəhərində dünyaya göz açıb. Atası Böyük Vətən müharibəsində Mozdok şəhəri uğrunda gedən döyüşlərdə həlak olduğundan uşaqlıq illəri ağır keçib.*

1957-ci ilin dekabrında Bakı Dəniz Yolları Məktəbini "gəmi sürücüsü" ixtisası ilə bitirib. Əmək fəaliyyətinə 1958-ci ildə Xəzər Dəniz Neft Donanmasının gəmilərində kapitanın 2-ci köməkçisi kimi başlayıb. Bacarığı və əzmkarlığı ilə kapitan vəzifəsinədək yüksəlib.

Cəbrayıl Məmmədov təhsilini artırmağı da unutmayıb, istehsalatdan ayrılmadan 1970-ci ildə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunu bitirib. 1973-cü ildə təcrübəli mütəxəssis kimi Xəzər Dəniz Neft Donanması üçün Niderlandda inşa olunan "Süleyman Vəzirov" borudüzən gəmisinin kapitanı təyin olunub və gəmini təhvil almaq üçün bu ölkəyə ezam edilib.

"Süleyman Vəzirov" gəmisində kapitan işləyərkən Cəbrayıl Məmmədov Kuybışev su anbarından keçməklə 2 mərhələdə - 1979 və 1981-ci illərdə çəkilən Urenqoy – Çelyabinsk – Petrovsk - Novopskov sualtı qaz kəmərlərinin inşasında fəal iştirak edib.

Liderlik keyfiyyətlərinə, komanda yığmaq bacarığına və işgüzarlığına görə 1987-ci ildə Xəzər Dəniz Neft Donanmasının rəisi təyin edilib. 1994-cü ilədək bu vəzifədə çalışan və kollektivin böyük hörmətini qazanan Cəbrayıl Məmmədov onu tanıyanların xatirəsində bacarıqlı və qayğıkeş rəhbər, səmimi insan kimi qalıb.

Cəbrayıl Məmmədov 1979-cu ildə "SSRİ neft və qaz sənayesinin fəxri işçisi" adına layiq görülüb.

Cəbrayıl Xanlar oğlu Məmmədov ömrünün 61-ci ilində haqq dünyasına qovuşub.

**"DƏNİZ"**

*Ümummilli liderimiz Heydər Əliyev alman faşizmi üzərində qələbənin təmin edilməsində Azərbaycanın böyük xidmətlərindən danışarkən demişdir: "Əgər Bakı nefti olmasaydı, Sovetlər İttifaqının qələbəsi mümkün deyildi."*

# ƏGƏR BAKI NEFTİ OLMASAYDI...

## Nikolay BAYBAKOV: *"Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir"*

Bəli, Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət, fədakarlıq nümunələri göstərmişdir.

Uzun illər SSRİ-nin neft və qaz sənayesinə başçılıq etmiş Nikolay Baybakov da təsdiq edirdi ki, azərbaycanlılarsız Sovet İttifaqının alman faşizmi üzərində qələbəsi sual altında qala bilərdi. O, demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. Qırxıncı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü."

Bəli, faşizmlə ölüm-dirim savaşı illərində ölkədə istehsal edilən neftin 70-75 faizi, benzinin 85-90 faizi azərbaycanlıların fədakarlığının bəhrəsi idi. 1941-1945-ci illərdə Azərbaycan cəbhəyə 75 milyon ton neft, 22 milyon ton benzin göndərmişdi...

Həmin illərdə Bakı neftinin nə demək olduğunu düşmənlər də yaxşı anlayırdılar. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oleburq iqtisadi qərargahının planında Qafqazın, ələlxüsus Bakının işğalı mühüm yer tuturdu. Plana görə, Bakı 1941-ci il sentyabrın axırınadək almanların əlində olmalıydı.

Qələbənin əldə olunmasında Azərbaycan dənizçilərinin misilsiz xidməti olmuşdur. Dənizçilərimiz müharibənin ilk günlərindən faşizmə qarşı amansız döyüşlərə atılırlar. Təkcə iyunun 24-də 67 kapitan, kapitan köməkçisi və baş mexanik, 160 matros, 18 operativ işçi cəbhəyə yola düşür. Ümumilikdə, üzən heyətin təxminən 45 faizi, Gəmiçiliyin radio mərkəzləri və telefon qovşaqlarında çalışanların isə əlli faizi savaşın ilk ayında səfərbərliyə alınır. Gəmiçilik ilk gündən gərgin iş rejiminə keçir.

Dənizçilər əlavə yüklər daşıyır, limançılar yük əməliyyatlarını fasiləsiz həyata keçirir, gəmi təmirçiləri nəqliyyat vasitələrini vaxtından əvvəl təmir etməklə yanaşı, silah-sursat istehsal edirlər.

Gəmilərdə, zavodlarda, limanlarda müharibə dövrünün çoxyüzçüləri, çoxdəzgahçıları, staxanovçuları meydana çıxır.

Xəzər neft donanması və quru yük daşıyan donanmaların bir çox gəmi heyətləri zavod təmirinə dayanmadan üzürlər.

Müharibə başlayanda Xəzərdə donanmalara malik üç gəmiçiliyin 36 quru yük gəmisi, 58 tankeri, 64 yedək gəmisi və 120 neftdaşıma və quru yük barjı var idi. Maye yanacaq daşınması ilə "Xəzərtanker" və "Reydtanker" gəmiçilikləri məşğul olur, "Kaspflot"un gəmiləri quru yüklər daşıyırdı.

Daşınılan yüklərin tərkibi və təyinatı da kəskin şəkildə dəyişir. Xəzərin dəniz yolları bütün ölkə, bütün cəbhə üçün müstəsna əhəmiyyəti olan kommunikasiyaya çevrilir. İntensiv qaydada qoşun, döyüş texnikası və yanacaq daşınır. Yaralıların, faşistlər tərəfindən dağıdılmış şəhər və kəndlərin sakinlərinin təhlükəsiz ərazilərə köçürülməsində də dənizçilərimizin xidməti böyük idi. SSRİ Dəniz Donanması Xalq Komissarlığının göstərişi ilə sərnişin daşımaq məqsədilə "Kaspflot"a 11 tanker ayrılır. «Dağıstan», «Türkmənistan», «Qırğızıstan» gəmilərini yaralıları daşımaq üçün üzən qospitala çevirirlər. Bütün nəqliyyat donanmasından, hətta dinc quruculuq dövründə yararsız hesab edilən gəmilərdən də istifadə olunur.

1941-ci il iyunun 28-də "Kaspflot"a 12 min nəfərlik ordu hissəsini və 8 min ton hərbi-strateji əhəmiyyətli yükü Krasnovodskdan (Türkmənbaşı) Bakıya çatdırmaq tapşırığı verilir və vaxtında yerinə yetirir. İyulda SSRİ-nin işğala məruz qalan qərb rayonlarından təxliyyə edilən əhalinin Qərbi Qazaxıstana daşınmasına başlanılır. Qısa vaxtda 9 mindən çox adam yeni yaşayış yerlərinə çatdırılır.



Çoxtonnajlı "VKP(b)", "Jdanov", "Azərbaycan", "Profintern" tankerləri hər səfərdə göyərtəsinə 4500-5000 adam qəbul edir. Müharibənin ilk altı ayında 100 mindən çox adam daşınır.

1941-ci ilin payızına qədər Ukraynanın və Şimali Qafqazın taxıl məhsullarının Orta Asiyaya çatdırılması üçün "Kaspflot"a hər ay Mahaçqaladan Krasnovodska 50 min ton taxıl daşımaq tapşırığı verilir.

1941-ci ilin payızında Xəzər dənizçiləri "Rosselmaş" zavodunun 24 min tondan çox avadanlığının şərqə daşınması tapşırığının öhdəsindən gəlirlər. Novoçerkask dəzgahqayırma zavodu, Rostov parovoz zavodu, Xarkov motosikl zavodu kimi bir çox iri sənaye müəssisələrinin içişlərinin və avadanlıqlarının Bakı limanı vasitəsilə ölkənin şərq rayonlarına daşınmasında da Xəzər dənizçiləri böyük rol oynayırlar.

"Kaspflot" həmin vaxt Bakıdan Həştərxana Volqa-Ural neft hövzəsi üçün nəzərdə tutulan 15 min ton xüsusi avadanlıq daşıyır...

Bütün bunlarla yanaşı, dənizçilərimiz cəbhəni fasiləsiz neft məhsulları ilə təmin edirlər. Tankerlərlə Bakıdan Həştərxana çatdırılan neft və neft məhsulları burada çay gəmilərinə boşaldılaraq, döyüş bölgələrinə göndərilir. Faşist komandanlığı Qızıl Ordunun yanacaqla təmin olunduğu bu əsas yolun sıradan çıxarılmasına çalışır. 1942-ci il iyunun 20-də Volqanın mənsəbi üzərində ilk faşist qırıcı təyyarələri görünür və Həştərxan reydində dayanan barjlarımızı atəşə tutur. Naviqasiya bitənə qədər alman aviasiyası Həştərxana 200-dən çox hava zərbəsi endirir.

Xəzər Hərbi Dəniz Donanmasının üzən zenit batareyaları düşmənlə Volqa-Xəzər neftdaşıma yolu uğrunda kəskin mübarizə aparırlar. Bundan başqa, düşmənin hücumlarını dəf edə bilməsi üçün nəqliyyat gəmilərimiz də xüsusi zenit qurğuları ilə təchiz edilir.

Şimali Qafqazın işğalından sonra dənizçilər neft dolu çənləri xüsusi quraşdırılmış dəmir yolu vasitəsilə Xəzərə endirir və oradan yedək gəmisi ilə Krasnovodska daşıyırlar.

Bundan sonra Xəzər dəniz yolu xüsusi ilə neft daşıyan gəmilərimiz düşmən aviasiyasının əsas hədəfinə çevrilir. Lakin gəmilərimiz düşmən aviasiyasının hücumları altında belə səfərlərinə ara vermir, hər gün əsl qəhrəmanlıq səhifəsi yazırlar.

Ordunun zəfərləri cəbhəni yanacaqla təmin edən Xəzər dənizçilərinin şücaətindən çox asılı idi. Dövlət Müdafiə Komitəsinin tapşırığına görə Xəzər dənizçiləri Bakıda istehsal olunmuş yanacaq və sürtkü yağlarını nəyin bahasına olursa-olsun Volqaya çatdırmalı, Bakı-Həştərxan-Stalinqrad neft konveyeri fasiləsiz işləməli idi.

Dənizçilərimiz dünya təcrübəsində ilk dəfə olaraq neftlə doldurulmuş sisternləri gəmilərin yedəyinə alıb aparırlar. Bu üsulla Bakıdan Krasnovodska neftlə dolu dəmiryol sisternləri, Mahaçqaladan Krasnovodska hər birinin ağırlığı beş ton olan neft çənləri daşıyırlar.

Artıq dənizçilərimizin əksər səfərləri düşmən aviasiyasının hücumları altında keçir. Məsələn, "Lenin" tankeri top atəşi ilə düşmən aviasiyasının 4 hücumunu dəf edir. "Azərbaycan" tankeri Həştərxan dəniz reydində alman təyyarələrinin şiddətli basqınına məruz qalır. Təyyarələr hər iyirmi-otuz dəqiqədən bir tankerə və barja atəş açırlar.

"Profintern" tankerinə dəniz reydində doqquz alman təyyarəsi hücum edir. Nəqliyyat və hərbi gəmilərdə qoyulmuş toplarla təyyarələrin hücumlarını dəf etmək mümkün olmur. Bombardmanlar nəticəsində 11, 33, və 75 saylı barjlar dənizdə batır.

Eyni intensiv həmləyə "Ağamalıoğlu" tankeri də məruz qalır...

Həmin illərlə bağlı Xəzər tanker donanmasının rəisi Mahmud Cəfərov xatirələrində belə yazırdı: "Gəmilər işıq siqnalı olmadan hərəkət edirdi. Nə limanlarda, nə də reyddə işıq yox idi. Təcrübədən və intuisiyadan istifadə edərək yol gedirdilər. Dənizçilər iki gün fasiləsiz növbə çəkirdilər. Hərdən onların yorğun, əzgin çöhrəsinə baxıb təəccüb edirdim ki, bu qədər qüvvəni, dözümü, iradəni haradan alırlar."

Dənizçilərimiz 1942-ci ilin yayında üç Sibir diviziyasını Həştərxan dəniz reydindən Mahaçqala limanına daşımaq barədə göstəriş almışdılar. Bu tapşırığın yerinə yetirilməsinə iri tankerlərlə yanaşı, "Volqa", "Krestyanin", "Raboçi", "Valeri Çkalov" kimi orta həcmli tankerlər də cəlb edilir. Diviziyalar Qroznıya vaxtında çatdırıldığından faşistləri dayandırmaq mümkün olur.

Sovet İttifaqı marşalı A.A. Qreçkonun yazdığı kimi, Xəzər kommunikasiyası faşistlər Qafqazdan qovulanadək mühüm kommunikasiya olaraq qalırdı. Çünki o vaxt bu kommunikasiya ölkəmizin şərq və mərkəzi rayonlarından Zaqafqaziyaya yeganə mühüm yük yolu idi. Qafqaz sıra dağlarının ətəklərini işğalçılardan təmizləməyə, bütün Şimali Qafqazı azad etməyə xeyli kömək etmiş qüvvələr məhz həmin yolla Qafqaza gətirilmişdi. (bax: "Bitva za Kavkaz", səh. 266 – 267).

Sovet Ordusunun Stalinqrad ətrafında 300 minlik faşist qoşunları qrupunun mühasirəsi ilə başa çatan əks-hücumu hazırlanarkən "Xəzərtanker" DMK-nın 1942-ci il 19 oktyabr tarixli qərarına əsasən şimala 36400 ton yanacaq daşımalı idi. Bunun üçün çox az, Həştərxanda naviqasiya bağlalanadək vaxt verilmişdi. Dənizçilər həmin səfərləri Xəzər Hərbi Donanmasının gəmilərinin müşayiəti ilə keçirirdilər. Budur, gəmi jurnallarından 1942-ci ilin avqustunda Həştərxan dəniz reydində işləri xarakterizə edən çıxarışlar:

"Lenin" tankeri, 7 avqust. Saat 18:13 dəqiqədə döyüş həyəcanı. 7 təyyarənin basqını...".

"VKP(b)" tankeri, 23 avqust: "Neft məhsulları boşaldılanda hərbi hissə və döyüş texnikası yüklənərkən saat 10:50 dəqiqədə "YU-88"-in basqını. İki bomba atdı. Bacarıqla manevr edildiyindən bombalar tankerə düşmədi. Gəmi artilleriyasının atəşi ilə düşmən təyyarəsinin basqını dəf edildi". Tankerin kapitanı "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuş Fətulla Fətullayev idi.

1942-ci il oktyabrın 27-də Həştərxana çatdırdığı 10 min ton benzini boşaldan "Ağamalıoğlu" gəmisi düşmən aviasiyasının hücumuna məruz qalır. "Ağamalıoğlu" tankerinə dörd bombardmançı basqın edir. Düşmənin atdığı 15 bombadan biri tankerin arxa tərəfinin yaxınlığında düşür, ikinci bomba sağ bortun kənarında partlayır. Gəmi manevr edərkən saya oturur. Növbəti bomba komandir körpüsünə düşənədək düşmənlə ölüm-dirim savaşı gedir. Gəmidə yanğın başlayır. Topçular dəstəsi həlak olur. Tankerin ağır yaralanmış kapitanı Əlibala Rəcəbov və bosman R. Mışkin öz postlarını tərk etmirlər. Yaxınlıqda olan "Jdanov" gəmisi hava hücumunu dəf edərək "Ağamalıoğlu" gəmisinin köməyinə gəlir. Lakin "Jdanov" tankerə yaxınlaşana kimi, heyət təcrübəli kapitanın rəhbərliyi ilə yanğını söndürə bilir.

Çox təəssüf ki, həmişə böyük itkilərsiz ötüşmək mümkün olmur. Məsələn, "Kaspflot"un Bakıdan Krasnovodska mühüm yük aparan "Molot" gəmisi 18 nəfərlik heyətlə 1942-ci il oktyabrın 24-də dənizdə yoxa çıxır. Oktyabrın 27-də isə düşmən aviasiyası "Kuybışev" gəmisini bütün heyəti ilə birlikdə dənizin dərinliklərində qərq edir...

Təkcə 1942-ci il naviqasiyası dövründə Xəzər ticarət donanmasının 46 gəmisi düşmən təyyarələrinin hücumuna məruz qalır, bu gəmilərin 14-ü batır. Bütün bunlara baxmayaraq, dənizçilərimiz ölümün gözünə dik baxa-baxa daşımalarla bağlı bütün tapşırıqları mətanətlə yerinə yetirirlər.

1942-ci ilin sonu, 1943-cü ilin əvvəlləri Xəzər dənizçiləri üçün həm də Stainqrad döyüşləri ilə əlaqədar ağır sınaq ili olur. İstər hərbi yüklərin, istərsə də neft məhsullarının döyüşən Stalinqrada çatdırılmasında dənizçilərimiz, sözün əsil mənasında, qəhrəmanlıq göstərirlər. Hətta Həştərxan rayonunda Volqa çayının donmasından sonra buzu dinamitlə partlatmaqla Stalinqradın müdafiəçilərinə 100 min ton maye yanacaq çatdırırlar.

...Azərbaycan dənizçilərinin müharibə illərində hansı gərginliklə işlədiklərini sübut edən digər faktlar da vardır. Məsələn, 1942-ci il iyulunda Xalq Dəniz Donanması komissarı Dövlət Müdafiə Komitəsinin qərarını Bakıya çatdırır: "Hökumətin qərarı ilə Bakıdan Krasnovodska bir ay ərzində 100 parovoz və 500 neft çəni daşınsın. Daşımalar tankerlərlə həyata keçirilsin".

Orta tonnajlı "Volqa", "Fəhlə", "Kəndli" tankerləri və iritonnajlı "Komintern", "Sryupa" və "ÜK(b)P" gəmiləri dərhal hökumətin bu tapşırığının vaxtında yerinə yetirilməsinə cəlb edilir. Dövlət Müdafiə Komitəsinin Bakı və Qroznı şəhərlərindən 1942-ci ilin sentyabrında Krasnovodska 500 000 ton, oktyabrda 600 000 ton, noyabrda artıq 800 000 ton yanacaq daşınması tələbi isə donanmamızın yükdaşıma imkanlarını dəfələrlə üstələyir. Gəmi çatışmır. Gəmiçiliyin zavodlarında gəmilər inşa etmək qərara alınır. Vano Sturua adına zavod 100 ton yükgötürmə qabiliyyətinə malik 11 dəmir-beton şxunun, "Paris Kommunası" adına zavod isə 3 taxta yedək gəmisinin inşasına başlayır...

Rəşadətli əməyinə, qəhrəmanlığına və igidliyinə görə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 1534 işçisi SSRİ-nin orden və medalları ilə təltif olunur.

*PS. Bəli, Azərbaycan nefti, bir də, neftçilərimizin min cür əziyyətlə istehsal etdikləri "qara qızıl"ı düşmən aviasiyasının həmlələri altında cəbhəyə çatdıran dənizçilərimizin əfsanəvi fədakarlığı olmasaydı, alman faşizminin zülmündən əziyyət çəkən heç bir ölkəyə qələbəni qeyd etmək müyəssər olmazdı. Ən qəribəsi isə budur ki, həmin ölkələrin əksəriyyəti bu gün erməni faşizminə göz yumur... Təəssüf, çox təəssüf!*

***Rasif TAHİROV***



## GƏMİ TƏMİRİ

# Zavodlarımızda bütün mürəkkəb təmir əməliyyatlarının öhdəsindən məharətlə gəlirlər

*Vaxtaşırı gəmi təmirçilərinin əlinin sığalını görməyən gəmilərlə yerə-göyə meydan oxuyan dalğalar qoynunda çox uzağa getmək mümkün deyil. Gəmilərin sazlığı uğurlu səfərlərin ilk təminatıdır.*









Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin “Zığ” Gəmi Təmiri və Tikintisi və “Bibiheybət” Gəmi Təmiri zavodlarında ən müxtəlif gəmilərin sazlığını təmin etməyin, ömrünü uzatmağın yollarını çox yaxşı bilirlər.

XIX əsrin ortalarında Azərbaycanda neft hasilatının sürətli artımı gəmiçiliyin inkişafına təkan verir. Bakıda neftdaşıyan donanmanın sıralarının genişlənməsi gəmi təmiri sahəsinin yaradılmasını tələb edir.

Azərbaycanda gəmi təmiri emalatxanalarının yaradılmasına ilk təşəbbüs 1853-cü ildə göstərilir. Qafqaz canişini knyaz M. Voronstov Dəniz Nazirliyinə müraciət edərək Bakıda gəmi təmiri emalatxanalarının tikilməsini xahiş edir. Lakin Bakıda ilk gəmi təmiri emalatxanası 13 il sonra, 1866-cı ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sələfi olan “Qafqaz və Merkuri” Səhmdar Cəmiyyəti tərəfindən yaradılır. Bu da ehtiyacı ödəmədiyindən 1876-cı ildə Bakının Qaraşəhər ərazisində elling tikilir. Gəmi təmiri gəlirli sahə olduğuna görə, ayrı-ayrı sahibkarlar da belə emalatxanaların yaradılmasına səxavətlə pul xərcləyirlər. Məsələn, 1878-ci ildə A.Dondukdov-Korsakov Bakıda gəmi təmiri firmasını yaradır. 1887-ci ildə isə H.Z. Tağıyev, D.Ş.Dadaşov və Ə. Dadaşov digər sahibkarlarla birlikdə “Bakı doku” firmasını təsis edirlər. 1889-cu ildə “Bakı doku”nun ikinci tərsanəsinin və mexaniki zavodun tikintisinə başlanır. Bununla da Gəmiçiliyin keçmiş “Paris Kommunası” adına Gəmi təmiri zavodunun bünövrəsi qoyulur.

1893-cü ildə isə Nobel qardaşları keçmiş “Zaqfederasiya” adına Gəmi Təmiri Zavodunun yerində özlərinin gəmi təmiri emalatxanalarını tikirlər. XIX əsrin sonu XX əsrin əvvəllərində artıq Bakıda 9 gəmi təmiri emalatxanası fəaliyyət göstərir. Statistik məlumatlara görə, 1884-1914-cü illərdə Bakıdakı mexaniki gəmi təmiri müəssisələrində və iki ellinqdə 95 gəmi təmir olunur və 12 gəmi tikilir.

Əvvəllər keçmiş Vano Sturua və Dadaş Bünyadzadə adına Gəmi təmiri zavodları müstəqil müəssisə kimi fəaliyyət göstərirlər. Birincisi 1931-ci ildə, ikinci zavod isə 1942-ci ildə yaradılır. Ötən əsrin 90-cı illərinin ortalarında idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə bu müəssisələr birləşdirilir.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bütün müəssisələr milliləşdirilir. “Paris Kommunası” zavodu 19 müxtəlif sexdən ibarət güclü gəmi təmiri bazasına çevrilir. O vaxt dağılmış xalq təsərrüfatının bərpasında, xüsusən Rusiyanın mərkəzi rayonlarında sənaye müəssisələrinin işləkliyinin təmin olunmasında Azərbaycan neftinin və Xəzər Dəniz Gəmiçiliyinin müstəsna xidməti var idi. Ona görə, donanma ilə bərabər, gəmi təmiri müəssisələri də gücləndirilir. Misal üçün, 1926-1928-ci illərdə zavodda bir-birinin ardınca mexaniki, dəmirçi, tökmə, elektrik və nəqliyyat sexləri... tikilib istifadəyə verilir. Müəssisəyə həm xaricdə, həm də ölkədə istehsal olunmuş avadanlıqlar gətirilir. Otuzuncu illərdə Xəzər Dəniz Gəmiçiliyi kadrlar korpusunu möhkəmləndirmək üçün “Qırmızı dəmirçixana” məktəbi yaradır. Bu məktəbdə gəmi təmiri üçün müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Kadr məsələsinin həlli mövcud dəzgahlardan daha səmərəli istifadə olunmasına imkan verir. Bəzi sexlər iki növbə işləyir.

İkinci Dünya müharibəsi başlanana kimi Bakıda mövcud olan gəmi təmiri müəssisələri çox sürətlə inkişaf edir. Gəmi təmirçiləri gəmiləri vaxtında və keyfiyyətlə sazlayaraq istismarçılara təhvil verirlər. Müharibə başlananda sonra gəmi təmirçilərinin çoxu cəbhəyə gedir. Onları qadınlar əvəz edir. Müəssisələrimiz gəmiləri təmir etməklə bərabər, həm də hərbi sursat istehsal edirlər.

Müharibədən sonrakı illərdə istər donanmada, istərsə də gəmi təmiri müəssisələrində böyük işlər görülür. Keçən əsrin 50-ci illərinin ortalarından başlayaraq donanma istər xaricdə, istərsə də ittifaqda tikilən daha mükəmməl və böyük tutumlu gəmilər hesabına zənginləşir.

1962-ci ildə o vaxt Avropada ən böyük Bakı-Türkmənbaşı-Bakı gəmi-bərə keçidi istismara verilir. Təbii ki, bütün bunlar gəmi-təmiri müəssisələrinin də inkişafına təkan verir. 12-13 min tona qədər subasımı olan gəmilərin qəbul edilməsi üçün körpülərin tikilməsi, yeni sexlərin yaradılması, məhsul istehsalı donanmanın tələbatına uyğun həyata keçirilir. 60-cı illərdə “Paris Kommunası” adına zavod nəqliyyat donanmasının təmirində qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyinə görə “Şərəf nişanı” ordeni ilə təltif olunur.

2013-cü ildə “Paris Kommunası” və “Zaqfederasiya” adına gəmi təmiri zavodlarının bazasında yaradılan “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu bütün zəruri dok təsərrüfatı və sahil gəmi təmiri vasitələrinə malikdir.

“Bibiheybət” Gəmi Təmiri Zavodu Xəzər Dəniz Neft Donanmasının tərkibində 1949-cu ildə gəmi təmiri emalatxanası kimi fəaliyyətə başlamışdır. 2013-cü ildə keçmiş Vano Sturua adına zavod da “Bibiheybət” Gəmi Təmiri Zavoduna birləşdirilib. Hazırda “Bibiheybət” Gəmi Təmiri Zavodunun strukturuna Mexaniki-təmir, Gövdə-qaynaq, Tərsanə, Tökmə, Enerji-mexaniki xidmət, Ağac emalı, Elektrik-quraşdırma, Boya istehsalı və sair bölmələr daxildir.

“Bibiheybət” və “Zığ” gəmi təmiri zavodlarında gəmi-bərələrin, tankerlərin, universal quru yük, sərnişin, yedək-təchizat gəmilərinin, üzən qazma qurğularının... təmiri yüksək keyfiyyətlə həyata keçirilir. Yüksəkixtisaslı mütəxəssislər bütün mürəkkəb təmir əməliyyatlarının öhdəsindən birqayda olaraq məharətlə gəlirlər.

***“DƏNİZ”***













# Bərə komplekslərinin layihələndirilməsinin ən çox etibar edildiyi "Xəzərdənizlayihə ETİ"

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutu ("Xəzərdənizlayihə ETİ" ) fəaliyyətə 1930-cu ildə keçmiş SSRİ Dəniz Donanması Nazirliyinin eyni adlı institutunun filialı kimi başlayıb.***













Azərbaycan Respublikası Prezidentinin 27.08.1991-ci il tarixli Fərmanına əsasən institut respublikanın ərazisində yerləşən və keçmiş ittifaqın tabeliyində olan təşkilat kimi Azərbaycan dövlət idarəetmə sisteminə keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07.06.1993-cü il tarixli 292 nömrəli qərarı ilə isə Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura İşləri Komitəsinin tabeliyinə verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.08.1995-ci il tarixli 186 nömrəli qərarı ilə institut Dövlət Tikinti və Arxitektura Komitəsinin tərkibindən çıxarılaraq Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tabeliyinə verilmişdir.

Müxtəlif illərdə instituta Ağa Xəlilov, Mixayıl Volkov, Fərəməz Mustafayev, Tamilla Bağırova, Anatoli Hüseynov, Fazil Qəhrəmanov rəhbərlik etmişlər. Üç ildir ki, Oyrad Abdullayev "AXDG" QSC-nin rəhbərliyinin dəstəyi ilə kollektivin qüvvəsini qarşıda duran vəzifələrin layiqicə yerinə yetirilməsinə səfərbər etməklə həm də direktor kimi ona bəslənilən etimadı doğruldur.

Zəngin tarixi olan "Xəzərdənizlayihə ETİ" Suriyada, Liviyada, İranda, Bolqarıstanda və sair ölkələrdə də layihə-axtarış işləri aparmışdır.

Kollektiv keçən əsrin 60-cı illərindən dəniz bərə komplekslərinin layihələndirilməsi işlərinin öhdəsindən böyük müvəffəqiyyətlə gəlmişdir. Bakı, Türkmənbaşı, Bekdaş limanlarında bərə komplekslərinin layihələri məhz bu institutda hazırlanıb. İnstitutun layihələri üzrə həmçinin Saxalin adasını materiklə birləşdirən Vanino - Xolmsk, İliçevsk - Varna (Ukrayna - Bolqarıstan), Klaypeda - Mukran (Litva - Almaniya) bərə keçidləri inşa edilib. Bakının Qaradağ rayonunda yerləşən Dərin Özüllər Zavodunun hidrotexniki qurğularının inşası, gəmi təmiri zavodlarının və gəmi üzgüçülüyü kanallarının rekonstruksiyası, ictimai və yaşayış binalarının, müxtəlif qurğuların tikintisi üzrə layihələrin də müəllifi bizim institutdur.

Kollektivin liman komplekslərinin layihələndirilməsində də təcrübəsi az deyil. Xəzər dənizi hövzəsində Bakı, Dübəndi, Türkmənbaşı, Mahaçqala, Bektaş, Aktau və sair limanların layihə-smeta sənədlərinin tələblərini də məhz institutun əməkdaşları işləmişlər.

İxtisaslamış elmi-tədqiqat və layihə təşkilatı olduğuna görə, "Xəzərdənizlayihə ETİ" uzun müddət ölkəmizin dəniz sahillərində sahilbərkitmə və mühəndis axtarış işlərini yerinə yetirmişdir. Azərbaycanın dəniz sahili 825 kilometrdir. 160 km dəniz sahil zonası institut tərəfindən diqqətlə öyrənilmişdir. Başqa sözlə, Bakı buxtası (Şıxov burnundan Sultan burnuna kimi 31 km), Lənkəran rayonunun Olxovka kəndindən Astara çayına qədər 40 km, Xaçmaz rayonunun Nabran qəsəbəsindən Nizavoy kəndinə qədər 35 km və s. Kollektiv Lənkəran və Astara rayonlarında 7 km-lik vacib sahilbərkitmə işlərinin layihə-smeta sənədlərini hələ keçən əsrin 90-cı illərinin əvvəllərində hazırlamışdır.

Son illərdə institut ölkə əhəmiyyətli bir neçə hidrotexniki qurğular kompleksinin layihə-smeta sənədlərini hazırlamışdır. Bu komplekslərdən Bakı buxtasında "Quru yük limanı" məntəqəsinin, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun tikinti kompleksinin işçi layihəsinin hazırlanması da təcrübəli kollektivə edibar edilmişdi.

Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutunda 2017-ci ildən bəri "AXDG" QSC-nin rəhbərliyinin dəstəyi ilə "CADMATIC" proqramından istifadə edilir. Bu proqram təminatı institutun işinin keyfiyyətini artırır, gəminin tikilməsi üçün tələb olunan texniki sənədləri sürətli hazırlamağa imkan verir. Bu gün institut gəmi və hidrotexniki qurğular layihələndirir, onların sənədləşdirilməsini həyata keçirir.

Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutunun direktoru Oyrad Abdullayev deyir ki, onlar "CADMATIC" proqramını təkcə asan istifadəsinə görə seçməyiblər. Bu proqram təminatı digər dizayn sistemləri ilə müqayisədə daha sürətli və dəqiqdir. "CADMATIC" dəniz dizayn sahəsində ən yaxşı həllərdən biridir. Onun istifadəsi və tətbiqi effektivdir. Proqram instituta gəminin 3D formatında modelini formalaşdırılmasına imkan verir.

İnstitut "CADMATIC" proqramından istifadə edərək sonuncu dəfə çoxfunksiyalı yedək gəmisi hazırlayıb. Gəmi tək göyərtəyə malikdir. Beş su keçirməyən bölmədən və maşın şöbəsindən ibarətdir.

"CADMATIC" layihə sənədlərini tez istehsala göndərməyə imkan verir. Əvvəllər bu daha çox vaxt tələb edirdi. Başqa sözlə, "CADMATIC" işi asanlaşdırır, vaxta qənaət etməyə imkan verir və dəyişikliklərin yoxlanmasını sürətləndirir. İndi model və təsvirlər arasında sinxronizasiya paralel həyata keçirilə bilər.

İnstitut "CADMATIC"in "eBrowser" dizayn baxış vasitəsini də istifadə edir. Bu, istifadəçilərə üçölçülü modeldən keçməyə, bir neçə modeli birləşdirməyə və ya müqayisə etməyə imkan verir. Hər hansı blok və nəzarət dəyişiklikləri haqqında məlumatları asanlıqla tapır. İnstitut gələcəkdə gəmilərin layihələndirilməsi ilə bağlı sifarişlərin çoxalmasını nəzərə alaraq "CADMATIC" lisenziyalarının sayını artırmaq niyyətindədir.

Oyrad Abdullayev deyir ki, "CADMATIC" nə qədər mükəmməl olsa da, proqram təminatı bir alətdir. Buna görə də layihələndirmə prosesində təcrübəli kadrlardan istifadə olunur. İnstitutda gəmilərin proqram təminatının tətbiqinin təşkilində donanmanın texniki direktoru Nurməhəmməd Talıbovun və Dəniz Mühəndisliyi Bürosunun baş direktoru Genadiy Yeqorovun xüsusi dəstəyi və zəhməti var.

Hazırda institut "AXDG" QSC-nin Xəzər Dəniz Neft Donanması üçün yeni üzən vasitələr - 300 kVt gücə malik olan təchizat, dənizin 60 metrədək dərinliklərində işləyə biləcək dalğıc, habelə sahilboyu dəniz neft obyektlərinə işçiləri çatdırmaq üçün 70 nəfərlik katerləri layihələndirməklə məşğuldur.

***Rasif TAHİROV***

**İqtisadiyyatda, mədəniyyətdə, elmdə - həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir.**

*Heydər ƏLİYEV,*
*Ümummilli Lider*

**Cəmiyyətin gücünü müəyyən edən insanlardır. Əlbəttə, hər bir ölkənin öz təbii resursları, öz coğrafi üstünlükləri vardır. Ancaq nəticə etibarı ilə hər şey insanlardan asılıdır. Sənin neftin də, qazın da çox ola bilər, əgər peşəkar insanların, kadrların yoxdursa, bunun heç bir əhəmiyyəti olmayacaqdır. Ona görə, müasir dünyada həm özünə yer tapmaq, həm özünə fayda gətirmək üçün mütləq uşaqlar yaxşı oxumalıdır.**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

# Dənizdən güclü olmağı öyrədən təhsil ocağı

## Gəmiçilik donanma və müəssisələrində yalnız yüksəkixtisaslı mütəxəssisləri görmək istəyir

*Azərbaycanda dənizçilik təhsilinin tarixi nə vaxtdan başlayıb? Ölkəmizdə ali dənizçilik biliyi verən yeganə təhsil ocağımız bu gün hansı qayğılarla yaşayır? Azərbaycan Dövlət Dəniz Akademiyası dünyanın qabaqcıl təhsil sisteminə necə inteqrasiya edir? Dənizçilik təhsilinin keyfiyyətini artırmaq üçün daha hansı zəruri tədbirlərə ehtiyac var?*










### BİR AZ DÜNƏNİNDƏN

On doqquzuncu əsrin əvvəllərində neft sənayesinin inkişafı gəmiçiliyin də inkişafına təkan verdi. Xəzərdə neft daşınmasında istifadə olunan taxta barjlar və çəlləkləri tankerlərlə əvəz etməyə başladılar. Xəzər dənizində buxarla işləyən gəmilərin sayı artmağa başladı. Təkcə 1875-ci ildə Xəzərə Bakı qeydiyyatlı 5 buxar gəmisi gətirildi. XIX əsrin əvvəllərində Xəzərdə təxminən 60-a yaxın yelkənli gəmi olduğu halda, 1889-cu ildə ayrı-ayrı səhmdar cəmiyyətlərə və gəmi sahiblərinə məxsus maye yüklər daşıyan 345 gəmi üzürdü. Bunlardan 212-si yelkənli, 133-ü buxar gəmisi idi.

Aydın məsələdir ki, yeni gəmilərin istismarı üçün ən əvvəl ixtisaslı kadrlar tələb olunurdu. Bakı qeydiyyatlı gəmilərdə 1500 azərbaycanlı dənizçinin, o cümlədən 248 losmanın üzməsinə baxmayaraq, onlar demək olar ki, nəzəri biliyə malik deyildilər və yalnız şəxsi təcrübələrinə güvənərək açıq dənizə çıxırdılar. O dövr üçün yeni gəmilərdə işləyə bilən dənizçilərə kəskin ehtiyacı ödəmək məqsədilə 1881-ci il noyabrın 8-də Bakıda dənizçilik təhsilinin əsasını qoyan siniflər açıldı. Əsasnaməyə görə, dənizçilik siniflərinə dəniz və çay donanmalarında üzən şəxslər qəbul edilirdi. Əsasən yaşlı dənizçilərin cəlb edildiyi bu sinifləri hər il 25-30 gəmi sürücüsü və 15-18 şkiper bitirirdi. Dənizçilik siniflərində dərslər noyabrın 1-dən aprelin 1-dək keçirilirdi. Bu da təsadüfi deyildi. Qış mövsümündə Həştərxana dəniz yolu bağlandığından yelkənli və buxarla işləyən donanma yaz-yay mövsümünün açılışını Bakı limanında gözləyirdi.

1886-cı ildə dənizçilik sinifləri nəzdində gəmi mexanikləri kursu fəaliyyətə başlayır. 1881-1902-ci illərdə dənizçilik kurslarını bitirən 945 nəfərdən 126-sı azərbaycanlı idi. 1902-ci il iyulun 1-də dənizçilik sinifləri 3 illik Bakı uzaq səfərlər məktəbinə çevrilir. 1921-ci il oktyabrın 1-dən məktəbdə axşam şöbəsi də təşkil edilir və Bakı uzaq səfərlər məktəbi nəzdində Su nəqliyyatı texnikumu yaradılır. Su yolları texnikumu kimi fəaliyyət göstərən bu təhsil ocağı 3 il sonra, 1924-cü ildə Xəzər Dəniz Gəmiçiliyinin tabeliyinə verilir. O vaxtdan dənizçilər öz təhsil ocaqlarının səmərəli fəaliyyəti üçün qazanclarından səxavətlə vəsait ayırmağa başlayırlar. 1925-ci ildə məktəbdə Azərbaycan bölməsi açılır. Bu addım donanmada milli kadrların sayının artmasına təkan verir. Minlərlə azərbaycanlıya mavi sular qoynuna vəsiqə verən bu məktəb 1930-cu ilin yazından Bakı dəniz texnikumu, 1944-cü ilin martından isə Bakı dəniz yolları məktəbi kimi fəaliyyətini davam etdirir.

Bakı dəniz yolları məktəbinin məzunları arasında kifayət qədər təcrübəli, mahir gəmi kapitanları və mexaniklər olsa da, əksəriyyətinə Dünya okeanına çıxmaq müyəssər olmurdu. Niyə? Çünki dünya sularına çıxmaq üçün keçmiş SSRİ Dəniz Donanması Nazirliyi tərəfindən dənizçilərimizin qarşısında qoyulan çoxsaylı tələblərdən biri də dənizçilik ixtisasları üzrə ali təhsil diplomu idi. Ölkəmizdə gəmiçiliyin inkişafı Azərbaycanda ali təhsilli dənizçi kadrlar hazırlayan məktəbin yaradılmasını tələb edirdi. Dənizçilərimizin bu arzusunu xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra Ulu Öndərimiz Heydər Əliyev gerçəkləşdirdi. O vaxta kimi isə Gəmiçiliyin bu xoş niyyətini ya qulaqardına vurur, ya da Azərbaycanda belə təhsil ocağına ehtiyac olmadığını israr edirdilər.

### BİR AZ BU GÜNÜNDƏN

Azərbaycanda gəmiçiliyin inkişafının gənc milli kadrların yetişməsindən, dənizçilik təhsilinin səviyyəsindən asılı olduğunu gözəl anlayan, hələ müstəqilliyimizin ilk illərində ölkədə təhsili milli dövlət quruculuğunun vacib şərti kimi əsas vəzifələr sırasına çəkən xalqımızın müdrük oğlu, Ümummilli liderimiz Heydər Əliyev dənizçilərin təşəbbüsünü təkcə alqışlamadı. Məhz onun xeyir-duası ilə 1996-cı il iyulun 15-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 91 saylı qərarı ilə Bakı dəniz yolları məktəbinin bazasında Azərbaycan Dövlət Dəniz Akademiyası yaradıldı. Hazırda ölkəmizdə nüfuzlu təhsil müəssisələrindən olan ADDA 2000-ci ildə Beynəlxalq Dəniz Təşkilatının (İMO) dəniz təhsili məktəbləri kataloquna 012 nömrəsi altında daxil edilmişdir. Bu isə o deməkdir ki, ADDA-nın verdiyi diplom və sertifikatlar beynəlxalq səviyyədə tanınır.

2002-ci ilin oktyabrında Akademiya dənizçi mütəxəssislərin hazırlanması sahəsində keyfiyyətin menecmenti sistemi üzrə İSO 9001-2000 Beynəlxalq standartına uyğun sertifikata layiq görülmüşdür. Bu sahədə işlər davam etdirilərək, hazırda Akademiyada İSO 9001-2015 keyfiyyətin menecmenti sistemi tətbiq edilir.

ADDA Beynəlxalq Dəniz Universitetləri Assosiasiyasının (IAMU), Sankt-Peterburq şəhərindəki Admiral S.O. Makarov adına Dövlət Dəniz və Çay Donanması Universiteti tərkibində fəaliyyət göstərən MDB ölkələri ali dənizçilik məktəblərinin tədris-metodiki şurasının üzvüdür.

ADDA bir çox xarici ölkələrin ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir. Şetsin Dəniz Akademiyası (Polşa), Varna Texniki Universiteti (Bolqarıstan), Latviya Dəniz Akademiyası, Odessa Milli Dəniz Universiteti, Odessa Texniki Nizamlama və Keyfiyyət Akademiyası (Ukrayna), F.F.Uşakov adına Novorossiysk Dövlət Dəniz Universiteti, Batumi Dəniz Akademiyası (Gürcüstan), Ş. Yesenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universiteti (Qazaxıstan)... ilə işgüzar əməkdaşlığı davam etdirmək və genişləndirmək niyyətindədir.

Dəniz Akademiyası respublikada yeganə ali təhsil müəssisəsidir ki, diplomunu 170-dən çox dövlət tanıyır. Akademiyada professor-müəllim və tələbə heyətinin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Elektron kitabxana, trenajor və kompyuter mərkəzləri, müasir laboratoriyalar və fənn kabinetləri... Ən müasir trenajorlar, laboratoriyalar peşəkar kadrlar hazırlamağa imkan verir. Təkcə bu il Gəmiçilik rəhbərliyinin tövsiyəsi ilə xaricdən 10 laboratoriya dəsti alınaraq quraşdırılıb. Bütün tələbələrə pulsuz forma verilir. Həftənin 5 tədris günü tələbələr ödənişsiz yeməklə (səhər yeməyi və naharla) təmin olunurlar. Bundan başqa, yüksək standartlara cavab verən yataqxana da gənclərin ixtiyarındadır. Məhz bunun nəticəsidir ki, 2018-ci ildə Akademiyanı 9 tələbə fərqlənmə diplomu ilə bitirib.

### İNDİ TƏLƏB BAŞQADIR...

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə işləyib hazırladığı və möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla həyata keçirdiyi neft strategiyasının əfsanədən reallığa çevrilməsində şərəfli peşə sahibləri olan dənizçilərin də böyük xidməti var. Dənizçilərimiz həmçinin Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Xəzərdən keçən hissəsində yükdaşımaları həyata keçirir, Xəzərdənkənar sularda mövqelərini ildən-ilə möhkəmləndirirlər. Başqa sözlə, bugün Gəmiçiliyin həmişəkindən daha savadlı, daha bilikli kadrlara ehtiyacı var. Donanmalarımız ən müasir gəmilər hesabına zənginləşir. Gəmiqayırmanın son nailiyyətləri əsasında inşa edilmiş nəqliyyat vasitələrində üzmək üçünsə ilk növbədə yüksəkixtisaslı kadrlar tələb olunur. Elə buna görə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi bu təhsil ocağının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəmir. Əvəzində isə Akademiyanın professor-müəllim heyətindən bir şey tələb olunur: Azərbaycan Dövlət Dəniz Akademiyasında yalnız yüksəkixtisaslı mütəxəssislər hazırlanmalıdır. Gəmiçilik yalnız belə mütəxəssisləri donanma və müəssisələrində görmək arzusunu gizlətmir.

ADDA-da məqsədə doğru inamla addımlayırlar. Təhsilin keyfiyyətini dünya standartları səviyyəsinə çatdırmaqla bağlı həyata keçirilən tədbirlər nəticəsiz qalmır. Regionda ali dənizçilik təhsili verən yeganə akademiyanın adı artıq respublikamızın hüdudlarından çox-çox uzaqlarda da hörmətlə çəkilir. Cəmi 22 il əvvəl yaradılmasına baxmayaraq, bu təhsil ocağından görüb-götürüləsi şeylər az deyil. Öz istiqamətini olan, 2018-ci ildən artıq Azərbaycan və rus bölmələri ilə yanaşı, ingilis dilində də tədrisə başlayan ADDA-nın nüfuzu, dənizçilik təhsilində rolu barədə burada oxumaq istəyən xarici tələbələrin sayının ildən-ilə artması da çox şey deyir.

Akademiyada tələbələrin potensialının üzə çıxarılması üçün görülən işlər öz bəhrəsini verir. Müxtəlif elmi konfranslarda, olimpiadalarda iştirak edənlər arasında mükafata layiq görülənlər az deyil. ADDA-da hər il "Su nəqliyyatının problemləri" mövzusunda beynəlxalq elmi-texniki konfrans, "Dil – karyeraya gedən yol" ənənəvi ümumrespublika müsabiqəsi də keçirilir.

Tələbələrin bilik və bacarığının aşkarlanmasında, hərtərəfli dünyagörüşə malik ixtisaslı kadrlar kimi yetişməsində müəllimlərin pedaqoji məharəti mühüm rol oynayır. Bu baxımdan ADDA-da oxuyan tələbələrin bəxti gətirib. Burada təcrübəli, öz işini ürəkdən sevən pedaqoji kadrlar çalışır. Onlar tələbələrin nəzəri hazırlığı ilə yanaşı, ilkin təcrübi keyfiyyətlərə yiyələnmələrinə xüsusi fikir verirlər.

Tələbələrin hazırlıq sisteminin təkmilləşdirilməsinə, lazımi səviyyəyə yüksəldilməsinə yönəlmiş tədbirlər nəticəsiz qalmır. İstehsalat təcrübələri bu baxımdan az əhəmiyyət daşımır. Tələbələrin yay aylarındakı istehsalat təcrübələrinin səmərəli keçməsində bugün tələbə də, Akademiya da, yüksəkixtisaslı kadrlara ehtiyacını gizlətməyən müəssisə və təşkilatlar da eyni dərəcədə maraqlıdırlar. Bu isə yaxşı mənada çox şey vəd edir...

Bu il ADDA-ya qəbul 4 ixtisas üzrə aparılıb. Bunlar "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi", "Gəmi energetik qurğularının istismarı mühəndisliyi", "Dəniz naviqasiyası mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarıdır. Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev deyir ki, ildən-ilə ADDA-ya yüksək balla qəbul olanların sayında artım müşahidə edilir. Bu il tələbə adını qazananların iyirmi doqquzu 500-600, üçü isə 600-700 arası bal toplayıb. Akademiyada təhsil alan xarici tələbələrin sırasına cari ildə 2 Türkmənistan və 4 Türkiyə vətəndaşı da qoşulub.

Ötən ildən təhsildə fərqlənən tələbələrə "AXDG" QSC-nin hesabına əlavə təqaüd verilir. Artıq bu imkandan ADDA-nın 60-dan çox tələbəsi yararlanıb. Təhsil müəssisəsini yaxşı qiymətlərlə bitirənlərə işlə təmin olunmaları üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zəmanət Məktubu" təqdim edilir. Bundan başqa, Azərbaycan Dövlət Dəniz Akademiyası tələbələrinin beynəlxalq standartlara uyğun inkişafının təmini və peşəkarlığının artırılması məqsədilə gələcəyin dənizçiləri AXDG-nin xarici sularda üzən gəmilərində təcrübə keçirlər. Bu fürsətdən ötən tədris ilində 10-dan çox tələbə faydalanıb. Eyni zamanda "AXDG" QSC-nin Təqaüd Proqramına uyğun olaraq hər il magistr təhsili almaq üçün ADDA məzunlarının dünyanın nüfuzlu ali məktəblərinə göndərilməsinə şərait yaradılır.

*PS. İndi dünyanın istənilən yerində yalnız və yalnız yüksəkixtisaslı kadrlara "Gözüm üstə yerin var" deyirlər. Bunu yəqin ki, arzu etdikləri ixtisasa yiyələnmək üçün Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olanlar da bilməmiş deyillər. Bilmədiklərini bu təhsil ocağında onlara öyrətməyə borclu olanlar, bir az da... həyat öyrədir.*

**Rasif TAHİROV**

**Ömrü dağ çayına bənzəyir: gah kükrəyib coşan, gah da sakit axan dağ çayına. Bütün həyatı gərgin əmək və ictimai fəaliyyətdə keçdiyindən illərin sürətindən də, saçlarının qar kimi nə vaxt ağardığından da xəbər tutmayıb. Söhbət "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Donanmanın istismar-kommersiya departamentinin bərələr üzrə mütəxəssisi Nikolay İvanoviç Trişovdan gedir. Dövlət başçımızın "Dənizçi günü" ərəfəsində imzaladığı sərəncamla üçüncü dərəcəli "Əmək ordeni" ilə təltif olunmasına sevinənlərdən biri də mən idim. Axı onu çoxdan, hələ keçən əsrin səksəninci illərinin əvvəllərindən tanıyıram. Həmişə yüksək daxili mədəniyyəti, zəngin mənəviyyatı ilə seçilib. Əllərinin qabarına, alnının tərinə güvəndiyi vaxtlarda da, müxtəlif yüksək vəzifələrdə çalışanda da səmimiliyi, sadəliyi, təvazökarlığı ilə hamının hörmətini qazanıb.**



*"Əmək" ordenlimiz*

# "Gəmiçilikdə kimsə deyə bilməz ki, yaxşı işi diqqətdən kənarda qalır"

***- Nikolay İvanoviç, əvvəlcə sizi həm "Əmək" ordeninə layiq görülməyiniz, həm də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyi münasibətilə "Dəniz"in çoxsaylı oxucuları adından təbrik edirəm.***

-Çox sağ olun. Mən də doğma Gəmiçiliyin bütün işçilərini şanlı yubiley münasibətilə ürəkdən təbrik edirəm.

***- Belə yüksək mükafatla təltif olunacağınızı gözləyirdiniz?***

-Yox. Elə buna görə dövlətimizin başçısı möhtərəm İlham Əliyev cənablarına və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf müəllimə minnətdaram.

***- Səhv etmirəmsə, bu, sizin ilk dövlət təltifiniz deyil?! Sinənizi həm də "Tərəqqi" medalı bəzəyir.***

- Doğrudur. Amma hər mükafatın öz sevinci var.

***- Sizi yaxşı tanıdığımdan, bilirəm ki, işinizə həmişə böyük məsuliyyətlə yanaşırsınız. İşə vicdanlı münasibətinizin diqqətdən kənarda qalmadığını görmək sizdə hansı duyğular oyadır?***

- Əvvəla "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində çalışanlardan kimsə deyə bilməz ki, işə can yandırır, amma əməyi diqqətdən kənarda qalır. Təbii ki, işçiyə belə diqqət hər kəsə, o cümlədən mənə də çox xoşdur.

***- Bəlkə ömür yolunuza bir işıq salasınız...***

- 1941-ci il martın 31-də Bakıda fəhlə ailəsində dünyaya göz açmışam. 1949-1951-ci illərdə orta məktəbdə oxumuşam. Əmək fəaliyyətinə 1957-ci ildə keçmiş Dadaş Bünyadzadə adına Gəmi təmiri zavodunda çilingər köməkçisi kimi başlamışam. İstehsalatdan ayrılmadan Bakı Dəniz Yolları Məktəbində gəmi təmiri ixtisasına yiyələnmişəm. 1961-1965-ci illərdə Sevastopol Hərbi Dəniz Donanmasında xidmət etmişəm. Ordu sıralarından tərxis olunandan sonra yenidən doğma zavoda qayıtmışam, çilingər, usta, böyük usta işləmişəm. 1978-ci ildə Bakı Ali Partiya Məktəbini bitirdikdən sonra müxtəlif vəzifələrdə, o cümlədən 1979-1985-ci illərdə Gəmiçiliyin partiya komitəsi katibinin müavini işləmişəm. 1980-1986-cı illərdə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun "Gəmi qurğuları" fakültəsini bitirmişəm. 1994-cü ildən yenidən taleyimi gəmiçiliklə bağlamışam.

***- Valideynləriniz Saratovda doğulublar. Bakıya necə gəlib çıxmısınız?***

- Doğrudur. Atam İvan Pavloviç Trişov 1909-cu ildə, anam Evdokiya İvanovna 1912-ci ildə Saratovda dünyaya göz açıblar. Güzəranları ağır olduğu üçün Bakıya pənah gətiriblər. Atam sürücü, anam Bayıldakı 1nömrəli uşaq xəstəxanasında texniki işçi idi. Bacım Raisa isə Gəmiçiliyin keçmiş Vano Sturua adına Gəmi təmiri zavodunda çalışırdı.

***- Ailənizdə taleyini gəmiçiliklə bağlayan var?***

- Həyat yoldaşım Larisa Dimitrovna 1947-ci ildə Bakıda dünyaya göz açıb, ali təhsilli mühəndisdir. Təqaüdə çıxanadək Gəmiçiliyin Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutunda çalışıb. İki oğlumuz, beş nəvəmiz var. İlkimiz Aleksandr Bakı Dəniz Yolları Məktəbinin məzunudur, hazırda Moskvada yaşayır. Kiçik oğlum Vadim isə Novorossiysk Dəniz Gəmiçiliyinin gəmilərində elektrik mexaniki işləyir.

***- Ulu öndərdən həmişə böyük məhəbbətlə danışırsınız...***

- Ümummilli liderimiz, müasir müstəqil Azərbaycanın qurucusu həqiqətən dahi şəxsiyyət idi. Bütün sahələri, o cümlədən gəmiçiliyi çox yaxşı bilirdi. 1979-cu ilin noyabrında Gəmiçiliyin partiya komitəsi katibinin sənaye üzrə müavini vəzifəsinə təyin olunanda qəbulunda oldum. Təxminən on dəqiqə mənimlə söhbət etdi, dəyərli məsləhətlərini verdi. Bu dahinin dilindən göstərdiyi etimadı doğruldacağıma əmin olduğunu eşitmək bilirsiniz mənim üçün nə qədər xoş idi?

***- Ömrünüzün çox hissəsi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə bağlıdır. Bilmək olarmı Gəmiçilik sizə nə verib?***

-Böyük tarixi, şanlı ənənələri olan Gəmiçilikdə işləməyimlə həmişə fəxr etmişəm. Həyatda qazandığım çox şeyə görə Gəmiçiliyə minnətdaram.

***- Minnətdarlıqla xatırladığınız adamlar çoxdur?***

- Az deyil. Hər birinin həyatımda müəyyən rolu olub.

***- Özünüzü heç dünyanın xoşbəxti hesab etdiyiniz vaxtlar olub?***

- Bəli! Lazım olduğumu dərk etdiyim vaxtlar özümü xoşbəxt saymışam.

***- Gəmiçiliyin ən vacib bir sahəsində - İstismat-kommersiya departamentində çalışırsınız. Zəngin təcrübəniz yaqin ki, cavan mütəxəssislərinizin də karına gəlir?***

- Bir vaxtlar mənim əlimdən tutduqlarını heç vaxt unutmuram. Əksəriyyəti cavanlardan ibarət departamentimizdə savadlı mütəxəssislər az deyil. Mən də bildiklərimi cavanlara həvəslə öyrətməyə çalışıram. Məlumat üçün deyilm ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. 13 gəmi-bərəmizdən ikisi "Ro-Ro" tiplidir. Hazırda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına cəlb edilən bu gəmi-bərələrin səmərəli istismarı departamentimizdə çalışanların peşəkarlığından da çox asılıdır.

***- Geri boylananda heç peşmançılıq hissi keçirdiyiniz olub?***

- Yox. İnsan ən əvvəl həyatda nədən ötrü yaşadığını dərk etməlidir. Onda həyat gözündə daha da gözəlləşir.

***- Bəlkə deyəsiniz, başqalarının uğuruna sevinə bilmək üçün insanın ürəyi nə boyda olmalıdır?***

- Mənə elə gəlir ki, nə boyda olursa-olsun, təki ürəkdə paxıllığa yer olmasın.

***-Yolunuzu tez-tez Xəzərin sahilindən salırsınız?***

- İstirahət günlərində Xəzərin sahillərində gəzməyi, dənizin yaraşığı olan ləngərli gəmilərimizi seyr etməyi xoşlayıram. Bir də, Xəzərlə bağlı o qədər xoş xatirələrim var ki... Dənizə baxanda, kino lenti kimi, gözlərimin önündən keçir.

***- Sizə doğma olan 3 şeyin adını çəkə bilərsiniz?***

-Ailəm, Gəmiçilik, Azərbaycan!

***- Ən böyük arzunuz?***

- Hər yaşın öz istəyi var. Amma möhkən cansağlığı bütün dövrlərdə insanın şah arzusudur.

***Rasif TAHİROV***

# Həyatını dənizsiz təsəvvür etməyən xanım yaxta kapitanı

***Zərif cinsin əksər nümayəndələrindən fərqli olaraq o, həyatını dənizsiz təsəvvür etmir. Uşaqlıdan sahilində göz açdığı Xəzərin vurğunudur. Dəniz onun üçün çox şey deməkdir. Belə demək mümkünsə, dənizlə nəfəs alır. Söhbət Azərbaycanın yeganə qadın yaxta kapitanı Tatyana Vladimirovna Srebnayadan gedir.***

Tatyana xanım yelkənli idman növü ilə 9 yaşından məşğul olmağa başlayıb. Beynəlxalq dərəcəli məşqçi hazırda Azərbaycan Dövlət Dəniz Akademiyasında çalışır, Bədən tərbiyəsi kafedrasının müdiridir. Gələcəyin dənizçilərinə ustası olduğu işinin incəliklərini böyük həvəslə öyrədir.

Tatyana xanımın dediklərindən:

-1966-cı il dekabrın 22-də Bakıda dünyaya göz açmışam. Atam dənizçi idi. Qəlbimdə dənizə sonsuz sevgini də atam oyadıb. O, saatlarla dənizdən danışmaqdan, mən isə onun dənizlə bağlı maraqlı xatirələrini dinləməkdən yorulmazdıq. Dənizin gözəlliyini duymaq üçün mənə dənizdən qorxmamağı, ona yaxın olmağı tövsiyə edirdi. İndi eyni şeyləri mən tələbələrimə aşılayıram. Göz işlədikcə uzanan dənizin nəhəngliyindən təşvişə düşməyə dəyməz. Vəziyyəti düzgün qiymətləndirməyi, anında düzgün qərar verməyi bacarsan, dəniz dostuna çevrilər.





Xanım kapitan dənizə, işinə elə bağlanıb ki, nə vaxtsa sevimli işindən ayrılacağını ağlından belə keçirməyib. Taleyini dənizlə, hər uğuruna sevindiyi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə bağlamaqdan məmnundur.

Tatyana xanımın dediklərindən:

– Zəngin tarixə, şanlı ənənələrə malik Gəmiçilikdə işləmək insanın həyatına ayrı bir dəyər qatır. Sevinirəm ki, dinamik inkişaf edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyini sanballı nailiyyətlərlə qeyd edir. Donanmalarımız gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan gəmilərlə yenilənir. Dor ağacında müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalanan gəmilərimizin xoş sorağı neçə-neçə dənizdən gəlir.

Tatyana xanımın fədakar əməyi yüksək qiymətləndirilib. Dövlət başçımızın sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.

Cəsur xanım kapitanın qəlbində dənizçiliklə bağlı arzuları az deyil. Biz də ona bütün istəklərinə qovuşmağı arzulayırıq.

***"DƏNİZ"***

***Deyirlər qəhrəman olmaq üçün bəzən bir neçə an da kifayətdir. Dənizçilərin isə hər anı fədakarlıqla, qəhrəmanlıqla doludur. Bu baxımdan onları dünyanın ən cəsur, ən fədakar adamları hesab etmək olar.***



# Tanrı sizi qorusun, Azərbaycan dənizçiləri!



Dənizçi əməyinin ağırlığını təsəvvür etmək üçün isə heç də ləngərli gəmilərdə açıq dənizə çıxmağa lüzum yoxdur. Yayda istidən, qışda soyuqdan gileyləndiyimizi xatırlamaq kifayətdir. Havanın "qaş-qabağını" hiss edən kimi çox vaxt evdən bayıra çıxmaq fikrindən daşınırıq, vacib işləri belə sonraya saxlayırıq. Dənizçilər isə gecə-gündüz – göydən yerə od ələnəndə də, şaxta iliyi kəsəndə də yolundan qalmırlar. Yalnız təhlükə riskinin böyük olduğunu düşündükdə, elə üzdükləri dənizdə daldalanmağa yer axtarırlar. Axı, hər dəfə havanın şıltaqlığı tutan kimi, yoldan qalsalar, küləyin az qala bütün ilboyu hakim olduğu Xəzərdə bircə səfər də vaxtında başa çatdırılmaz. Elə yüklər var ki, zay olması üçün artıq birneçə gün də kifayətdir. Gəminin anbarlarına qəbul edilən yüklərin mənzil başına vaxtında və itkisiz çatdırılmaması isə dənizçilərin peşəkarlığı ilə yanaşı, təmsil etdikləri Gəmiçilik şirkətinin də nüfuzunu şübhə altında qoya bilər.

Hər işin öz çətinlikləri var. Dənizdə isə asan heç nə yoxdur. Çünki, dəniz hər zaman dənizdir. Sakit olanda da, sahilinə sığmayanda da. Dənizdə davam gətirmək, yerə-göyə meydan oxuyan dalğalara sinə gərmək üçün dənizin dəymədüşərliyindən baş çıxarmaq lazımdır. Üzdüyü dənizi beş barmağı kimi tanımayanı dəniz də tanımır.

Dənizdən uzaq adamlar görəsən bütün həyatları boyu ən çox neçə imtahan verirlər, neçə sınaqdan keçirlər? Dənizçi isə gəmi körpüdən aralanandan təyinat limanına çatanadək təkcə bir səfərdə neçə sınaqdan keçir. Hər səfərin özü böyük bir imtahandır. Bu imtahanlardan hər dəfə uğurla çıxmaq üçün hətta peşəkar, təcrübəli dənizçilər də daim biliyini artırmalıdırlar. Çünki dənizdən çox bildiyini düşünənləri dəniz bağışlamır, nə vaxtsa peşman edir.

Quruda vaxtında görə bilmədiyimiz çox işi "dünya dağılmaz" inamı ilə sabaha saxlayırıq. Hər dəqiqəsi hesabda olan dənizdə isə sonraya saxlanılası iş yoxdur. Hər bir iş vaxtında və dəqiq görülməlidir. Üstəlik, dənizin şıltaqlığından doğan işlər... Dəniz heç kəsin nazı ilə oynamır.

Quruda heyət boyda bəzi kollektivlərdə bir neçə işbilənin hesabına çətin vəziyyətlərdən çıxmaq da olur. Dənizdə heyətin hər bir üzvünün öz işini mükəmməl bilməsi, bütün tapşırıqları səhvsiz yerinə yetirməsi də kifayət etmir. Heyət mehriban bir ailə olmasa, dənizçilərin hamısı ümumi məqsəd naminə əl-ələ, çiyin-çiyinə verməsə, yerə-göyə meydan oxuyan dalğalar qoynunda uğur qazanmaq mümkün deyil.

Bir işimiz istədiyimiz kimi getməyəndə dərhal giley-güzara başlayırıq. İş yerini dəyişmək fikrinə düşənlər də tapılır. Amma, ən çətin anlarında da əsl dənizçidən "İşin necədir?" soruşanda bir cavab eşidirsən:"Qaydasındadır!" Dünyanın ən dözümlü adamları giley-güzar etməyi xoşlamırlar.

Taleyini dənizlə bağlayanlar dünyanın harasında olsalar da, ürəkləri Vətən eşqi ilə çırpınır, yurdlarını, ailələrini bir an unutmurlar. Dənizçilərin yad sularda böyük qürürla dalğalandırdıqları üçrəngli bayrağımıza sevgisini görəsiniz. Xarici limanlarda gəminin hansı ölkəyə mənsubluğunu soruşanda məmləkətimiz boyda iftixarla "Azərbaycanın!" deyirlər.

Biz də eyni sevgi ilə deyirik:"Tanrı Sizi qorusun, Azərbaycan dənizçiləri!"

***Rasif TAHİROV***

# NƏ VAXT YATAĞINA SIĞIB Kİ, XƏZƏR?



*Hardan qaynaqlanır görən bu sevgi?*
*Hardandır dənizə belə məhəbbət?*
*İnsanın peşəyə sədaqətinə,*
*Eləyir dənizin özü də heyrət.*

*Nə vaxt yatağına sığıb ki, Xəzər?*
*Boyu göyə çatan dalğası azdı?*
*Gündə min sınaqdan keçir dənizçi,*
*Yenə də dənizlə arası sazdı.*

*Uşaqlar top ilə oynayan kimi,*
*Dalğalar gəmini atıb-tutur hey.*
*Görüb dənizçinin ərənliyini*
*Yəqin Allah ona kömək edir e...*

*Baxır igidliyə adi iş kimi,*
*Heç vaxt qürrələnmir, heç vaxt öyünmür.*
*Dəniz cin atına minəndə belə,*
*Əsil dənizçilər heç vaxt deyinmir.*

***Rasif İMANOGLU***

# Dənizçilik mövzusuna həsr olunan ilk sərgiyə maraq böyük idi

***Gündən-günə çiçəklənən müstəqil Azərbaycanımızda bütün sahələrə, o cümlədən mədəniyyətə dövlət səviyyəsində böyük diqqət yetirilir. Ümummilli lider Heydər Əliyev mədəniyyəti hər zaman xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün mümkün olan hər şeyi edirdi. Ulu öndər deyirdi ki, yüksək mədəniyyətə malik xalq həmişə irəli gedəcək, yaşayacaq və inkişaf edəcək.***








Hazırda Ümummilli liderin ideyaları onun layiqli davamçısı Prezident İlham Əliyevin də siyasi xəttinin əsas prioritetlərini təşkil edir. Ölkə başçısının, eləcə də Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqəti nəticəsində Azərbaycan mədəniyyəti bütün dünyada tanınır və təbliğ olunur. Bunların sırasında musiqi, teatr, kino, təsviri incəsənət və mədəniyyətin digər istiqamətlərini göstərmək olar.

Elə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin 160 illik yubileyi çərçivəsində gənc rəssamlar arasında dənizçilik mövzusunda gerçəkləşdirdiyi ilk təsviri incəsənət müsabiqəsi və sərgisi də ölkə mədəniyyətinə kiçik bir töhfə idi.

"Gəmiçilik – 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir" mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsinə ümumilikdə 100-dən çox əsər təqdim edilmişdi.

Hər bir təsviri incəsənət nümunəsində Xəzər dənizçilərinin çətin və spesifik əməyi, ölkəmizdə gəmiçiliyin inkişafı, Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi, Xəzərin əlverişli su yolu olması, zəngin təbii sərvəti, gözəl mənzərələri, biomüxtəlifliyi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Xəzərdə və beynəlxalq sulardakı fəaliyyəti, dənizçilik sahəsində xüsusi əməyi olan nüfuzlu şəxsiyyətlər kimi mövzular təsvir olunub.

Müsabiqəyə təqdim olunan əsərləri Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələrindən ibarət münsiflər heyəti qiymətləndirib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarov, ADRA-nın prorektoru, xalq rəssamı Fuad Salayev, Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Səlhab Məmmədov, xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının heykəltəraşlıq bölməsinin sədri Xanlar Əhmədov, Azərbaycan Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov, ARİ-nin qrafika bölməsinin sədri, əməkdar rəssam Həmzə Abdullayev, "AXDG" QSC-nin sədr müavini Fərhad Quliyev və "AXDG" QSC-nin departament rəisi, əməkdar jurnalist Mehman Mehdiyev ən yaxşı əsərləri - hər nominasiya üzrə (rəngkarlıq, heykəltəraşlıq, qrafika) qalibləri müəyyən ediblər.

***"Rəngkarlıq" nominasiyası üzrə:***

1-ci yer – Emiliya İbrahimova – "Xəzərin işığı";

2-ci yer – Tural Bayramov – "57-ci körpü";

3-cü yer – Vəfa Sultanova – "Gəmilər".

*Həvəsləndirici yerlər:*

4-cü yer – Cavid Həsənli – "Keçmişdən gələcəyə. Cəsur dənizçilər";

5-ci yerlər – Gül Həsənova – "Fırtınalı Xəzər" və Bəsti Qasımova – "Xəzərim mənim".

***"Heykəltəraşlıq" nominasiyası üzrə:***

1-ci yer – İlqar Ağaşov – "Günəşli";

2-ci yer – Rahib Qarayev – "Odlar yurdu";

3-cü yer – Süleyman Rüstəmov – "Oyanış".

*Həvəsləndirici yerlər:*

4-cü yer – Vasif Həsənli – "Dəniz cəsurları sevir";

5-ci yer – Mariya Pimenova – "Həyat damcısı".

***"Qrafika" nominasiyası üzrə:***

1-ci yer – Yuliya Tarlakovskaya – "Kaspiy";

2-ci yer – Aynurə Yusifzadə – "Yanan buruq";

3-cü yer – Ruhəngiz Bağırova –"Xəzərim mənim".

*Həvəsləndirici yerlər:*

4-cü yer – Nübar Abbasova – "Liman";

5-ci yer – Günay Mustafazadə – "Vikinqlər".

Bundan başqa, "AXDG" QSC-nin rəsmi facebook səhifəsində sentyabrın 1-dən 15-nə kimi keçirilən açıq səsvermədə hər nominasiya üzrə (rəngkarlıq, heykəltəraşlıq, qrafika) üç ən çox "like" toplayanların adları da bəlli olub. Həmin şəxslərə həvəsləndirici mükafatlar verilib.

"Rəngkarlıq" nominasiyası üzrə Tural Bayramov, Cavid Həsənli, Leyla Rəşidova, "Heykəltəraşlıq" nominasiyası üzrə Rahib Qarayev, Mariya Pimenova, Pərviz Abasov, "Qrafika" nominasiyası üzrə Nübar Abbasova, Afət Mirzəyeva və Fərəh Mirzəyeva ən çox "like" yığıblar.

Onu da əlavə edək ki, müsabiqəyə təqdim olunmuş əsərlərdən ibarət nəfis tərtibatda kataloq da çap olunmuşdu.

Oktyabrın 1-də Muzey Mərkəzinin Sərgi Qalereyasında açılış mərasimi keçirilən sərgidə 100-dən çox təsviri incəsənət (rəngkarlıq, qrafika, heykəltəraşlıq) əsəri yer almışdı. Açılış mərasimində çıxış edən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarov müsabiqə-sərgiyə təqdim olunan əsərlərdən danışarkən bildirib ki, gənc rəssamların hər bir işi özünəməxsusluğu ilə fərqlənir. O, əsərlərin məzmun baxımından düzgün seçildiyini, rəssamların dəniz və dənizçiliyə olan marağının hər bir işdə ifadə olunduğunu vurğulayıb.

*(Davamı 32-ci səhifədə)*





# Dənizçilik mövzusuna həsr olunan ilk sərgiyə maraq böyük idi












*(Əvvəli 31-ci səhifədə)*

Təşkilatçılara minnətdarlıq edən xalq rəssamı bildirib ki, mədəniyyətimizin inkişafı və təbliği baxımından sərgi olduqca böyük əhəmiyyətə malikdir. Sevindirici haldır ki, 160 illik tarixə malik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi belə bir vacib layihəni gerçəkləşdirib. Bu, onu göstərir ki, Gəmiçilik tarixi ənənələrimizə hörmətlə yanaşır və sadiqlik nümayiş etdirir.

Daha sonra çıxış edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev sərginin keçirilməsi ideyasının yaranmasından danışıb. Bildirib ki, əsas məqsəd gənclərə dəstək olmaq, onların əl işləri ilə ictimaiyyəti yaxından tanış etməkdir:"Xalqımızın Ümummilli lideri Heydər Əliyev insan kapitalını ən böyük milli sərvət hesab edirdi. Vətəndaşların bütün sahələrdə hərtərəfli inkişafı onun diqqətində idi. Bu baxımdan Heydər Əliyev mədəniyyət sahəsini də heç vaxt unutmurdu. Tez-tez bu sahədə fəaliyyət göstərən şəxslərlə görüşür, onların yaradıcılıq imkanlarının genişlənməsi üçün əlindən gələni edirdi. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev də ölkə mədəniyyətinin, incəsənətinin təbliğinə xüsusi önəm verir. Bundan başqa, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə də bu istiqamətdə ciddi işlər həyata keçirilir. Azərbaycanda, eləcə də dünyanın müxtəlif ölkələrində mədəni tədbirlər, sərgilər, konsert proqramları təşkil olunur".

Rauf Vəliyev qeyd edib ki, bugün Azərbaycanda gənclərin istedadının üzə çıxarılması və onların inkişafı üçün hər cür şərait yaradılıb. Biz də 160 illik yubileyini qeyd edən bir Gəmiçilik şirkəti olaraq yaradıcı gənclərə dəstək olmağı özümüzə mənəvi borc bilirik.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktoru Qüdrət Qurbanov isə çıxışında təşkil olunan sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, dəniz və dənizçilik mövzusunda gənc rəssamlar arasında keçirilən müsabiqə-sərgi təkcə istedadlı gənclərin dəstəklənməsi baxımından deyil, həm də bu sahəyə ictimaiyyətin marağının artırılması üçün olduqca önəmlidir.

Çıxışlardan sonra sərginin açılışını bildirən qırmızı lent kəsilib və tədbir iştirakçıları əsərlərlə tanışlığa dəvət olunub. Sərginin tərtibatı, nümayiş olunan təsviri incəsənət nümunələri qonaqlarda xoş təəssürat yaradıb. Sərgi 7 gün davam edib.

Qeyd edək ki, müsabiqənin qaliblərinə diplom və mükafatlar, əsərləri sərgilənən digər iştirakçıların hər birinə isə sertifikatlar verilib.

# FOTOLARIN HƏR BİRİ ÖZÜNDƏ BÖYÜK BİR TARİXİ YÜK DAŞIYIR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və "Bakı Metropoliteni" QSC-nin birgə təşkilatçılığı ilə "Gənclik" metrostansiyasında "Metro Gallery" layihəsi çərçivəsində "Gəmiçilik-160 il" mövzusunda fotoqalereya açılıb. Bununla da paytaxt sakinləri və Bakının qonaqları stansiyanın hər dörd çıxışının əsas vestibüllərində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixini əks etdirən nadir fotoları görmək imkanı qazanıblar.***






Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik yubileyinə həsr olunan sərgidə 90-dan çox foto nümayiş edilir. Fotoların hər biri Xəzərdə Azərbaycan gəmiçiliyinin müxtəlif dövrlərini əhatə edir. Burada Xəzər dənizində üzən ilk gəmilər, tanınmış dənizçilər, neft mədənləri, tacirlər haqqında maraqlı fotolara rast gəlmək mümkündür.

Sərgidə müxtəlif arxivlərdən əldə edilən nadir fotolar nümayiş olunur. Bu fotolar həm "AXDG" QSC-nin əməkdaşları, həm də araşdırmaçı-jurnalist, Bakı Media Mərkəzinin redaktoru, əməkdar mədəniyyət işçisi Müsəllim Həsənovun araşdırmaları ilə ortaya çıxıb. Fotoların hər biri özündə böyük bir tarixi yük daşıyır.

Sərgilənən hər fotonun yanında yerləşdirilən pasportuda onun anotasiyası verilib. Bundan başqa, sərgi izləyicilərinə fotoşəkillər barədə virtual məlumat almalarına da şərait yaradılıb. Belə ki, izləyicilər smartfonları vasitəsi ilə şəkillərdəki "QR" koddan istifadə edərək Bakı metropoliteninin rəsmi saytında yerləşdirilmiş elektron qalereyaya daxil ola və fotoların yüksək keyfiyyətlə nümunələrini yükləyə bilərlər.

Fotolar ilin sonuna kimi sərgilənəcək. Bununla, stansiya keçidlərindən istifadə edən metro sərnişinləri – paytaxt sakinləri və şəhərimizin qonaqları, eləcə də mövzu ilə maraqlanan hər kəs Xəzərin sularında Gəmiçiliyin inkişaf tarixinə virtual səyahətə çıxmaq fürsəti əldə edəcəklər.

*Rövşən ABDURƏHMANOV*

**Azərbaycan Dövlət Dəniz Akademiyasında Gəmi elektromexanikası fakültəsinin elektrik mühəndisliyi ixtisası üzrə dördüncü kurs (365 A1 qrup) tələbəsi Şəhriyar Elxan oğlu Tapdıqova 2015-ci ildə verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Dövlət Dəniz Akademiyasında Gəmi elektromexanikası fakültəsinin elektrik mühəndisliyi ixtisası üzrə dördüncü kurs (365 A1 qrup) tələbəsi Kənan Asif oğlu Qasımlıya 2015-ci ildə verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3038